www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14 iyul 2016-cı il Cümə axşamı № 151 (6472) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda orta məktəbin zirzəmisində cəbbəxana aşkarlandı

yazısı səh.14-də

**Gündəm**

### Prezident biznes mühitinin yaxşılaşdırılması üçün komissiya yaratdı



Ölkə başçısı investisiya mühitinin əlverişliliyini, yerli və xarici investorlar üçün cəlbediciliyini daha da artırmaq üçün mühüm sərəncam imzaladı

yazısı səh.3-də

### Eldar Mahmudovun kamerasına Azər Tağıyev də tuş gəlib

yazısı səh.4-də

### Prezidentin Qarabağ mesajlarında müharibə anonsu

yazısı səh.5-də

### Bağlanan bankların faiz problemi - vətəndaşlar narazıdır...

yazısı səh.7-də

### Ərəblər Bakıya axın edir

yazısı səh.3-də

### Binəqədidəki yanan binada dünyasını müəmmalı şəkildə dəyişən şəxsin bacısı danışdı

yazısı səh.12-də

### Rəsmi Bakı Sərkisyanın sərsəm iddiasına cavab verdi

yazısı səh.9-da

### Daşınmaz əmlak bazarı iflic olub; "Son 3 ayda bir mənzil satmışıq"

yazısı səh.10-da

### Dəhşətli "yol terroru" statistikası; 6 ayda 304 nəfər ölüb, 970 yaralanıb

yazısı səh.14-də

### Qarabağa dair ürkək diplomatiya - yerində qaçış, yoxsa...

yazısı səh.11-də

### Putin Azərbaycanı seçdi... nəyin qarşılığında?

yazısı səh.5-də

## Sülh axtarışlarının ləngliyi savaşı qaçılmaz edir

# QARABAĞDA İKİ MÜHARİBƏ XƏBƏRDARLIĞI - BİRİ RUSİYADAN, O BİRİ ABŞ-DAN...

**Azərbaycan əsilli tanınmış rusiyalı ekspert:** "Konflikt yalnız böyük müharibə nəticəsində həllini tapacaq"; "Bloomberg"ə görə isə Rusiya Ermənistana təzyiq etməsə, problem dinc yolla nizamlanmayacaq...




yazısı səh.8-də

## Banklarla əlbir olan kollektorların "quldurluğu"...

Ölkədə kollektorların fəaliyyəti qanunla tənzimlənmir, qanunsuz işlə məşğul olan qurumları kimlər himayə edir?

yazısı səh.13-də



*Adil Qeybulla:*

**"Ürəyin fəaliyyətinin anidən dayanmasının səbəbi hələ ki bəlli deyil"**

yazısı səh.3-də



*Vahid Əhmədov:*

**"Hansı məmurlar 100 hektarlarla torpaqları ucuz qiymətə mənimsəyibsə, adları açıqlanmalıdır"**

yazısı səh.6-da



*Elxan Şahinoğlu:*

**"Rusiya danışıqlarla bağlı yekun qərarını verməyib..."**

yazısı səh.9-da

# 14 iyul 2016

Elxan Mehdiyev

## Daşınmaz əmlakın kadastrına dair Dövlət Proqramı təsdiq edildi

**Prezident İlham Əliyev "Azərbaycan Respublikasında daşınmaz əmlakın kadastrı sisteminin inkişafı, torpaqdan istifadənin və onun mühafizəsinin səmərəliliyinin artırılmasına dair 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının əlaqələndirilməsi Əmlak Məsələləri Dövlət Komitəsinə həvalə edilib.

Nazirlər Kabinetinə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## Bakıdan Bolqarıstana avtobusla səfər edənlərə 3 gün ərzində viza veriləcək

**İyul ayının 1-dən etibarən Bakı-İstambul-Sofiya, Bakı-İstambul-Varna, Bakı-İstambul-Burqas istiqamətində reyslər həyata keçirilir. Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəsmisi Şəfa Mehmanqızı "APA-Economics"ə bildirib ki, bununla əlaqədar olaraq Bakı Beynəlxalq Avtovağzalı ilə Bolqarıstan səfirliyi arasında aparılan danışıqlara əsasən, vətəndaş aldığı gediş biletini səfirliyə təqdim etməklə, 3 gün ərzində Bolqarıstan vizası ala biləcək.**

Qeyd edək ki, reyslər həftənin 2-4-6-cı günləri həyata keçirilir. Biletin qiyməti 130 manatdır.



## 3 hakimə töhmət verildi

**5 hakim barədə isə intizam icraatı başlandı Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. Şuradan APA-ya verilən məlumata görə, iclasda ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə ölkə prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl islahatlar qeyd olunub, məhkəmə fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər müzakirə edilib.**

Fikrət Məmmədovun sədrliyi ilə keçirilən iclasda həmçinin, hakimliyə namizədlərin seçilməsi prosesi ilə bağlı Hakimlərin Seçki Komitəsinin məlumatı dinlənilib.

Qeyd olunub ki, hakim vəzifəsinə namizədlərin tam şəffaf şəraitdə, ən müasir beynəlxalq tələblər səviyyəsində seçimi nəticəsində son illər 2600 namizəd sırasından 300-dən çox yüksək hazırlıqlı hüquqşünas seçilərək müvafiq hakim vəzifələrinə təyin edilib. Hakimlərin hazırki seçimi prosesi ilə bağlı namizədliyini irəli sürmüş 800 hüquqşünasla ötən ay bərabər şəraitdə, vahid zalda test imtahanı keçirilib, onun bütün mərhələləri, o cümlədən sualların seçilməsi və imtahan nəticələrinin yoxlanılması namizədlərin qarşısında təşkil olunmuş və bütün imtahan prosesi "on-layn" rejimində internet vasitəsilə birbaşa yayımlanıb. İmtahan çoxsaylı yerli və beynəlxalq müşahidəçilər tərəfindən izlənilərək yüksək dəyərləndirilib.

İclasda hakimliyə namizədlərin seçimi prosesinin növbəti mərhələlərinin təşkilati məsələlərinə toxunulub, imtahanların tam şəffaf və obyektiv keçirilməsinin, ən layiqli hüquqşünasların seçilərək hakim vəzifələrinə təyin edilməsinin vacibliyi vurğulanıb.

**Eyni zamanda hakimlər barədə intizam icraatlarına baxılaraq fəaliyyətlərində ciddi qanun pozuntuları və süründürməçilik hallarına yol verdiklərinə görə Şəki Apellyasiya Məhkəməsinin hakimi İmamverdi Şükürova, Beyləqan Rayon Rayon Məhkəməsinin sədri Maşalla Şirvanova və həmin məhkəmənin hakimi Nəsrullah Əliyevə töhmət verilib, qanunvericiliyin pozulması halları ilə bağlı 5 hakim barədə intizam icraatları başlanılıb.**


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# "Azərbaycan əhalisinə verilən su insan sağlamlığı üçün təhlükəlidir"

### Britaniyalı ekspertlərdən sensasion xəbərdarlıq; "Azərsu" isə təkzib edir...




**Azərbaycan əhalisinə verilən su insan sağlamlığı üçün təhlükəlidir. APA xəbər verir ki, bu barədə Böyük Britaniyanın nüfuzlu "The Daily Mail" nəşri ekspertlərə istinadən yazır.**

Nəşr turistlər üçün hazırladığı xəritədə krandan su içməyin təhlükəli və təhlükəsiz olduğu ölkələrin adlarını qeyd edib.

Nəşrin sorğu keçirdiyi ekspertlər bir sıra ölkələrlə yanaşı Azərbaycanı "üçüncü ölkələr" sırasına aid edib. "Bu cür ölkələrdə krandan gələn su ilə heç diş yumağı da tövsiyə etmirik", - deyə ekspertlər qeyd edib.

Məsələn, Rusiyada krandan su içmək bir sıra xəstəliklərə, o cümlədən "Hepatit A"-ya yol aça bilər.

Analoji vəziyyət Ermənistan, Gürcüstan, Moldova, Belarus, Ukrayna, Türkiyə və s. ölkələrdədir.

**"Azərsu" ASC-nin yaydığı açıqlamada isə deyilir:** "İlk növbədə xəbərdə istinad olunan ekspertlərin kimliyi və bu qənaətə necə gəlmələri açıqlanmalıdır. Bu xəbərin Azərbaycanla bağlı hissəsi həqiqəti əks etdirmir və "Azərsu" ASC olaraq bəyan edirik ki, bu gün paytaxt Bakının yerləşdiyi Abşeron yarımadası daxil olmaqla, Azərbaycanın əksər bölgələrində əhaliyə verilən içməli su qüvvədə olan standartlara uyğundur. Son illər yaradılmış yeni su mənbələrindən, tikilmiş sutəmizləyici qurğulardan *(Ceyranbatan Ultrasüzgəclu sutəmizləyici qurğular kompleksi, Küllüllü mənbəyi, Quba, Mingəçevir, Xanbulançay sutəmizləyici qurğuları)* verilən içməli su Dünya Səhiyyə Təşkilatının standartlarına tam uyğundur. Yeri gəlmişkən, ötən ilin oktyabrında istismara verilmiş Ceyranbatan Ultrasüzgəclu sutəmizləyici qurğular kompleksi Əbu-Dabu şəhərində keçirilmiş Qlobal Su Sammitində 2015-ci ilin dünya su sənayesinin 4 önəmli layihəsindən biri seçilib. Son dövrlər Azərbaycanın 43 şəhər və rayon mərkəzində su və kanalizasiya sistemlərinin yenidən qurulması layihələri icrası həyata keçirilib ki, artıq onların 23-də su təchizatı sistemlərinin yenidən qurulması başa çatıb, 10 şəhərə yeni mənbələrdən suyun verilməsinə başlanılıb. Bununla da həmin şəhərlərdə əhalinin keyfiyyətli içməli su ilə təminatına nail olunub. İçməli suyun mənbələrdən istehlakçıya çatdırılmasına qədər bütün mərhələlərdə onun keyfiyyət göstəriciləri daim nəzarətdə saxlanılır. Eyni zamanda Səhiyyə Nazirliyi tərəfindən içməli suyun keyfiyyət göstəricilərinə dövlət nəzarəti həyata keçirilir. Bu gün paytaxt Bakı da daxil olmaqla, əksər şəhərlərdə insanlar krandan gələn su ilə nəinki dişlərini fırçalayır, hətta ondan içirlər".

## Putin, Olland və Merkel müzakirələr aparıblar

**Rusiya, Fransa və Almaniya prezidentləri bu gün telefon danışıqları aparıblar.**

"Trend" "RİA-Novosti"yə istinadən xəbər verir ki, bu barədə Kremlin mətbuat xidmətindən bildiriblər.

Vladimir Putin, Fransua Olland və Angela Merkel danışıq zamanı Ukrayna üzrə müzakirələrin "Normand dördlüyü" və "Kontakt qrupu" çərçivələrində aktivləşdirilməsinə dair əzmkarlıqlarını bir daha təsdiqləyiblər.

## Ukraynada azərbaycanlı Apelyasiya Məhkəməsinin sədri təyin olunub

**Ukraynada azərbaycanlı Çerniqov vilayəti üzrə Apelyasiya Məhkəməsinin sədri təyin olunub.**

APA-nın məlumatına görə, yeni təyinat alan şəxs əslən Azərbaycanın Tovuz rayonunun Aşağı Əyyublu kəndindən olan, 1959-cu il təvəllüdlü Sadiq Rza oğlu Tağıyevdir.

S.Tağıyev APA-ya bildirib ki, bu vəzifəyə qədər Luqansk vilayətində Ali Məhkəmənin sədr müavini olub. 1977-ci ildə Donetsk Tibb İnstitutunu bitirən R. Tağıyev tibb sahəsində çalışıb. 1985-ci ildə SSRİ Daxili İşlər Nazirliyi yanında kriminalistika kursunu bitirdikdən sonra Luqansk vilayətində milis orqanlarında işləyib.

**1987-ci ildə Xarkov Universitetində hüquq fakültəsini bitirən R.Tağıyev 1992-ci ildən məhkəmə sistemində müxtəlif vəzifədə çalışıb.**




## Dövlət Sosial Müdafiə Fonduna yeni direktor təyin edildi

**Əmək və əhalinin sosial müdafiəsi nazirinin müvafiq əmrinə əsasən, Zakir Hadı oğlu Babayev Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna direktor təyin edilib. Bu barədə nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elman Babayev "APA-Economics"ə məlumat verib.**

Şöbə müdiri əlavə edib ki, əmək və əhalinin sosial müdafiəsi nazirinin digər əmrləri ilə Əminə Seyidzadə, Səfər Mehdiyev və Sərdar Xıdırov DSMF direktorunun müavinləri vəzifələrinə təyin olunublar. Ə. Seyidzadə və S. Xıdırov bundan əvvəl Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidmətinin rəis müavinləri, S. Mehdiyev isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparatının rəhbərinin müavini vəzifəsində çalışıblar.

**Qeyd edək ki, Z.Babayev 1951-ci ildə anadan olub. O, 1974-cü ildə indiki Azərbaycan Neft Akademiyasının Mühəndis-iqtisad fakültəsini iqtisadçı-mühəndis ixtisası üzrə bitirib. Həmin ilin avqustundan 1986-cı ilin yanvarınadək SSRİ Kimya və Neft Maşınqayırma Sənayesi Nazirliyinin Ümumittifaq Elmi Tədqiqat Layihə Texnoloji Neft Maşınqayırma institutunda mühəndis, böyük mühəndis, plan-istehsalat şöbəsinin müdiri, sonralar Nazirlər Kabinetinin aparatında iqtisadi şöbənin böyük referenti, baş mütəxəssis vəzifələrində çalışıb. 1993-cü ilin yanvarın 12-də Dövlət Sosial Müdafiə Fondunun sədr müavini vəzifəsinə təyin edilib. Azərbaycan prezidenti İlham Əliyevin 8 oktyabr 2012-ci il tarixli Sərəncamı ilə dövlət qulluğunda səmərəli fəaliyyətinə görə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilib.**



## İqbal Ağazadə gələcək planlarından danışdı

### "Sentyabrdan fərqli şəkildə işə başlayacağıq"

**Ümid Partiyasının sədri İqbal Ağazadə 90 saylı Ağdaş seçki dairəsi üzrə Milli Məclisə keçirilən təkrar seçkilərdə deputat ola bilməsə də partiya fəaliyyətinə əvvəlki qaydada davam edir. Bu barədə "Yeni Müsavat"a danışan partiya sədri bildirib ki, Ümid Partiyasının qarşısında duran əsas məqsəd kadr bazasını genişləndirməkdir:**

"Bu istiqamətdə ciddi işlərimiz gedir. Yeni insanların siyasi prosesə cəlb olunması və siyasi proseslərdə dinamikliyin artması istiqamətində həm təyin etdiyimiz müavinlər ardıcıl iş aparırlar, həm də bu məsələlərlə bağlı ümumi görüşlərimiz olur. Sentyabr ayına yaxın isə artıq fərqli şəkildə yeni proqramlarla və o cümlədən strukturları genişləndirməklə işə başlayacağıq. Yeri gəlmişkən qeyd edim ki, biz anti-böhran proqramı ilə də hakimiyyətə təkliflərimizi vermişdik. Proqramın böyük əksəriyyətini hakimiyyət, bu və ya digər şəkildə yerinə yetirdi. Eyni zamanda bu proqramın da üzərində daha nələri etməyin mümkün olması istiqamətində tamamlanma işləri aparılır. Təəssüf ki, hökumət tərəfindən bu işlər yarımçıq göründü. Ancaq biz partiyanın edə biləcəyi yeni təklifləri bir daha müzakirə edirik".

**İ.Ağazadə bildirib ki, 2018-ci ilin prezident seçkilərinə və 2020-ci ilin parlament seçkilərinə hazırlaşırlar:** "Biz daim seçkilərə hazırlaşırıq. Bizim seçkiyə hazırlaşmadığımız vaxt olmur. Həm 2018, həm də 2020-ci il seçkiləri bizim üçün olduqca vacibdir. Birinci mərhələdə qarşımıza qoyduğumuz məqsəd, dairələr üzrə təhkimçilikdir. Yəni dairələr üzrə təhkim olunan şəxslər və onların aparacağı işlərdir. Əsasən bu istiqamət üzrə işlər görürük".

**Əli RAİS**


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**Bakıda bu il turistlərin sayında xeyli artım müşahidə olunur. Xüsusilə də onlar arasında ərəblər üstünlük təşkil edirlər. Ərəblər əsasən Bakının mərkəzi küçələrində, bulvar ərazisində və "Fəvvarələr meydanı"nda gəzirlər.**



# Ərəblər Bakıya axın edir

## Fikrət Yusifov: "Bu turistlər ölkəmizdə aqrar sektora yatırım da edə bilərlər"



Elə müxtəlif kafe və mağaza sahibləri də musavat.com-a təsdiqlədilər ki, iyunun 20-dən sonra paytaxtımıza gələn ərəblərin sayı nəzərəçarpacaq dərəcədə artıb. Onların sözlərinə görə xüsusilə də iyul ayından etibarən ərəblər Bakıya kütləvi şəkildə gəlməyə başlayıblar. Bakı küçələrində müşahidə etdik ki, gələnlərin arasında daha çox qadınlar üstünlük təşkil edirlər. Onlar paytaxtda rahat şəkildə gəzib, ticarət mərkəzlərindən alış-verişlər edib, bahalı kafelərdə qidalanırlar. Elə artıq Bakıda bəzi kafelərin də üzərində ərəbcə elanlara, yazılı lövhələrə rast gəlmək olur.

Maraqlı məqam ondan ibarətdir ki, Bakıda heç bir bələdçi olmadan gəzən ərəblərə şəhərin əsasən tarixi yerlərində deyil, mağazaların, iaşə obyektlərinin çox olduğu yerlərdə rast gəlmək olur.

**İqtisadçı ekspert Fikrət Yusifov** mövzu ilə bağlı musavat.com-a bildirib ki, ərəblərin Azərbaycana üz tutması ilk olaraq, ölkəmizdə mövcud olan ictimai-siyasi sabitliklə əlaqəlidir: "Digər tərəfdən cənab prezident Bakıda keçirilən "Formula-1" yarışları öncəsi xarici vətəndaşlara viza verilməsi məsələlərinin sadələşdirilməsi ilə bağlı müəyyən addımlar atdı. Bu da təbii ki, turistlərin ölkəyə axınının artmasına səbəb olan amildir. Azərbaycan ümumiyyətlə, turizm baxımdan cəlbedici ölkələrdən biridir. Ölkəmizin gözəl guşələri var. Statistikaya görə Şəki şəhərinə gələn turistlərin sayı son bir neçə il ərzində 10 dəfələrlə artıb. Bu o deməkdir ki, ora gələn insanlar həm də təbliğatçı rolunu oynayaraq, ətraflarında olan digər şəxslərin də ölkəmizə gəlməsinə vasitəçilik edirlər. Eyni zamanda hazırda yay mövsümü olduğu üçün ölkəmizdə çimərliklərin, istirahət guşələrinin olması xarici vətəndaşları cəlb edən nüansdır".

**Ekspert bildirib ki, ölkəmizə gələn ərəblər təkcə turist kimi deyil, başqa cür də iqtisadiyyatımıza fayda verə bilərlər**: "Ümumiyyətlə, neft ölkəsində yaşayan insanların əksəriyyəti əsasən varlı şəxslərdir. Bu insanlar isə ölkəmizdə təbii ki, aqrar sektora yatırım edə bilərlər. Eyni zamanda onlar burada müştərək biznes də qura bilərlər. Bu bizim üçün müsbət hal olar və qeyri-neft sektorumuzun inkişafına yardım edər. Azərbaycanın iqlimi elədir ki, burada kənd təsərrüfatı məhsullarını yetişdirmək üçün çox gözəl imkanlar var".

**F.Yusifov bildirib ki, indiki məqamda turizm sahəsində, xidmət sektorunda bəzi məsələlərdə dəyişikliklər etmək lazımdır:**

"Bəzi məsələlərdə biz geridə qalırıq. Bu gün turizm sektorunda xidmət göstərən tərəflər qonşu dövlətlərin, xüsusilə də Türkiyənin təcrübəsindən faydalanmalıdırlar. Reallıqlarla hərəkət etmək lazımdır. İndi elədir ki, dünya internet dünyasıdır və informasiya almaq çox asandır. Hər bir insan haradasa istirahət üçün seçim edərkən kompüter qarşısında oturaraq, bu barədə araşdırma aparır. Onlar qiymətləri, xidmətin keyfiyyətini müqayisə edirlər. Yalnız bundan sonra o yekun qərarını verir. Təbii ki, əgər misal üçün Türkiyədə otelin qiyməti Azərbaycandan ucuzdursa, orada baş verən terror hadisələri fonunda müəyyən narazılıqlar olsa belə, turist Azərbaycanı seçməyəcək. Ona görə də bu məsələdə qiymət siyasəti ən əsas məsələlərdən biridir. Düzdür, keyfiyyət də aparıcı göstəricilərdən hesab olunur. Ancaq bəzən keyfiyyətdə o qədər də ciddi fərq olmadığında buna əhəmiyyət vermirlər. Bu baxımdan bizdə turizm xidməti göstərənlər qiymət məsələlərində reallığa söykənməlidirlər. Ərəblər üçün menyuya hər hansı bir dilin artırılmasına gəlincə bu elə də çətin iş deyil. Sözsüz ki, ərəblər əgər başqa yerə gedirlərsə, müəyyən qədər ingilis dilini bilirlər. Ancaq ərəblərin Bakıya axını kütləvi hal aldıqda, dil məsələsinə də diqqət etmək lazımdır".

❑ **Əli RAİS**
**Fotolar müəllifindir**



# Prezident biznes mühitinin yaxşılaşdırılması üçün komissiya yaratdı

## Ölkə başçısı investisiya mühitinin əlverişliliyini, yerli və xarici investorlar üçün cəlbediciliyini daha da artırmaq üçün mühüm sərəncam imzaladı

**Prezident İlham Əliyev Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

"APA-Economics"in məlumatına görə, ölkənin biznes və investisiya mühitinin əlverişliliyini, yerli və xarici investorlar üçün cəlbediciliyini daha da artırmaq, sahibkarlıq sahəsində son illərdə nail olunmuş sürətli inkişafın davamlığını təmin etmək və rəqabət qabiliyyətini möhkəmləndirmək, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyini daha da yaxşılaşdırmaq məqsədi ilə Komissiya və Komissiyanın Katibliyi yaradılıb.

Komissiya və Komissiyanın Katibliyinin tərkibi aşağıdakı kimidir:

**Komissiyanın sədri:**

**Yaqub Eyyubov** - Baş nazirinin birinci müavini

**Komissiyanın üzvləri:**

**Şahin Mustafayev** - iqtisadiyyat naziri

**Samir Şərifov** - maliyyə naziri

**Tahir Budaqov** - Dövlət Statistika Komitəsinin sədri

**İnam Kərimov** - Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri

**Vüsal Qasımlı** - İqtisadi İslahatların Təhlili və Kommunikasiyası Mərkəzinin icraçı direktoru

**Məmməd Musayev** - Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyasının prezidenti

**Komissiyanın Katibliyinin rəhbəri:**

**Elxan Mikayılov** - Prezidentin İqtisadi islahatlar üzrə köməkçisi xidmətinin sektor müdiri.

Komissiyaya tapşırılıb ki, sərəncamda qeyd olunan dövlət qurumlarının hər birindən bir nümayəndə olmaqla, on gün müddətində Komissiyanın Katibliyinin formalaşdırılmasını təmin etsin, sahibkarlıq fəaliyyətinin optimal gəlirliliyini təmin edəcək və rəqabət prinsiplərinə əsaslanacaq biznes mühitini yaratmaq, ölkənin investisiya cəlbediciliyini artırmaq, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyini daha da yaxşılaşdırmaq üçün qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsinə və bu istiqamətdə digər zəruri tədbirlərin görülməsinə dair təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin, sərəncamda müəyyən olunmuş istiqamətlər nəzərə alınmaqla, tədbirlər planının layihəsini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

Müəyyən edilib ki, Komissiyanın cari fəaliyyətinin təşkili məqsədi ilə Komissiyanın Katibliyinin üzvləri Komissiya üzvlərinin təklifi ilə, onların təmsil etdiyi qurumların nümayəndələrindən ibarət olmaqla, Komissiyanın sədri tərəfindən təsdiq olunur, sərəncamda nəzərdə tutulmuş təkliflərin və layihələrin hazırlanması işinə Komissiya tərəfindən yerli və xarici ekspertlər, mütəxəssislər, beynəlxalq təşkilatlar və elmi müəssisələr cəlb oluna, müxtəlif dövlət orqanlarının və maraqlı tərəflərin nümayəndələrindən ibarət ayrı-ayrı istiqamətlər üzrə işçi qrupları yaradıla bilər.

**Nazirlər Kabinetinə və Ədliyyə Nazirliyinə sərəncamdan irəli gələn məsələlərin həlli tapşırılıb.**

# Yay aylarında qəfil ölümlərin sayı niyə artır?

## Adil Qeybulla: "Ürəyin fəaliyyətinin anidən dayanmasının səbəbi hələ ki bəlli deyil"

**"Yemək yedikdən sonra yıxılıb öldü", "Gecə yatıb, səhər ayılmadı"... kimi sözləri son vaxtlar tez-tez eşidirik. Son vaxtlar qəfildən dünyasını dəyişənlərin sayı artır. Ölümün harada, necə gələcəyini heç kim bilmir. Xüsusən də yay ayları gələn kimi qəfil ölümlərin sayı birə beş qat artır. Heç bir xəstəliyi olmayan şəxsin qəfil dünyasını dəyişməsi bir tərəfdən insanları qorxudur, digər tərəfdən isə bunun səbəbləri onların maraq dairəsində olur.**



Adil Qeybulla

Qəfil ölüm səbəblərindən biri də daha çox ürək fəaliyyətinin anidən dayanması göstərilir ki, bunun da səbəbləri tam araşdırılmayıb. Ümumiyyətlə isti havada, ürəyin nizamsız atması, boğulma hissi , nəfəs darlığı kimi əlamətlər müşahidə edilir. Həkimlər bu cür isti havalarda çölə çıxmamağı məsləhət görür. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, müxtəlif ölkələrdə qəfil ölüm halları əhalinin hər 100.000 nəfərindən təxminən 150 nəfərdə rast gəlinir. ABŞ-da il ərzində qəfil ürək ölümü ilə bağlı 250 min hal qeydə alınır. Azərbaycanda hər 100 min nəfərə düşən qəfil ölümlərin sayı orta hesabla 140-dır. Ümumilikdə MDB ölkələrində qəfil ölümlərin səviyyəsi Avropa dövlətlərindəki analoji göstəricidən iki dəfə çoxdur. Azərbaycanda proqnozlaşdırılan orta ömür həddi 73 ildir, Avropada bu rəqəm 76 il təşkil edir. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının Avropada səhiyyənin vəziyyətinə dair yeni hesabatında bildirilir. Bu tip hesabatlar üç ildən bir hazırlanır, araşdırmalar 53 üç dövlətdə yaşayan təxminən 900 milyon nəfəri əhatə edir. Son illərdə Azərbaycan daxil olmaqla, MDB ölkələrində ürək-damar xəstəlikləri 10-15 il cavanlaşıb. Bu xəstəliklərə tutulma hallarının baş verməsində bir sıra faktorlar, o cümlədən həyat tərzinin, ekologiyanın pozulması, əsəb gərginliyi mühüm rol oynayır. Xoruldayan insanlarda da qəfil ölüm riski çox yüksək olur. Çünki belə insanlar xoruldayarkən ani olaraq nəfəsin dayanması baş verir. Ona görə bu, çox ciddi problem hesab edilir, onun müalicəsi də olduqca zəruri sayılır. Ürək fəaliyyətinin dayanması bəzən xoruldayan, aritmiyaya (ürək ritminin pozulması) meylli şəxslərdə yuxu zamanı baş verir. Mütəxəssislər qəfil ölümə səbəb olan amillərdən birinin də beyinə qan sızma nəticəsində baş verdiyini deyir. Beyinə qansızmalar əsasən səhərə yaxın - saat 5-də, 6-da baş verir. O zaman da qanda bəzi hormonlar artır, qan təzyiqi 200-220-yə qədər yüksəlir.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla** bildirdi ki, qəfil ölümlərdən biri ürək fəaliyyətinin dayanmasıdır ki, onun da səbəbi hələ ki bəlli deyil: "Qəfil ölümün də səbəb olur. Qəflətən baş verən ölüm ürək, tənəffüs fəaliyyətinin dayanması və yaxud da beyində ürək damar fəaliyyətini təmin edən mərkəzlərin iflici nəticəsində baş verə bilər. Trombimariyadan, infarktdan, insultdan və ürəyin qəflətən dayanması deyilən haldan baş verə bilər. Ürəyin qəflətən dayanması deyilən hadisə var ki, onun səbəbi tam araşdırılmayıb. Amma heç nə səbəbsiz deyil. Bu vəziyyətə gətirib çıxaran faktorlar var. Xəstələrin ürəkləri birdən-birə isti şəraitdə infarkt ola bilər. Bütün qəfil ölümlər məhkəmə tibbi ekspertizasının predmetidir. Yəni meyitlər mütləq təşviq edilməli və onlara dəqiq diaqnoz qoyulmalıdır. Çünki qəfləti ölümlərdə qəsd də ola bilər. İkinci tərəfdən, bu proseslər araşdırılaraq ümumi bir statistika çıxarmaq olar ki, Azərbaycanda qəfləti ölümlərin əsasında nə dayanır. Yəqin ki, müəyyən idarələrdə, Səhiyyə Nazirliyində bununla bağlı müəyyən araşdırmalar aparılır. Amma hər halda rəsmi bir açıqlama olmadığı üçün bir söz demək çətindir".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 151 (6472) 14 iyul 2016



# Aprel şilləsinin ağrısı azaldıqca...

Xalid KAZIMLI

**Ermənistanda dövlət rəhbərlərindən tutmuş ta ən adi peşədə çalışanlara qədər ermənilərin 99 faizində bir xasiyyət var: bir yalanı söyləərkən kipriklərini belə qırpmazlar. Sanki danışdıqları bir aksiomadır, heç bir təsdiqə ehtiyacı yoxdur. Səmimiyyət sıfır, təkəbbür zirvələrdə, yalanlar sellərdə, həyasızlıq ifrat həddə...**

Budur, Ermənistan prezidenti Sarkisyanın Livan telekanalına verdiyi müsahibədə səsləndirdiyi fikirlər bu deyilənlərin bariz örnəyidir.

Eyni zamanda bu ritorika qonşumuz və düşmənimiz olan xalqın hazırda total xarakter daşıyan düşüncəsinin göstəricisidir. Bu cür düşünən, bu cür danışan insanların öz xalqlarını xoşbəxt edə bilməyəcəyi birmənalıdır.

Sarkisyan deyib: "Mənim üçün hər şeydən mühümü Dağlıq Qarabağ xalqının təhlükəsizliyinin təminatıdır. İnsanlar min illərlə yaşadıqları tarixi vətənlərində yaşamaq imkanına malik olmalıdırlar. Bu təhlükəsizliyi isə yalnız Azərbaycanın tərkibindən kənarda olduqda təmin etmək mümkündür. Əgər hansısa bədlikdən Dağlıq Qarabağ lap bircə günlüyə Azərbaycanın tərkibində olsa, orada bir erməni qalmayacaq. Hətta indi bütün dünya belə Dağlıq Qarabağ əhalisini Azərbaycanın tərkibində yaşamağa inandıra bilməz. Güc tətbiq edərək qarabağlı erməniləri məhv etmək olar, amma Azərbaycanın tərkibində yaşamağa inandırmaq olmaz. Azərbaycan rəhbərliyi bunu anlamalıdır. Əsas məsələ budur: bu insanları heç bir şəkildə Azərbaycanın tərkibində saxlamaq mümkün deyil".

Bu cür rəhbəri olan xalq xoşbəxt ola bilərmi? Adam qloballaşan dünyada, millətlərin bir-birinə sürətlə inteqrasiya olunduğu, qaynayıb-qarışdığı bir dövrdə, dövlətlərin sərhədlərinin simvolik səciyyə daşıdığı Avropada min ilin qonşusu ilə bir arada, eyni tavan altında yaşamağı istisna edir.

"Qarabağlı erməniləri məhv etmək olar, amma Azərbaycanın tərkibində yaşamağa inandırmaq olmaz" deyən prezident hələ utanmaz şəkildə "erməni genosidi"ndən danışır. Halbuki məhz özü öz xalqını bu cür çağırışlarla uçurumun, böyük fəlakətin qarşısına gətirir, ona çıxış yolu olaraq ikinci variant qoymur.

Tarix sübut edir ki, türk xalqları həmişə başqa millətlərlə bir yerdə, bir tavan altında yaşamağa hazır olublar və həmişə bu artamda yaşayıblar. Altı-yeddi il öncə iki yerə bölünmüş Kipr adasında, həm yunanlar yaşayan hissədə, həm də türklərə məxsus hissədə birgə yaşayışa dair keçirilən referendumda türklər yunanlarla birlikdə yaşamağa "hə" dedikləri halda, yunanlar "yox" cavabı verərək, açıq faşizm nümunəsi göstərərk özlərini biabır etmişdilər.

İndi eyni davranışı ermənilər sərgiləyir. Onlar 9 milyonluq Azərbaycan xalqının, eləcə də 80 milyonluq Türkiyə dövlətinin bu regiondan köçüb gedəsi olmadığını bilə-bilə qəribə bir höcətliklə bu iki qardaş dövlətlə qatı düşmənçiliyi sonsuza qədər sürdürmək əzmindədirlər.

Ermənilər düşünürlər ki, belə etməklə öz təhlükəsizliklərini təmin edə, inkişaf yoluna qədəm qoya bilərlər. Ancaq dünya tarixində qonşu dövlətlərlə müharibə şəraitində ola-ola təhlükəsiz yaşayan və inşkişaf edən dövlət olmayıb. Heç olmayacaq da.

Dağlıq Qarabağ mübahisəsini həll edibmiş kimi danışan Sarkisyan sovet hakimiyyətinin qurulduğu ilk illərdə Naxçıvanın zorla Azərbaycana birləşdirildiyini qeyd edərək deyib ki, bu gün orda bir erməni belə qalmayıb, üstəlik, bu mahalda erməni mədəniyyəti tamamilə məhv edilib.

Bu düşüncənin yiyəsi ilə danışıqlar masası arxasında oturmaq, qarşılıqlı kompromislərə getmək, münaqişə tənzimləmək mümkündürmü? Əsla mümkün deyil.

Belə adamlar yalnız güc qarşısında düz yola gəlir, nəyəsə razılaşırlar.

Bu baxımdan aprel döyüşləri zamanı başını itirən, Moskvaya döyüşlərin dayandırılması üçün yalvar-yaxar edən erməni siyasilərin iyul ayında, artıq təhlükənin bir qədər arxada qalmasından sonra bu dildə danışması təbiidir. Hiss olunur ki, aprel şapalağının izi və ağrısı keçib, artıq yekə-yekə danışmaq, necə güzəştsiz bir mövqedə olduğunu sərbəstcə sərgiləmək olar.

Belə görünür ki, Ermənistanın hərbi qüvvələrini yaxın aylarda aprel zərbəsinə bənzər (bəlkə daha ağır, ya da bir az yüngül) bir zərbəyə məruz qoymaq lazımdır ki, özlərinə gəlsinlər. Yoxsa 3 ay öncəki hadisənin üstündən vaxt keçdikcə onların dili daha uzanır və acı olur.

# Eldar Mahmudovun kamerasına Azər Tağıyev də tuş gəlib

## İddiaya görə VK sədri yaxını barəsindəki kompromatların yayılmamasını xərac ödəməklə önləyib

**Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyi rəsmilərinin nazirlərdən, komitə sədrlərindən, icra başçılarından xərac toplamaları haqda məlumatlar vardı. Bu sıraya Vəkillər Kollegiyasının sədri Azər Tağıyevin də adı qarışıb. Gunun-sesi.info yazır ki, Azər Tağıyevin yaxın çevrəsinə daxil olan şəxslərdən birinin şəxsi həyatına aid video görüntülər çəkən MTN-nin Anti-Terror Mərkəzinin əməkdaşları sonradan onu şantaj edərək, 700 min manat pulunu alıb. Məlumatda o da bildirilir ki, Azər Tağıyev pulun bir hissəsini kollegiyanın hesabından çıxarıb. A.Tağıyevin müavini Aydın Axundov deyilənlərin həqiqəti əks etdirmədiyini bildirib: "Mən sizin sorğunuzla bağlı Azər müəllimin özündən də soruşdum. O, belə bir hal olmadığını dedi. Görünür, kimlərsə, Azər müəllim barəsində bu cür yalan məlumat yayırlar".**



Azər Tağıyev

Qeyd edək ki, bir müddət əvvəl MTN-in keçmiş zabiti Ərəstun Oruclu Eldar Mahmudovun qruplaşmasının əlində tanınmış və imkanlı şəxsləri, ictimai fəalları və digərlərini şantaj etmək üçün gizli çəkilişlərin olduğu haqda açıqlama verməişdi. Keçmiş MTN zabiti Eldar Mahmudovun videotekasındakı CD-lərin konkret sayını açıqlamışdı. Demişdi ki, "mahmudovçu"ların əlində 2800 ədəd video olması xəbərini ona mötəbər mənbələrdən veriblər.

"Bunlar jurnalistlər, ictimai fəallar, tanınmış şəxslər, o cümlədən yüksək vəzifəli məmurlar və ailə üzvləri barədə gizli videoçəkilişlərdir. Lakin həmin videoların hazırda harada olduğu haqda məndə məlumat yoxdur. Mənə verilən məlumat belədir ki, bunların əlində həmin sayda seks videoları olub, başqa təfərrüatları bilmirəm. Yəqin ki, bu, ciddi araşdırma mövzusu ola bilər", - keçmiş MTN zabiti bildirib.

**"Hüquqi Dövlət" Araşdırmalar Mərkəzinin rəhbəri, tanınmış hüquqşünas Müzəffər Baxış** Vəkillər Kollegiyası sədrinin MTN-ə aparılmasından xəbərsiz olduğunu deyir. Bildirir ki, kollegiya sədrinin şantaj edilərək 700 min manat alınması haqda mətbuatdan oxuyub: "Azər Tağıyev cəmiyyətdə nüfuzu olan şəxs deyil, barəsində müəyyən şübhələr mövcuddur. Şəxsi həyatında çox ciddi problemlər olub".

M.Baxış ciddi problemlərin nədən ibarət olduğunu açıqlamayıb, deyib ki, bu haqda məlumatlı olanlar var.

**Tanınmış hüquqşünas A.Tağıyevin 700 min manat xərac ödəmək imkanının varlığına işarə edən məlumatlara da münasibət bildirdi:** "Rəyasət Heyətində öz əmək haqlarını özləri müəyyən edirlər. Bildiyim qədər Azər Tağıyev 2 min manat əmək haqqı alır. Bu pullar hər ay vəkillərdən toplanan 42 manatlıq üzvlük haqqı hesabına formalaşır. Vəkillər ayda 200-300 manat pul qazanır, Azər Tağıyev də oturub orada 2 min manat əmək haqqı alır. Çox ədalətsiz bir sistemdir. Üstəlik Azər Tağıyev Mərkəzi Seçki Komissiyasının üzvüdür, oradan da 1000 manata yaxın əmək haqqı alır. Gördükləri bir iş də yoxdur".

❑ E.HÜSEYNOV

# Eldar Mahmudov şeyxi və generalı niyə sıradan çıxarmaq istəyib?

## İlahiyyatçının məhkəməsi sabiq MTN şefinin hakimiyyətdaxili oyunlar oynadığına dair şok detalları üzə çıxardı

**Bakı Ağır Cinayətlər Məhkəməsində ilahiyyatçı Elşən Mustafaoğlunun işi üzrə proses keçirilir. İlk prosesdəcə E.Mustafaoğlu kifayət qədər ilginc açıqlama verib. 2014-cü ilin dekabrında Qafqaz Müsəlmanları İdarəsinin sektor müdiri olaraq MTN tərəfindən həbsə alınan ilahiyyatçı deyib ki, onu 2 gün ərzində tamamilə qapalı şəraitdə saxlayıb, zülm eləyiblər. MTN-də məcbur ediblər ki, Milli Qəhrəman Rövşən Əkbərov və Şeyx Hacı Allahşükür Paşazadəyə qarşı ləyaqətsiz şeylər yazsın.**



Elşən Mustafaoğlu

E.Mustafaoğlunun məhkəməsində açıqladığı bu məlumatlar əslində hakimiyyətdaxili mübarizənin təzahürləridir və bu mübarizədə hansı iyrənc metodlardan istifadə edildiyinin görünən tərəfidir.

Sabiq MTN rəhbərliyinin Allahşükür Paşazadəyə qarşı olması haqda mətbuatda ara-sıra məlumatlar yayılıb. Şeyxin qocaldığı, xəstə olduğu, müğənnilərlə əlaqələri kimi məlumatlar dövriyyəyə buraxılmaqla yeni şeyx axtarışlarına zəmin yaradılıb. Bu məsələ uzun müddət müzakirə mövzularından olub. MTN-in Rövşən Əkbərovla əlaqəli neqativ planda hərəkətdə olması, hakimiyyətə sadiq generala qarşı addımları da zaman-zaman diqqət cəlb edib. R.Əkbərovu ləkələyən məlumatlar dövriyyəyə buraxılmaqla onun gözdən salınmasına cəhdlər olub.

Yaxın keçmişdə baş verənlərin təhlili göstərir ki, Eldar Mahmudov ona biət etməyən, nəzarətindən kənar qala bilən və hakimiyyətdə təmsil olunan kadrların çıxdaş olunması istiqamətində illərlə iş aparıb. Mühüm dövlət postlarına özünə yaxın kadrların təyin olunmasına nail olub. Sabiq nazir özünə komandası formalaşdırmaqda ona əngəl ola biləcək hər kəsin sıradan çıxarılması istiqamətində sistemli iş aparıb.

Belə görünür ki, R.Əkbərov da Haçı Allahşükür Paşazadə kimi Eldar Mahmudovun kadr bankında yer almayıblar, odur ki, onları da müdhiş bir nazirliyin şər maşının qurbanına çevrilmək prespektivi gözləyib. Rövşən Əkbərovun Eldar Mahmudvoun yanında olmaması sonuncunun qıcığına səbəb olub. E.Mustafaoğlunun sözlərindən aydın olur ki, Eldar Mahmudov ondan yalan ifadələr almaqla R.Əkbərovu qaralayıb həbsə almaq planı cızıbmış.

R.Əkbərov vaxtilə Qarabağ bölgəsində döyüşlərdə iştirak edib. Amma onun Milli Qəhrəman adı almasının səbəbi tək bununla bağlı deyil. Surət Hüseynov 1994-cü ilin oktyabrında Gəncədə yenidən qiyam qaldırıb Heydər Əliyevə qarşı çıxmaq istədiyi günlərdə qarşısında Rövşən Əkbərovun rəhbərlik etdiyi 777-ci alayı görmüşdü. Gəncədə yerləşən alay qiyamın yatırılmasında böyük rol oynamışdı. Heydər Əliyev Rövşən Əkbərovu dərhal, 1994-cü ilin 5 oktyabrında Milli Qəhrəman adına layiq görmüşdü. R.Əkbərov sonradan, 1995-ci il mart hadisələri zamanı təslim olmuş "OMON"-lara qarşı sərt davranışları ilə diqqət çəkmişdi. Hakimiyyətə sadiq olan olan R.Əkbərovun sıradan çıxarılması E.Mahmudovun uzaqgedən planlarına mane ola bilməsi ilə əlaqəli ola bilərdi. Günlərin birində ölkədə qiyam qaldıran Eldar Mahmudova bağlı qruplaşma qarşısında R.Əkbərovun rəhbərlik etdiyi hərbi birləşməni görə bilərdi. Təsadüfi deyil ki, Eldar Mahmudov "vurulandan" az sonra Rövşən Əkbərov Bakı Qarnizonuna rəhbər təyin olundu.

**Bu baxımdan E.Mustafaoğlunun məhkəməsində söylədiyi fikirləri Eldar Mahmudovun hakimiyyətdaxili mübarizənin əsas fiqrunа çevrilməsi, onun geniş planlarına çatmaq üçün rəqiblərinə qarşı hər vasitəyə əl atmasının bariz nümunəsi hesab etmək olar.**

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 151 (6472) 14 iyul 2016

# Putin Azərbaycanı seçdi... nəyin qarşılığında?

**Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Bakıya son səfəri zamanı iki ölkənin münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyinə dair bir sıra nikbin açıqlamalar səsləndi.**

## Ekspertlərin fikirləri haçalanır; Qarabağ məsələsində Rusiyanın diplomatik gedişləri də birmənalı qarşılanmır

Türkiyə-Rusiya gərginliyinin mövcud olduğu şəraitdə də şimal qonşusu ilə münasibətlərdə olduqca ehtiyatlı və korrekt davranan rəsmi Bakının sonda barışdırıcı missiya ilə çıxış etməsi münasibətlərdə çatın yaranmasına imkan vermədi. Əksinə, bir çoxları hesab edir ki, Azərbaycan bu davranışı və balanslı xarici siyasəti ilə həm də tərəfdaşlıq etdiyi ölkələrin etibarını qazandı. Xatırladaq ki, aprel ayında Almaniyaya səfəri zamanı Ermənistan prezidenti Serj Sərksiyan Rusiyanı Azərbaycana dəstək verməkdə ittiham etmişdi. Sonrakı aylarda işğalçı ölkədə anti-Rusiya dalğasının baş qaldırmasına Moskva da biganə ola bilməzdi. Bu mənada Kreml on illərlə himayəsində saxladığı Ermənistanda baş qaldıran anti-Rusiya hərəkətlərinə rəğmən Azərbaycanın qonşuluq və dostluq prinsiplərinə sadiqlik nümayiş etdirməsini müsbət dəyərləndirir. Lavrovun son səfərində də iki ölkə arasında əməkdaşlığın yeni mərhələyə adladığı barədə mesajları bundan xəbər verir.

Rusiya ermənilərin gözləntilərinə baxmayaraq, Azərbaycanla hətta hərbi əməkdaşlığı da dayandırmadı. Lakin hesab olunur ki, Putinin Azərbaycan seçimi əbəs deyil, bunun arxasında Moskvanın konkret istəkləri dayanır. Düzdür, hələlik bu barədə hər hansı konkret təklif səslənmir. Lakin Rusiya XİN başçısının ötən səfərində Gömrük İttifaqı ilə bağlı mesajının öz qüvvəsində qaldığı da şübhə doğurmur. Ermənistanda isə Moskvanın Bakıya Qarabağın azadlığını vəd etdiyinə dair iddialar kəsilmək bilmir.

Ümid Partiyasının sədri İqbal Ağazadə bildirdi ki, Putinin Azərbaycanı seçdiyini düşünmür: “Putin Azərbaycanı yox, Rusiyanı seçib və bütün münasibətlərdə də Rusiyanın marağını gözləyir. Rusiyanın marağı olan yerdə isə Azərbaycan maraqları yoxdur. Cənubi Qafqaz bölgəsində Azərbaycanın maraqları Rusiyanın maraqları ilə daban-dabana ziddir. Çünki Rusiyanın marağı hərbi baza saxladığı Ermənistanı ayaqda saxlamaq və işğal olunmuş torpaqlara dövlətlərə təzyiq etmək, bu konfliktləri də inkişaf etdirməkdir. Bu siyasət də Azərbaycanın ziyanınadır. Ona görə də Rusiyanın nə deməyindən, hansı mövqe sərgiləməyindən asılı olmayaraq, Rusiyanın Cənubi Qafqazda maraqları varsa, orada Azərbaycanın maraqları tapdalanır”.

**Politoloq Elxan Şahinoğlu** “Yeni Müsavat”a bildirdi ki, Azərbaycanla Rusiya arasında siyasi, iqtisadi, hərbi və nəqliyyat sahəsində əməkdaşlıqda problem yoxdur: “Əksinə, Rusiya prezidenti Vladimir Putinin avqust ayında Bakıya edəcəyi səfər Şimal-Cənub nəqliyyat dəhlizinin formalaşmasını sürətləndirəcək. Azərbaycan əvvəlkitək Rusiyadan silah almaqda davam edəcək ki, bu da hər iki ölkənin xeyrinədir. Xəzərin status məsələsində də iki ölkə arasında fikirayrılığı yoxdur. Moskvadan bircə Azərbaycanın kənd təsərrüfatı məhsullarının Rusiya bazarına axınına süni maneələri ortadan qaldırılması tələb olunur”.



**Ekspert Qarabağ məsələsində Rusiyanın Azərbaycanın yanında olduğu barədə iddialara da münasibət bildirdi:** “Rusiya xarici işlər naziri Sergey Lavrovun Bakıda Azərbaycan prezidenti və xarici işlər naziri ilə görüşlərdə və mətbuata verilən qarşılıqlı açıqlamalarda xeyli optimist fikir səsləndi. Bunlardan bir neçəsini sadalamaq mümkündür. "Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində müvəffəqiyyətə əvvəlkindən daha çox yaxınıq", "son 3-4 ayda danışıqlar prosesində nəzərəçarpan müsbət dinamika var", "prezidentlərin Sankt-Peterburq görüşündən sonra əsas məqsəd odur ki, kiçik ümid yaradan amillərə ehtiyatla yanaşılmalıdır, "hazırda danışıqlar konkret məsələlər ətrafında, substantiv şəkildə gedir və s. Ardıcıl, intensiv danışıqlar nəticəsində həllinin tapmamış məsələlərdə müəyyən irəliləyişə nail olmaq mümkündür" və s. İlk baxışdan Bakıda səsləndirilən bu açıqlamalar sanki optimizm üçün əsas verir. Hətta Sergey Lavrovla görüşdə Elmar Məmmədyarov belə bir fikir də işlətdi: “Danışıqlar masasını mərhələli şəkildə, addım-addım mövcud problemlərdən təmizləməliyik”. Əslində bu ifadə ilə rəsmi Bakı danışıqların “mərhələli həll” planından kənara çıxmadığına işarə edir. Ancaq Lavrov Bakıda bir dəfə də “mərhələ” ifadəsi işlətmədi. Bu ondan xəbər verir ki, Kreml münaqişənin həllinin birinci mərhələsində Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması fikrini hələ qəbul etməyib. Əks halda Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova “prezidentlərin Sankt-Peterburqdakı danışıqları "mərhələli həll" planı əsasında gedirdi" deyən Azərbaycan prezidentinin xarici siyasət məsələləri üzrə müşaviri Norvuz Məmmədovu təkzib etməzdi. O ki qaldı Bakıda səsləndirilən “kiçik ümid yaradan amillərə” ifadəsinə, söhbətin Dağlıq Qarabağa veriləcək aralıq statusdan getdiyini təxmin etmək olar. Belə bir status Azərbaycanın böyük bir güzəşti ola bilər. Bunun məğzi odur ki, Dağlıq Qarabağın müvəqqəti status olur, bu arada isə Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılır, azərbaycanlılar geri qayıdırlar və ermənilər əvvəlki həyat tərzlərinə davam edirlər. Ancaq problem ondadır ki, rəsmi İrəvan müvəqqəti statusa etiraz etməsə də bunun nə qədər çəkəcəyini bilmək və yekun statusu müəyyənləşdirəcək referendumun keçiriləcəyi tarixi sənədə salmaq istəyir. Bu isə bütün razılaşmanı pozur". E.Şahinoğlunun fikrincə, Kremlin İrəvanı bu tələbdən vaz keçməyə məcbur etmək istədiyini göstərən heç bir işartı yoxdur.

**XİN-in mətbuat katibi Hikmət Hacıyev** isə Rusiya və Azərbaycanın qonşu dövlətlər olduğunu, ölkələrimiz arasında bütün əlaqələrin mövcud olduğunu vurğuladı: “Bu əlaqələrin inkişaf etdirilməsi üçün də qarşılıqlı səylər göstərilir. Azərbaycan tərəf də Rusiyanın bu regionda davamlı sülhün, sabitliyin təmin olunması üçün, Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində atdığı addımları təqdir edir. İki dövlət arasında normal qonşuluq və dostluq münasibətləri var, bu əlaqələr də strateji tərəfdaşlıq müstəvisində inkişaf edir”.

❑ **E.PAŞASOY**

# Prezidentin Qarabağ mesajlarında müharibə anonsu

**Qabil Hüseynli:** “Ölkə başçısının son mövqeyi açıq şəkildə ona işarədir ki…”

**Prezident İlham Əliyevin 2016-ci ilin birinci yarısının yekunlarına həsr olunmuş müşavirədə bir daha bəyan etdi ki, münaqişə yalnız mərhələli yolla və ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır və bundan ötrü də həmsədr ölkələr və ATƏT Ermənistana təzyiq göstərməlidir. Yəni prezident açıq mesaj verib ki, Azərbaycana təzyiq göstərməyin perspektivi ola bilməz.**



Qabil Hüseynli

Prezident müşavirədəki çıxışında ermənilərin təxribatçı əməllərinin davam edəcəyi halda, vəziyyətin dəyişə biləcəyi barədə düşməni və münaqişənin həllində maraqlı olan dövlətləri uyarıb. Bununla bir növ Azərbaycan rəhbəri müharibə anonsuna da verib. Çünki ermənilər hazırda təxribatları davam edir, torpaqlarımız hələ də işğal altındadır.

**Politoloq Qabil Hüseynli** prezidentin mövqeyinin gözlənilən olduğunu söylədi: “Bu günlərdə NATO və Qərb dünyasından Azərbaycan üçün alqışlanmalı mövqe gəldi. Söhbət NATO-nun Varşava sammitində qəbul edilən qərarlardan gedir. İndiyə qədər olan ikili münasibətin artıq tamam dəyişdiyini görürük. Qərb bu məsələdə kifayət qədər qərarlı təsir bağışlayır. ATƏT münaqişənin həllində seyrçi mövqe tutmaq niyyətində deyil. Ərazi bütövlüyü məsələsi Gürcüstan, Ukrayna, Moldova kimi Azərbaycanın da vacib məsələsinə çevrilib. Rusiyaya necə təsir bağışlayacağından asılı olmayaraq, Azərbaycan ərazi bütövlüyü məsələsində qətiyyətli mövqedən geri çəkilməməlidir. Rusiya öz quberniyasını qorumaq üçün müxtəlif addımlar atacaqsa, biz də bunun qarşısında tab gətirə bilməyəcəyiksə, tarix bunu bizlərə bağışlamaz. Bundan sonra istər Rusiya, istərsə də, İran prezidentləri ölkəmizə səfər etsinlər, heç nə dəyişən deyil. Çünki ortada beynəlxalq hüququn diktə etdiyi fundamental prinsiplər var. Bundan sonra münaqişənin həll variantları bu prinsiplər ətrafında formalaşdırılacaq. Azərbaycan tərəfi bundan çıxış edərək, daha qətiyyətli mövqedə danışacaq. Cırtdan Ermənistanın qarşımızda təcavüzkar dövlət kimi durmasına imkan verilməyəcək. Artıq mübarizəmizin ideoloji hüquqi əsasları bütün dünya tərəfindən bəyan edilib. Bunların ətrafında müharibə apara da bilərik, sülh danışıqlarına da gedə bilərik. Unutmamalıyıq ki, ərazi bütövlüyümüz artıq Ukrayna ilə yanaşı tutulur. Burada artıq Rusiya deyil, ABŞ, NATO və Avropa Birliyinin mövqeyi daha keçərlidir. Rusiya yenə cığallıq edib ermənilərin tərəfini tutacaqsa, yeni-yeni sanksiyalar qaçılmaz olacaq. Kimin nə deməyindən asılı olmayaraq, hamı bilməlidir ki, NATO və Amerika dünyanın düzənini müəyyən edir, yəni bu qüdrətə malikdirlər. Onlar Qarabağ münaqişəsində hansı mövqeyi tutublarsa, demək, o da olacaq”.

**Politoloq prezidentin son mesajlarında münaqişənin həlli ilə bağlı Azərbaycana edilən təzyiqlərin üstüörtülü şəkildə vurğulandığını da qeyd etdi:** “Mənəviyyatını itirmiş dövlətlər var. Onlar bizə müxtəlif təhdid, təzyiqlər ediblər. Bundan sonra belə təzyiqlərin açıq şəkildə edilməsi elə də asan olmayacaq. Çünki dünya artıq faktlarla ciddi sürətdə tanışdır. Bizə təhdidlər ən çox Rusiyadan gəlirdi. Minsk Qrupu da müəyyən razılığa gedilməsindən danışırdı. Bundan sonra onlar bu fikri təkrarlamayacaqlar. Bizim güzəştə gedəsi heç nəyimiz qalmayıb. 2-5 aprel tarixlərində bu şantajın qabarıq formaları oldu. Amma biz özümüzü kifayət qədər təmkinli apardıq, provokasiyaya getmədik. Bundan sonra Rusiya yenə də əzələ nümayişini davam etdirə bilər. Amma bu əzələ nümayişi bir il əvvəlki kimi olmayacaq. Əgər indi dünyanın bir nömrəli güc dövləti Qarabağ münaqişəsi ilə bağlı proseslərin başında durursa, bu Azərbaycana qarşı indiyə qədər olan təzyiq, şantajların qarşısının alınması deməkdir. Prezidentin ermənilərin təxribatçı əməllərinin davam edəcəyi təqdirdə vəziyyətin dəyişə biləcəyini deməsi təqdirəlayiqdir. Çünki son zamanlar Rusiya münaqişənin həllini sülh danışıqlarına kökləməyi bacarmışdı - xüsusilə də aprel döyüşlərindən sonra. Amma NATO-nun son sammiti yeni prinsipləri irəli sürdü. Bizə içində şantaj olan istənilən təklifi qəbul etdirmək artıq mümkünsüzdür. Hərbi potensialımız günbəgün artmaqdadır. Azərbaycan görsə ki, danışıqlarla baş qatılır, o zaman iradəsini növbəti dəfə ortaya qoyacaq. Prezidentin son mövqeyi diplomatik tərzdə olsa da, açıq şəkildə işarədir ki, Azərbaycan ərazi bütövlüyünü təmin etmək üçün əlində olan bütün mümkün imkanlardan istifadə edəcək”.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 151 (6472) 14 iyul 2016

**Prezident İlham Əliyev iyulun 10-da Nazirlər Kabinetinin iclasında istifadəsiz və qeyri-qanuni zəbt olunmuş torpaqlarla bağlı dedikləri geniş müzakirə olunmaqdadır. Dövlət başçısının dediklərindən: "Xüsusilə nəzərə alsaq ki, neftdən gələn gəlirlərin həcmi azalıb, biz bu gəlirləri müəyyən mənada kənd təsərrüfatı məhsullarının ixracı ilə kompensasiya etməliyik. Ona görə torpaqlardan səmərəli şəkildə istifadə əsas vəzifədir. Bəzi hallarda torpaqlar zəbt edilib. Minlərlə torpaq sahələri hasarlanıb. Orada heç bir fəaliyyət göstərilmir. Mən göstəriş vermişəm, arayış da hazırlayıb veriblər və orada dövlət məmurlarının adları da var. Zəbt edilmiş o torpaqların bir hissəsi onlara məxsusdur. Bu, yolverilməzdir".**

# Deputat "torpaq işğalçılarının" siyahısının açıqlanmasını istəyir

## Vahid Əhmədov: "Hansı məmurlar 100 hektarlarla torpaqları ucuz qiymətə mənimsəyibsə..."

Prezident vurğulayıb ki, torpaqlardan səmərəli şəkildə istifadə edilməlidir: "Əgər səmərəli şəkildə istifadə edilmirsə, həmin torpaqlar sahibkarlardan və yaxud da ki, digər şəxslərdən alınmalıdır və o insanlara verilməlidir ki, onlar əkib-becərsinlər".

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan **Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov** prezidentin çıxışından bir sıra məqamlara diqqət çəkib: "6 aylıq yekunla əlaqədar keçirilən iclasda cənab prezident həm hökumət nümayəndələrinə, həm də əhaliyə bir sıra mesajlar verdi. Dünyadakı siyasi-iqtisadi proseslərin bütün dünyaya, o cümlədən Azərbaycana da müəyyən təsirini izah etdi. Eyni zamanda neft erasının başa çatması, həm hasilatın müəyyən qədər azalması, həm də qiymətlərin aşağı düşməsi əlbəttə ki, Azərbaycanın gəlirlərinə də öz təsirini göstərir. Bu baxımdan cənab prezident əsasən, Azərbaycanda kənd təsərrüfatının inkişafına diqqət çəkdi. Çünki son zamanlar kənd təsərrüfatının inkişafında müəyyən irəliləmələr var. Həmçinin ixracda da 3-4 dəfə artım var. Bu baxımdan qeyd etdiyim kimi bu sahəyə daha çox diqqət edilir. Prezident eyni zamanda torpaq sahələri ilə əlaqədar probleme də toxundu. Deyim ki, bu çox ciddi bir problemdir. Bu problemlər yəqin ki, həll olunacaq. Çünki 300-400 hektarlarla torpaq sahələri müəyyən məmurlar, insanlar tərəfindən alınıb və istifadəsiz şəkildə saxlanılır. Bu sahələrin içərisində həm kənd təsərrüfatı torpaqları, həm də böyük yaylaqlar, örüş yerləri var ki, onlar da qeyd olunduğu kimi istifadəsizdir. Yəni bu məsələlər aydınlaşdırılmalıdır. Torpaq ondan ötrüdür ki, əkilsin, becərilsin. Hesab edirəm ki, bu ciddi məsələni sona çatdırmaq lazımdır".

**Deputat mətbuata da bu məsələni gündəmdə saxladığı üçün minnətdar olduğunu bildirib:** "Yaxşı olardı ki, hansı məmurlar 100 hektarlarla torpaqları ucuz qiymətə mənimsəyiblərsə, onların siyahısını biz də bilək. Əhali də bilsin ki, həmin torpaqlar kimlərə məxsusdur və nəyə görə onlardan istifadə olunmur. Eyni zamanda ikincisi və əhalini narahat edən daha bir ciddi məsələ dərman istehsalı ilə bağlıdır. Çünki dərmanların qiymətlərində də problemlər var və bu qiymətlər çox yüksəkdir. Həmin dərmanların əksəriyyəti xaricdən, dollarla gətirilir. Dollar bahalaşdıqca, dərmanın da qiyməti gün-gündən bahalaşır. Bu baxımdan Azərbaycanda dərman istehsalına çox böyük ehtiyac var. Bunu da tezləşdirmək lazımdır. Ümumiyyətlə, Azərbaycanda qeyri-neft sektorunun inkişafı önəmli məsələdir. Prezident həmçinin çıxışı zamanı idxal-ixrac, tədiyyə balansına da toxundu. Əlbəttə, idxalda elə məhsullar var ki, onu Azərbaycanda istehsal etmək mümkündür. Bu məhsulların siyahısını müəyyən etmək lazımdır. Əslində bunu çoxdan etmək lazım idi. Çünki hələ 2004-cü ildə cənab prezident Gülüstan sarayında regionların iqtisadi inkişaf proqramını müzakirə edən zaman hökumətin qarşısına iki məsələ qoymuşdu: ərzaq təhlükəsizliyinin təmin edilməsi, qeyri-neft sektorunun inkişafı. Çox təəssüf ki, keçən müddət ərzində bu sahədə çox ciddi uğurlara nail ola bilmədik. Çünki neftdən gələn gəlirlər görünür hökuməti elə bir vəziyyətə gətirdi ki, onlar digər sahələrlə məşğul olmadılar və qeyri-neft sektoru Azərbaycanda ciddi şəkildə inkişaf etmədi. Eyni zamanda, xidmət sahəsinə də diqqəti artırmaq lazımdır. Çünki bu cür sahələr qısa zamanda vəsait, gəlir gətirən sahələrdir. Həmçinin turizmin də keyfiyyətini yüksəltmək lazımdır".



**V.Əhmədov bildirib ki, dövlətin bu sahələrə vəsait yatırması üçün imkanlar var:** "Bu sahələrə sərmayə yatırmağa dövlətin hər zaman imkanı var. Orada elə bir ciddi problem də yoxdur. Çünki həm Sahibkarlığa Kömək Milli Fondu, həm də Kənd Təsərrüfatı Nazirliyi tərəfindən bu sahələrə müəyyən yardımlar edilir. Cənab prezident də mütəmadi olaraq, Kənd Təsərrüfatı Nazirliyinə müxtəlif sahələrin inkişafı üçün öz ehtiyat fondundan vəsait ayırır. Yəni vəsait problemi yoxdur. Düzdür, ümumi götürəndə Azərbaycanda vəsait problemi, manat qıtlığı var. Ancaq bunlar müəyyən zamana qədərdir".

❑ **Əli RAİS**

# Prezidentin xəbərdarlığından sonra torpaq məsələsində nəzarət güclənib

## Qulu Xəlilov: "Torpaq müfəttişləri 19.2 min pozuntu halı aşkar ediblər, bundan 4479 hal ciddi pozuntu hesab olunur"

**Xəbər verdiyimiz kimi, prezident İlham Əliyev Nazirlər Kabinetinin ilin birinci yarısının yekunlarına həsr olunmuş müşavirəsindəki çıxışında oliqarxlara məxsus olan və istifadəsiz saxlanılan torpaqlar zəbt olunacağı barədə xəbərdarlıq etmişdi. Ölkə başçısının xəbərdarlığından və tapşırıqlarından sonra müvafiq nazirliklərdə, Kənd təsərrüfatı Nazirliyi və Əmlak Məsələləri üzrə Dövlət Komitəsində bu istiqamətdə işlər sürətləndirilib.**



**Komitənin mətbuat xidmətinin rəhbəri Qulu Xəlilov** "Yeni Müsavat"a danışarkən bildirib ki, prezidentin tapşırıqlarına əsasən ƏMDK respublikada mülkiyyət növündən asılı olmayaraq torpaqların elektron uçotu sisteminin qurulması, habelə torpaqların, xüsusilə kənd təsərrüfatı təyinatlı torpaqların mühafizəsi, səmərəli və təyinatı üzrə istifadənin təmin olunması sahəsində tədbirlərini davam etdirir: "İndiyədək bu sahədə aparılan işlər həm torpaqların elektron uçotu və kadastr xəritələrinin tərtibini, həm də pozuntuların aşkara çıxarılmasını əhatə edib. Görülən işlər nəticəsində torpaqlardan istifadə ilə bağlı ciddi çatışmazlıqların və qanun pozuntularının olduğu aşkarlanıb. Bu hallarla bağlı müvafiq tədbirlər görülüb və aidiyyəti qurumlar məlumatlandırılıb. Hazırda ƏMDK tərəfindən fəal şəkildə torpaqların elektron uçotu və onlara nəzarət tədbirlərini davam etdirirlər. Belə ki, cənab İlham Əliyevin 7 mart 2016-cı ildə imzaladığı "Azərbaycan Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmana uyğun olaraq komitə ölkədəki torpaqların elektron uçotu sistemini yaratmağa başlayıb".

**Q.Xəlilovun sözlərinə görə, hazırda 10 rayonda (Abşeron, Salyan, Cəlilabad, Göygöl, Siyəzən, Ağcabədi, Ağsu, Oğuz, Balakən və Zaqatala rayonlarında) torpaqların elektron uçotu işləri aparılır, elektron torpaq xəritələri tərtib edilir:** "Artıq elektron uçotun müsbət nəticələri də əldə edilib. Azərbaycanın kadastr tarixində ilk dəfə olaraq Bakı, Sumqayıt və Gəncə şəhərlərinin elektron kadastr məlumat bazası yaradılıb, bu şəhərlərin rəqəmsal kadastr xəritələri tərtib edilib. Hazırlanmış elektron kadastr məlumat bazası hər bir torpaq parseli barədə mükəmməl məlumatların *(sahəsi, torpağın mülkiyyət növü, təyinatı, mülkiyyətçisi və s.)*, həm də bu torpaq sahəsi üzərindəki tikili haqqında texniki kadastr göstəricilərinin *(mərtəbəliliyi, təyinatı, tikilinin sahəsi, texniki vəziyyəti və s.)* əldə edilməsinə şərait yaradır. Bununla yanaşı, ölkənin 4.1 mln. ha ərazisinin ortofotomateriallarının rəqəmsallaşdırılması işi yekunlaşıb və relyef xəritələrinin hazırlanması işinə başlanılıb. Dəqiq stereomodellər üzərindən rəqəmsallaşdırma nəticəsində əldə edilmiş relyef xəritələri, kənd və meşə təsərrüfatında ərazi planlaşdırmasında, fermer təsərrüfatlarının ixtisaslaşma istiqamətlərinin müəyyənləşdirilməsində, torpaqların erroziyadan qorunmasına dair kompleks tədbirlər sisteminin hazırlanmasında istifadə olunacaq".

**Mətbuat katibinin fikrincə, torpaqların keyfiyyətinə dair dəqiq kadastr uçotu məlumatlarının əldə edilməsi torpaqların yaxşılaşdırılması, onun münbitliyinin qorunması və artırılması ilə bağlı torpaq mülkiyyətçilərinə və fermerlərə elmi-praktiki tövsiyələrin verilməsinə şərait yaradacaq:** "Torpaqların Elektron Kadastr Uçotu İnformasiya Sisteminin yaradılması işlərinin 2020-ci ilədək yekunlaşdırılması nəzərdə tutulur. Bu tədbirlər torpaqlardan istifadənin səmərəsini və onlara nəzarəti gücləndirəcək. ƏMDK torpaqların əsassız zəbt olunması, torpaqlarda təyinatına zidd aparılan özbaşına tikinti hallarının, dənizkənarı mühafizə zolaqları ilə bağlı pozuntuların qarşısının alınması üzrə torpaq reydləri və monitorinqləri intensivləşdirib. Respublika üzrə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlarda qanunvericiliyin tələblərinin pozulması hallarının bazası yaradılıb, Xəzər dənizinin sahilboyu 20-50 metrlik mühafizə zolağı boyunca mövcud torpaqayırmaların və obyektlərin siyahısı tərtib edilib, meşə fondu torpaqlarında inşa edilmiş sosial, iaşə və istirahət obyektləri müəyyənləşdirilib, respublika üzrə torpaq icarəçilərinin siyahısı hazırlanaraq elektron bazada yerləşdirilib".

**Aparılan nəzarət tədbirləri nəticəsində torpaqların istifadəsi ilə bağlı çoxsaylı pozuntu hallarının aşkar edildiyini də deyən Q.Xəlilov vurğuladı ki, respublika üzrə mövcud olan 1.8 mln. hektar əkin sahəsinin 198 min hektarı (11,3%) istifadə olunmur:** "Bundan başqa, 2.6 min hektar kənd təsərrüfatı təyinatlı torpaq sahəsində 91 qanunsuz daş, qum-çınqıl karxanaları, 6 min hektar torpaq sahəsində isə 222 qanunsuz balıq gölləri yaradılıb. Digər tərəfdən, icra hakimiyyətləri və bələdiyyələr 1204 hektar torpaq sahəsinin qanunsuz istifadəyə, icarəyə, mülkiyyətə verilməsinə, təyinatının qanunsuz dəyişdirilməsinə dair 245 qərar qəbul ediblər. Araşdırmalar göstərib ki, hazırda icarəyə verilən dövlət torpaqlarının bir hissəsindən ümumiyyətlə istifadə edilmir. Belə ki, respublikanın şəhər və rayonları üzrə 20 minə yaxın torpaq icarəçisinin istifadəsində olan 1.2 mln. hektar torpaq sahəsinin 44.3 min hektarı faktiki istifadəsiz qalıb. Yerli icra hakimiyyətləri və bələdiyyələr də kənd təsərrüfatı torpaqlarını bəzi hallarda qanunsuz olaraq digər məqsədlərlə ayırırlar. Belə ki, ötən dövrlər ərzində yerli icra hakimiyyətləri tərəfindən 72 min hektar torpaq sahəsi, bələdiyyələr tərəfindən 15 minə yaxın hektar qeyri kənd təsərrüfatı məqsədləri üçün ayrılıb. 122 min hektar torpaq sahəsi isə keçmiş icarəçilər tərəfindən icarə müqaviləsi olmadan istifadə edilir.

Bu sahədə nəzarəti həyata keçirən torpaq müfəttişləri 19.2 min pozuntu halı aşkar ediblər, bundan 4479 hal ciddi pozuntu *(13686 fərdi yaşayış evi istisna olmaqla)* hesab olunur. Bu hallarla bağlı fiziki və hüquqi şəxslərə 1169 xəbərdarlıq edilib, 349 inzibati protokol tərtib olunub.

ƏMDK tərəfindən həyata keçirilən bu tədbirlər nəticəsində istifadə olunmayan və əkinə yararlı torpaqların kənd təsərrüfatı istehsalatına, müxtəlif aqromeliorativ tədbirlərin tətbiqi ilə yeni torpaqların kənd təsərrüfatı dövriyyəsinə cəlbi, istifadədə olan torpaqların münbitliyinin qorunması və artırılması məqsədləri üçün kompleks tədbirlərin həyata keçirilməsinə zəmin yaranacaq".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 151 (6471) 14 iyul 2016

**Lisenziyası ləğv edilən banklarla bağlı problemlər səngimir. Problemlərdən biri də odur ki, bağlanan banklarda əmanətlərə verilən faizlər də dərhal dayandırılır və yalnız qoyulan əmanət əmanətçiyə geri qaytarılır. Ancaq bank müştəriyə verdiyi kreditə görə faiz hesablanmasını dayandırmır və sonadək krediti faizlə tələb edir. Bəs qanunvericilik nə deyir? Verilən kreditlərə görə lisenziyası ləğv edildikdən sonra banklara faiz hesablamağa hüquq verirmi? Ekspertlər musavat.com-a məsələni fərqli yöndən şərh ediblər.**

# Bağlanan bankların faiz problemi-vətəndaşlar narazıdır...

## Kreditlərdən yenə faiz tutulur, əmanətlərin faizləri isə dondurulur, ekspertlərin məsələdə fikirləri fərqlidir...



**Ekspert Əkrəm Həsənov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, bankın ləğv olunması kredit üzrə faizlərin hesablanmasını dayandırmır: "Qanunda bu, yoxdur. Borclunun müqavilə müddəti ərzində faizlərin hesablanması necədirsə, o şəkildə faizlər üstünə gələcək. Amma əmanətçinin faizi də eyni məntiqlə üstünə gəlməlidir. Problem burada borclulara münasibətdə deyil. Problem məhz əmanətçilərə münasibətdədir ki, əmanətçilərə deyirlər, bank ləğv olundusa, əmanət dondurulur və onun üstünə daha faiz gəlmir. Qanun özü ədalətsizdir. Bank ləğv olunanda deyir ki, əmanətin üzərinə faiz gəlmir. Amma kredit üzrə bu, nəzərdə tutulmayıb. Qanun əmanətçiyə münasibətdə ədalətsizdir. Amma borcluya heç bir aidiyyəti yoxdur. Məqsəd də burada aydındır. Məqsəd budur ki, ləğv olunan banka ləğvetmə komissiyası təyin olunur. Ləğvetmə komissiyası bir neçə il faktiki olaraq bu bankın pulu ilə dolanır, verdiyi kreditlər üzrə faizlərlə, faizlərin hesabına dolanır. Əgər kredit üzrə faiz gələcəksə, onda əmanətlər üzrə də gəlsin, yaxud hər ikisində dayandırılsın. Bunu bir şəkildə həll etmək olar".

Qeyd edək ki, bəzi ekspertlər bildirirlər ki, ləğv olunmuş bank kredit ödəyən müştərilərdən faiz tutmalı deyil. Yəni bank ləğv olunub və Azərbaycan Əmanətlərin Sığortalanması Fondu (ADİF) əmanətçilərin hər birinə banka yerləşdirdikləri əmanətlərin qarşılığında maksimum 30 min manat həcmində *(faiz verilmədən)* ödəyib. İndi bankın heç kimə borcu yoxdur. Qanuna əsasən bankın digər borcları da silinib. Amma bank bağlanmamışdan öncə kredit götürmüş müştərinin kreditinə bank bağlanandan sonra da faizlər hesablanmaqda davam edir. Normal fəaliyyət göstərən bank kredit verərkən faizləri hesablayarkən əmanətçinin vəsaitini kreditə yönəltdiyi üçün, həmçinin bankın inkişafını təmin etməkdən ötrü qazanc əldə etmək məqsədi ilə, məsələn,18 faiz həcmində faiz formalaşdırır. Sadə dillə desək, əmanətçinin vəsaitini kreditə buraxan bank əmanətçiyə illik 12 faiz verməli idi. İndi (bankın lisenziyası ləğv olunduqdan sonra) bunu vermir. Yerdə qalan 6 faiz bankın inkişafına yönəldilməli idisə hazırda bank inkişaf etdirilmir, əksinə, ləğv edilir. İndi bankın depozit müştərisi yoxdur və ləğvedici bankın inkişaf etdirilməsini yox, ləğv edilməsini təmin etməlidir-ödəməkdə davam etmişdirsə, müştəri bank rəsmi bağlanan gündən etibarən banka ödədiyi faizləri məhkəmə yolu ilə bankdan geri ala bilər.

Mülki Məcəllənin 439.3-cü bəndində bildirilir ki, qanuna və ya müqaviləyə əsasən borcun üstünə faizlər hesablanmalı olduqda, əgər bu Məcəllə ilə və ya müqavilə ilə ayrı qayda müəyyənləşdirilməyibsə, onlar iki faiz bəndi əlavə edilməklə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən müəyyən edilən uçot dərəcəsi miqdarında, lakin ildə azı beş faiz miqdarında hesablanır. 439.4-cü bənddə bildirilir ki, öhdəlikdən kənar ödənilmiş pul əsassız varlanma qaydalarına uyğun olaraq geri tələb edilə bilər. 556.1-ci bənddə isə deyilir ki, icra mümkün olmadıqda, yəni icra edilməmə tərəflərin heç birinin cavabdeh olmadığı haldan irəli gəldikdə, öhdəliyə xitam verilir. Bu halda kreditor borcludan öhdəliyin icrasını tələb edə bilməz.

**Milli Məclisin deputatı Vahid Əhmədov** isə axar.az-a açıqlamasında bankların verdikləri kredit müqabilində lisenziyası ləğv olunduqdan sonra faiz tələb etməyə hüququnun olmadığını bildirib: "Bankın fəaliyyəti dayandıqdan sonra əmanətlərə faiz hesablanmadığı üçün kreditlərə də faiz gəlməsə, bəs elə isə kreditlərə niyə faiz hesablanmalıdır? Bu fikirdə olan ekspertlər qeyd edirlər ki, Mülki Məcəlləyə görə, bankın ləğvedicisi kreditlərə faiz hesablanmasını dayandırmalıdır. Əgər bank bağlanan gündən kreditlərə görə faizlər hesablanırsa və müştəri faizləri si düzgün deyil. Çox təəssüf ki, banklar hazırda bundan sui-istifadə edirlər, bank bağlanan kimi əmanətlər üzrə faizlər saxlanılır, ancaq kreditlərə faizlər gəlməsi davam etdirilir. Bu, qanuni deyil və bankların özbaşınalığıdır. Ona görə də hesab edirəm ki, Maliyyə Bazarlarına Nəzarət Palatası bu məsələyə baxmalı və müəyyən qərar verməlidir. Palata hazırda bankların diaqnostikası üçün və yəqin ki, bu məsələ ilə əlaqədar da müəyyən müraciətlərə baxılacaq. Problemin həlli yolları barədə MBNP-nin Direktorlar Şurasının sədri ilə danışacağam. Hesab edirəm ki, lisenziyası ləğv edilən bank müştərilərindən kreditə görə faiz tələb etməməlidir".

**Hüquqşünas Pərviz Məmmədov** isə qeyd edib ki, bağlanan bankın kredit portfelinin başqa maliyyə təşkilatına satılma halını çıxmaqla, bütün hallarda lisenziyası ləğv edilən banklar tərəfindən kreditə faiz hesablanması dayanmalıdır: "Banklar haqqında qanunun 18.2-ci maddəsinə əsasən, bank lisenziyası və ya xarici bankın bölgə nümayəndəliyinin ləğvi haqqında qərar qüvvəyə mindiyi gündən bankın lisenziya üzrə öncəki fəaliyyət növləri qadağan edilir. Bankın fəaliyyət növlərinə isə kredit verilməsi və verilən kreditlərə faiz hesablanması aiddir. Deməli, ləğv olunan bankın verdiyi kreditlərə faiz hesablamaq ixtiyarı yoxdur. Bank ləğv edilmə prosesinə girdiyi andan etibarən yalnız Mərkəzi Bankın uçot dərəcəsinə uyğun olaraq illik 7 faiz həcmində faiz tələb edə bilər. Çünki bank cəlb etdiyi əmanətlərə faiz hesablamır. Necə ki banka depozitlərə görə faiz hesablamaq qadağan olunur, eləcə də verilən kreditlərə görə də faiz tələbi olmamalıdır". P.Məmmədov hesab edir ki, vətəndaşlar bunu əsas götürməklə tam haqlı olaraq məhkəmədə həmin faizlərin ödənilməsinin dayandırılmasını tələb edə bilərlər: "Çox yaxşı olardı ki, prosesdə məhkəmə mühasibatlıq ekspertizası təyin olunsun. Ekspertizanın nəticələrindən sonra isə qalıq borca nə qədər faiz ödənilməli olduğu aydın olacaq. Bir sözlə, Mülki Məcəllənin 449-cu maddəsinə əsasən, vətəndaşlar ancaq Mərkəzi Bank tərəfindən müəyyənləşdirilən uçot dərəcəsinə əsasən faiz ödməlidirlər, yoxsa 30 və ya 40 faiz deyil".

**Hüquqşünas bildirib ki, bank ləğv edilmə prosesinə girdiyi andan sonra vətəndaş borcu bağlayıbsa və faizləri ödəyibsə, məhkəməyə müraciət edərək indiyə qədər haqsız ödədiyi faizləri geri ala bilər**: "Əgər borcun müəyyən bir hissəsi qalıbsa, onda vətəndaş tələb edə bilər ki, ödədiyi faizlərə görə ondan artıq alınan pul əsas məbləğdən çıxılsın".

❑ **Röya RƏFİYEVA**

---

# Siyasətdə yüksək prinsiplər olmurmu?



**Hüseynbala SƏLİMOV**

**İngiltərənin baş naziri D.Kemeron öz istefasını sürətləndirmək qərarına gəldi. Bununla baş nazir həm referendumun qərarına sayğısını göstərdi, həm də ölkənin Avropa Birliyindən çıxmasını ləngitmək istəmədi...**

Amma burada başqa bir detal da var. Söhbət siyasətçi etikasından və bir də məsuliyyətindən gedir. Bu haqda hələ referendumun qərarı elan olunan vaxt yazmışdım - o vaxt Kemeron dərhal bəyan etmişdi ki, istefaya gedəcək...

Bəlkə də başqa vaxt bu, məni o qədər də məşğul etməzdi. Amma mən öz 52 illik həyatımda başqa şeylər gördüm.

Bəli, kommunist kimi yatıb demokrat kimi oyananlar oldu bu ölkədə... Onlar öz keçmişləri üçün zərrə qədər belə olsun peşmançılıq çəkmədilər. Hələ bu, azmış kimi öz personalarını daha bilikli, bacarıqlı və səriştəli elan etdilər. İnsanlarda da belə təsəvvür yarandı ki, əsl siyasətçi elə onlar kimi olmalıdır - bu adamlar bütün situasiyalarda "yuxar"da qalmağı bacardılar. Amma nə yaxı ki, etik dəyərlər sistemi, siyasi əxlaq və mədəniyyət təkcə Azərbaycanla məhdudlaşmır!..

Dünya deyilən bir anlayış da var - müxtəlif ölkələrin insanlarının keçmişi, həyat təcrübəsi və məsələlərə baxışı bir qədər fərqli olsa da, nümunə ola biləcək ortaq prinsiplər, dəyərlər də mövcuddur...

Bilirsiniz, məsələ nədədir? Britaniya referendumda qərar verəndən bir-iki gün sonra Avropa Parlamentində maraqlı bir polemika oldu. Bir ingilis siyasətçi üzünü parlamanlara tutub: "Mən burada deyəndə ki, bəs Britaniyanın Birlikdən çıxmasına çalışacam, Siz mənə güldünüz! Amma budur, mən dediymi etdim!" - dedi...

Britaniyanın qərarının düzgün olub - olmamasına burada toxunmaq istəmirəm, qərar bu ölkənin əhalisinindir -bəli, özləri bilərlər, Birlikdən çıxmaq da, qalmaq da öz işləridir...

Mənim diqqətimi, sadəcə, ingilis siyasətçisinin sözləri çəkdi - bəli, insan özünün missiyasını duyur, hesab edir ki, o, siyasətə elə - belə gəlməyib, nəsə konkret bir iş görmək üçün buradadır...

Bəlkə mənim sözlərimi bir qədər qəribçiliyə salacaqlar. Amma mən də bu cür düşünənlərdən soruşmaq istərdim: Əgər siyasətdə yüksək amal və prinsiplər yoxdursa, onda biri-birinin ardınca gəlib-gedən siyasətçilər dəstəsi nəyə lazımdır? Təkcə öz ciblərini doldurmaq üçünmü?..

Deyim ki, mən belə prinsipi digər ingilis siyasət və dövlət adamlarının da bioqrafiyasında görmüşəm...

Bəli, B.Dizraeli də siyasətə "gün keçirmək" və yalnız cəmiyyətin yuxarı təbəqəsinə sıçramaq üçün gəlməmişdi. Hətta U.Çerçilli də hərəkət etdirən təkcə hakimiyyət ehtirası deyildi. Bir ara leyboristlərin sırasında olmağına baxmayaraq özünü daxilən və ruhən konservator hiss etdiyi və özünün missiyasını bu siyasi fəlsəfəyə xidmət etməkdə gördüyü üçün bir başqa yol seçmədi - əvvəlcə faşizmə, daha sonra isə kommunizmə qarşı mübarizə apardı...

Hərçənd ki, onun bioqrafiyasında çox maraqlı bir detal olmuşdu. Bir dəfə gənc bir deputatın onu maraqla süzdüyünü görən U.Çerçill deyir: "Cavan oğlan, yəqin, düşünürsünüz ki, məni bu ahıl yaşda bu binaya nə çəkib gətirir? Elə isə cavab verirəm: hakimiyyət, hakimiyyət və yenə də hakimiyyət hissi!"...

Amma U.Çerçill öz mahiyyətini bir azca bəsitləşdirmişdi. Hətta onun üçün də sırf hakimiyyət hələ heç nə demək deyildi, onun öz prinsipləri, həyata və siyasətə öz baxışları vardı...

Normal, oturuşmuş siyasi dəyərləri olan bütün ölkələrdə belədir. Bilirsiniz, söhbət heç demokrat olub-olmamaqdan da getmir. Siyasətdə belə bir ifadə var: DÖVLƏT ADAMI... Düşünürəm ki, siyasət və dövlət adamı üçün bundan böyük titul ola bilməz...

Hətta Rusiyada bir nəfər vəfat edərkən ona həsr olunmuş yazının da başlığını belə qoymuşdular: DÖVLƏT ADAMI... Bəli, bu, o adamlara deyilir ki, onlar siyasətdə yüksək prinsipləri rəhbər tutur, daim dövlət deyilən bir məbədin yüksəlişinə və güclənməsinə çalışırlar...

İndi özümüzə baxaraq soruşuram ki, bəs, bizim məmurlarda, "dövlət adamları"nda nə çatmır? Dərhal da ağlıma gələn bu, olur ki, məhz elə dövlətçilik hissi...

O gün baxıram, deyirlər ki, bəs, qeyri-neft sektorunu, xüsusən də turizmi inkişaf etdirmək lazımdır. Bunu eşidəndə məni gülmək tutdu. Heç, bilirsinizmi, niyə? İstədim, bizim məmurlara- "dövlət adamları"na deyim ki, ay sağ olmuşlar, heç əl qoymağa bir parça torpaq qoymusunuz ki?! Hamısını çəpərləmisiniz - dənizi də, gölü də, elə meşəni də! Turist bu ölkədə gəzməyə hara getsin?..

**Əsl dövlət adamları təbii ki, belə etmir. Onlar əvvəlcə dövlət və xalq, sonra isə mən deyirlər. Elə dövlətçilik psixologiyası da, şüuru da bu hesab edilir...**

YENİ MÜSAVAT
N 151 (6472) 14 iyul 2016



# Toy tutmağın çətinlikləri

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud özünə bonus yükləyən azərbaycanlılar

**Analoqu olmayan iqtisadi inkişafımız haqda daha bir rəqəm açıqlandı. Dövlət Statistika Komitəsinin məlumatına görə bu ilin yanvar-may aylarında xarici ticarət dövriyyəmiz 29 faiz azalıbdır. İxrac 35, idxal isə 18 faiz aşağı düşübdür. Loru dildə desək, alver ölmüşdür.**

Ancaq yapistlərin movqeyindən çıxış eləsək, bunu uğur adlandıra bilərik. Alver yoxdur, lap yaxşı. Demək, özümüz düzəldib, özümüz yeyirik. Üçdə alacağımız yox, beşdə verəcəyimiz. Dükan-bazar, maşallah, daxili istehsal məhsulları ilə aşıb-daşır. Özü də mən fikir vermişəm, kim hansı firmanın adını istəsə öz məhsuluna yapışdırır. Tam demokratiyadır. Uğurlu inkişaf məhsulların keyfiyyətində də özünü göstərir. Bir süd-qatıq firması var, bunun böyüyünü sıxışdırırlar, təzəlikcə intervü vermişdi, şikayətlənirdi. Nə sirdirsə, o şikayətnamədən sonra həmin firmanın məhsulları əhəng dadı verməyə başladı. Südlərini almışdım, istehsal tarixi-filan hamısı yerində idi, di gəl məhsul çürümüşdü. Gəl indi mistik iqtisadiyyatımıza, dövlətin gizli güclərinə inanma. Bunlar şikayətçinin südünü məsafədən çürüdür, razılıq edənin suyunu isə çaxıra çevirirlər.

Hələ bir dükanda görün başıma nə gəlib. Alış-veriş edib çıxıram, bu zaman satıcı "mağazamızın bonus kartı varınızdırmı" soruşur. Heç vaxt o kartları almıram, çünki min manatlıq alış-verişə on manatlıq xarab fen vəd edən dükanın zir-zibili ilə cibimi doldurmaq istəmirəm. Bu dəfə uşaqla idim, dedim kartı alıb verərəm uşaq oynadar. Ancaq ödəmə zamanı 2 manat artıq çıxıldığını gördüm. Sən demə, bu "bonus"u mən özüm ödəyirəm! Özümə! Həyasızlığın zirvəsinə baxın. Hər alış-verişdə kartıma bir-iki manat da əlavə alıb vuracaqlar, sonra mən hansısa cəhənnəmdə bu bonusdan yararlana biləcəyəm. Bir növ, özləri üçün balaca bankfason bir zad açıblar, adını da dəbdəbə ilə "İzim" qoyublar. Əcəb izdir.

Başa düşürəm, devalvasiyadır, vergi, gömrük, hüquq-mühafizə, icra hakimi, deputat, YAP-gap-filan hərə bir tərəfdən tökülüb dükanları soymaqla məşğuldur, bunu necəsə kompensasiya eləmək lazımdır. Ancaq onlar sizin cibinizə açıq girir, siz də bizim cibimizə açıq girin. Deyin ki, qardaş, bu iki manatı ver fırladaq, sonra sənə qaytararıq. Yoxsa oğurlamaq nəyə lazımdır?

Kasıbçılığın üzü qara olsun, ölkədə ailə quranların sayında da ciddi azalma vardır. Yenə Statkom-un informasiyasına görə 2015-ci ildə Azərbaycanda son altı ilin ən az nikahı qeydə alınıb: cəmi 68 min 773 nikah. Müqayisə üçün, 2014-cü ildə nikah sayı 84 min 912 olub. 2013-cü ildə lap çox: 86 min 852 nikah. Yəni 2015-in nikah sayını 2013-ün nikah sayı ilə müqayisə eləsək iki ildə 18 min 79 nikah az bağlanıb! Həyəcan təbili çalmağa və həmin musiqi sədaları altında gənclərimizi evləndirməyə ehtiyac duyulur. Çünki evlənmə azaldıqca sabah YAP sıralarına qoşmağa adam tapılmayacaq. Bəs kim yaltaqlıq edəcək? Kim Formula-1 yarışında yol qırağında dönər yeyib əl çalacaq? Vətənə vətəndaş lazımdır. Vətən daşı olmayandan, olmaz villaya hasar daşı! Vətən mənə oğul desə nə dərdim, Soğan alıb çöllərində əkərdim! Üzəduran, işverən, yalançı, cibgir, quldur, manqurt, satqın, peysər, prokuror, rəis, deputat, jurnalist, zurnalist, dəvə yağlayan, xoruz nallayan, it boğuşduran, icra hakiminin hasarlaşma üzrə müavini, vergi idarəsində bazarlaşma üzrə müavinin köməkçisi və sairə iş yerlərinə kadrlar lazımdır, bu kadrları istehsal etmək üçün isə millət evlənməlidir! Nikahsız istehsala hələlik bizdə pis baxırlar.

Hərçənd, millətimizə toy tutmağa çağırmaqda bir qədər gecikmişik, çünki bu istiqamətdə çıxışlar qabaqlar da olmuşdur. Misal üçün, elə bir ay qabaq mən deputatxanamızda ailə, qadın, uşaq komitəsinin sədri, Oğuz rayonunda doğulan, ancaq Naxçıvanlı soyadı daşıyan Aqiyə xanımın çıxışını oxuyub yadda saxlamışdım. Xanım ərz edirdi ki, camaatımız özümüzünkülərlə ailə qursun, xaricilərlə evlənənlər xoşbəxt olmur. Ta bunu hansı hesablama ilə tapıb, niyə imkan vermək istəmir camaat qırağa çıxıb bir ağ gün görsün - söhbətdə bu haqda heç zad yox idi.

**İndi söz əlaqədar təşkilatlarındır - camaatı evləndirin.**

# Sülh axtarışlarının ləngliyi savaşı qaçılmaz edir




# Qarabağda iki müharibə xəbərdarlığı - biri Rusiyadan, o biri ABŞ-dan...

## **Azərbaycan əsilli tanınmış rusiyalı ekspert:** "Konflikt yalnız böyük müharibə nəticəsində həllini tapacaq"; "Bloomberg"ə görə isə, Rusiya Ermənistana təzyiq etməsə, problem dinc yolla nizamlanmayacaq...

**4 günlük aprel müharibəsindən üç aydan artıq vaxt ötür. Bu müddətdə Dağlıq Qarabağ münaqişəsi ətrafında diplomatik fəallıq artsa da, Rusiya, ABŞ və Fransa prezidentləri səviyyəsində telefon diplomatiyası güclənsə də, hələlik Qarabağda yeni və daha böyük müharibənin baş verməyəcəyinə dair əsaslar zəif və kövrək olaraq qalır.**

Bu da əlbəttə, onunla bağlıdır ki, dinc nizamlama prosesində sıçrayışlı irəliləyiş hələ ki üfüqdə belə görünmür, yoxdur. Vasitəçilər, güc mərkəzləri tərəfindən yenə də ənənəvi ümidverici, növbətçi bəyanatlar səslənməkdədir. 22 illik danışıqlar təcrübəsi isə belə bəyanatlarla problemi nizamlamağın mümkün olmayacağına artıq çoxdan öz möhürünü basıb.

Situasiyanın özəlliyi və həssaslığı isə odur ki, aprel döyüşləri mövcud status-kvonun tezliklə dəyişdirilməsi zərurətini bütün ciddiliyi ilə ortaya qoyub. Bəs status-kvo dəyişəcəkmi?

Nüfuzlu ekspertlərin və analitik mərkəzlərin bu yöndə rəy və proqnozları təsəlli və nikbinlik üçün əfsuslar olsun ki, az əsas verir. Demək, böyük müharibə qaçılmazdır?

***

"Hamının hamı ilə hərtərəfli haqq-hesab çürütməsinin vaxtı çoxdan çatıb". Musavat.com-un məlumatına görə, bunu **Rusiya İslam Komitəsinin sədri, islam teoloqu və filosof, ekspert Heydər Camal** "Novosti Azerbaydjana" portalına müsahibəsində deyib.

Onun sözlərinə görə, Dağlıq Qarabağ konflikti yalnız böyük müharibə nəticəsində həll oluna bilər - nə vaxt ki, ənənəvi çəkindirici faktorlar daha Azərbaycan üçün keçərli olmayacaq və rəsmi Bakının strategiyasını məhdudlaşdıra bilməyəcək.

"Söyləmək ki, nizamlama yaxındadır, bu, elə o demək olar ki, böyük müharibə də yaxındadır. Bununla isə razılaşmamaq çətindir, çünki hamının hamı ilə hərtərəfli haqq-hesab çürütməsinin vaxtı çoxdan çatıb" - Heydər Camal qeyd edib.

Politoloq Qarabağ məsələsi ilə bağlı nə hazırda özünü göstərən diplomatik fəallıqdan, nə də Rusiya, İran və Azərbaycan prezidentlərinin gələn ay Bakıda gözlənilən görüşündən münaqişə ilə bağlı real nəticə gözləmir. "Prezidentlərin Bakı görüşündə şübhəsiz ki, Qarabağ mövzusu da olacaq. Ancaq bu, havanı boş yerə silkələmək olacaq. Nədən ki, Əliyev, Putin, Sərkisyan görüşü təzəcə başa çatıb - hansı görüş ki, heç nəyə gətirə bilməzdi və təbii ki, gətirmədi də", - deyə ekspert bildirib.

***

ABŞ-ın nüfuzlu "Bloomberg" agentliyi də Qarabağa dair son şərhində sülh və müharibə məsələsinə toxunub. Agentliyin ekspertləri hesab edirlər ki, münaqişənin dinc yolla tənzimlənməsində Rusiya həlledici rolunu saxlayır, lakin Kreml bu roldan lazımınca istifadə eləməkdə maraqlı deyil.

"Rusiya atəşkəs haqda anlaşmanın yerinə yetirilməsinə çalışır və Ermənistanın Dağlıq Qarabağ ətrafındakı rayonları təhvil verməsində təkid eləmir. Bunsuz isə konflikt dinc yolla həllini tapmayacaq" - məqalədə deyilir.

**Təhlildə daha sonra bildirilir:** "Bizim əlimizdə səbəblər var deyək ki, heç vaxt olmadığı qədər sülh anlaşmasına yaxınıq". Bu fikri bazar ertəsi Bakıda Rusiyanın xarici işlər naziri Sergey Lavrov Azərbaycan prezidenti İlham Əliyevlə görüşdən sonra bildirib. Diplomatik səylər apreldəki böyük hərbi qarşıdirmadan sonra güclənib. Bu, 1991-cildə SSRİ-nin çöküşündən sonra ermənilərin Azərbaycandan Dağlıq Qarabağı və onun ətrafındakı 7 rayonu ələ keçirdikdən sonra ən böyük eskalasiya idi".

**"Bloomberg" ekspertləri münaqişənin tarixinə toxunaraq yazır:** "Anklav əhalisinin erməni çoxluğu öz müstəqilliyini elan edib - hansı ki, başqa ölkələr tərəfindən tanınmayıb. Onlar öz müqəddəratını təyinetmə haqqına iddia edir, Ermənistan da bu mövqeyi müdafiə edir. Azərbaycan isə regiona muxtariyyət verməyə hazırdır, ancaq öz ərazi bütövlüyünə hörmət tələb edir".

**Analitiklər iyulun 14-də ABŞ dövlət katibi Con Kerrinin Moskva səfəri zamanı Qarabağ mövzusunun da müzakirə ediləcəyinə diqqət yönəldərək yazırlar:** "Kerri Rusiyanın ali rəhbərliyi ilə Dağlıq Qarabağ münaqişəsinin, eləcə də Suriya və Ukraynadakı böhranlı vəziyyəti müzakirə eləmək üçün cümə axşamı Moskvada olacaq. Beynəlxalq vasitəçilər sülh əldə olunması üçün "görünməmiş səylər" göstərirlər (dırnaqlar "Bloomberg"ə məxsusdur - red.) Rusiya, ABŞ və Fransa ATƏT-in Minsk Qrupu çərçivəsində ortaq vasitəçilərdir. İyunun 20-də Putin Sankt-Peterburqda İlham Əliyev və Serj Sərkisyanla görüşüb. NATO-nun Varşava sammitinin kuluarlarında isə Fransa prezidenti Fransua Olland iki prezidentlı ayrı-ayrılıqda bir araya gəlib".

"Rusiyanın istədiyi anlaşma odur ki, orada Azərbaycan ermənilərin bir qisim əraziləri qaytarmasının qarşılığında Dağlıq Qarabağın aralıq statusuna razı olsun. Ermənilər isə "DQR" tanınmayınca ərazi təhvil verməyə hazır deyillər. Sərkisyan əraziləri qaytarmaqdan öncə regionun statusunun referendumla müəyyən olunmasını istəyir" - məqalənin sonunda bildirilir.

***

**Beləcə, nüfuzlu analitik mərkəzin təhlilindən də belə qənaət hasil olur ki, əslində Qarabağa yeni və böyük müharibə riski aradan qalxmayıb. Çünki istənilən gecikən sülhün alternativi müharibədir.**

❑ **Siyasət şöbəsi**

# QAT Google və erməni təxribatı ilə bağlı XİN-ə müraciət etdi

**Qarabağ Azadlıq Təşkilatı (QAT) Google şəbəkəsində Azərbaycanın işğal olunmuş ərazilərində yer adlarının təhrif olunması ilə bağlı xarici işlər naziri Elmar Məmmədyarova müraciət göndərib. Musavat.com xəbər verir ki, müraciətdə Azərbaycanın işğal altındakı yer adlarını erməni variantında təqdim edilməsindən narahatlıq və narazılıq bildirilib.**

"Növbəti erməni təxribatı ilə bağlı məsələni diqqətinizə çatdırmağı özümüzə borc bilirik. Ermənilər bu təxribata nüfuzlu Google şirkətini də qoşublar. Belə ki, "www.google.ru/maps" saytında Azərbaycanın işğal altındakı yer adlarını erməni variantında təqdim edirlər. Məsələn, Ağdam "Akna", Ağdam rayonunun Papravənd kəndi "Nor Karmiravan", Şahbulaq yaşayış məntəqəsi "Surenavan", Kəlbəcər "Karvaçar", Kəlbəcər rayonunun Zülfüqarlı kəndi "Zuar" şəklində göstərilib. Bu cür faktların sayı çoxdur. Ermənilərin məkrli niyyətlərini, saxtakarlıq təcrübəsini bilirik. Amma Google şirkətinin erməni yalanlarına qoşulması, erməni cinayətlərinə şərik olması başadüşülən deyil. Biz hesab edirik ki, bu məsələyə təcili reaksiya verilməli, təxribatın qarşısı alınmalı, Google şirkəti məsuliyyətə cəlb olunmalıdır. Bu, rəhbərlik etdiyiniz nazirliyin birbaşa işidir. Bu təxribata bu günə qədər reaksiya verməməyiniz, tədbir görməməyiniz çox təəccüblüdür. Xahiş edirik ki, təcili tədbirlərin görülməsi üçün tapşırıqlarınızı verəsiniz. Əks halda bu saytın sındırılması üçün əlavə vasitələrə əl atmalı olacağıq",- deyə müraciətdə bildirilir.

❑ **RÖYA**

**Son üç ayda Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində mühüm gəlişmələr müşahidə olunur. Xüsusilə Rusiya prezidenti Vladimir Putinin yaxın adamı sayılan, Rusiya İctimai Palatasının üzvü, politoloq Sergey Markovun son açıqlamasından bu, açıq şəkildə görünür.**

# "Qarabağ ilin sonuna qədər qaytarılacaq" - inanaqmı?

## Markovun dedikləri erməniləri vahiməyə salıb; Elxan Şahinoğlu: "Rusiya danışıqlarla bağlı yekun qərarını verməyib..."

Politoloq bu ilin sonuna qədər Dağlıq Qarabağ probleminin həll ediləcəyinin anonsunu verib. Markov deyib ki, Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqların intensivləşməsi yaxın vaxtlarda münaqişənin həlli ilə bağlı ciddi sıçrayışa səbəb olacaq. Putinin yaxın adamı onu da qeyd edib ki, Ermənistan Dağlıq Qarabağ ətrafındakı əraziləri azad edəcək və bu il ilk Azərbaycan ailəsi dağıdılmış evlərinə qayıda biləcəklər.

**Politoloq Elxan Şahinoğlu** Markovun açıqlamalarının Azərbaycanın xeyrinə olduğunu düşünür: "İndiyə qədər bu tipli açıqlamaların dəfələrlə şahidi olmuşuq. Amma istənilən halda Markovun dedikləri xeyrimizədir. Ermənistan cəmiyyətində bu açıqlamalar çaşqınlıq yaradır. Düşünürlər ki, bəlkə Rusiya doğrudan Azərbaycanın xeyrinə addımlar atacaq. Lavrov Bakı səfəri çərçivəsində prezident və xarici işlər naziri ilə görüşlərində xeyli optimist açıqlamalar verdi. Erməni tərəfinin Lavrovun dedikləri ilə bağlı reaksiyalarını izlədim. Sanki özlərini itirmişdilər. Maraqlı reaksiyaları da oldu. Sərkisyan ərəb kanallarının birinə müsahibəsində dedi ki, bütün dünya Qarabağ əhalisindən Azərbaycanın tərkibində qalmaq üçün tələb etsə, xalq buna yenə də müqavimət göstərəcək. Sərkisyan demək istəyir ki, bütün dünya Qarabağı Azərbaycan ərazisi kimi tanıyır və Azərbaycanın tərkibində qalmasını istəyir. Bunun özü onu göstərir ki, Ermənistan hakimiyyətində Rusiya və digər dövlətlərin mövqeləri ilə bağlı bir narahatlıq var. Amma bu, o demək deyil ki, biz arxayınlaşmalı, Markovun dedikləri kimi ilin sonuna qədər münaqişənin həll olunacağına inanmalıyıq. Belə dövrlər çox yaşamışıq. 30 ildir bu hadisələri müşahidə edən bir şəxs kimi deyə bilərəm ki, hər 5-10 ildən bir optimist fikirlər səslənir. Aprel döyüşlərindən sonra ab-hava bizim tərəfədir. Danışıqlar nəticə verməsə belə, Azərbaycanın hansı addımları atacağını ermənilər anlayır. Bu, Ermənistan cəmiyyətini qorxudur. Bir tərəfdən Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmaq istəmirlər, digər tərəfdən də bilirlər ki, bunları etməsələr, danışıqlar nəticəsiz qalacaq və Azərbaycan ordusu hücuma keçəcək. Bizim cəmiyyət savaşa yenə də hazırdır. Təsadüfi deyil ki, "Gallup" mərkəzinin müharibəyə hazır olan ölkələr arasında keçirdiyi sorğuda Azərbaycan 6-cı sıranı tutmuş-



du. Ya sülhə razılaşıb, rayonları qaytarmalıdırlar, ya da ordumuzun gücü ilə üzləşməlidirlər. Onsuzda bir neçə yüksəklik əldən veriblər. Azərbaycan ordusu hücumlarının miqyasını genişləndirə bilər. Ermənilər səksəkə içərisindədirlər. Bir tərəfdən Rusiyanın hansı siyasəti yürüdəcəyindən ehtiyat edirlər, digər tərəfdən danışıqların nəticəsiz olacağını bilirlər, üçüncü tərəfdən də müharibə riskini gözə alırlar. Bizdən fərqli olaraq, onlar müharibəyə hazır deyillər".

**Politoloq münaqişənin həlli prosesini sürətləndirə biləcək yeganə ölkənin Rusiya olduğunu qeyd etdi:** "Üç həmsədr ölkə içərisində nə Amerikanın, nə də Fransanın Azərbaycan və Ermənistana təsir imkanları var - yalnız Rusiyadan başqa. Əgər Rusiya hakimiyyəti qərar versə ki, bölgədə sülh lazımdır, Azərbaycan strateji müttəfiqinə çevrilməlidir, situasiya tamam dəyişəcək. Bu, Türkiyənin də maraqlarına uyğundur. Bu halda biz deyə bilərək ki, ilin sonuna qədər olmasa da, bir il ərzində münaqişənin həllində ciddi addımlar atılacaq. Əgər Rusiya indiyə qədər apardığı siyasəti davam etdirsə, atəşkəsi qorumağa çalışsa, erməniləri incitmək istəməsə, onda münaqişə ilə bağlı aparılan danışıqlarda ilin sonuna qədər ciddi bir nəticə qazanılmayacaq. Ən həssas aylar iyul-avqustdur. Bu aylarda atəşkəs intensiv şəkildə pozulur. Rusiya danışıqları sürətləndirməklə, bu ayların sakit keçməsini istəyir. Amma bu görüntü bir neçə ay çəksin, sonda bunun itməsi baş verəcək. O halda atəşkəs pozulacaq".

**Politoloq Markovun dili ilə Rusiyanın verə biləcəyi mesajlara da toxundu:** "Kremlə yaxın yüzlərlə ekspert, o cümlədən ermənilər də var. Markovun Azərbaycana müsbət münasibəti var. Məsələləri obyektiv qiymətləndirir. Amma məsələni başqa tərəfdən qiymətləndirən Kremlə yaxın başqa ekspertlər də var. Bu baxımdan Rusiyanın Markovun dili ilə Azərbaycan və Ermənistana mesaj göndərdiyini demək çətindir. Kremlin problemə baxışı tam formalaşmayıb. Azərbaycan və Ermənistanı bir araya gətirmək çətindir. Bunun üçün konkret ya Azərbaycanın, ya da Ermənistanın tərəfini tutmaq lazımdır. Bu baxımdan Rusiya danışıqları hansı istiqamətdə aparmaqla bağlı yekun qərarını verməyib".

❑ **Cavanşir ABBASLI**

# Rəsmi Bakı Sərkisyanın iddiasına cavab verdi

**Aprel savaşındakı sarsıdıcı zərbədən sonra ölkə daxilində və beynəlxalq səviyyədə mövqeləri kəskin şəkildə zəifləyən Ermənistan prezidenti Serj Sərkisyan indi də növbəti avantüraya əl atmağa başlayıb. Belə ki, işğalçı ölkənin prezidenti Azərbaycan ərazilərinin zəbtinə son qoymamaq üçün yeni bəhanələr uydurmaqdadır.**

"Bütün dünya belə Dağlıq Qarabağ əhalisini Azərbaycanın tərkibində yaşamağa inandıra bilməz". Bu sözləri Ermənistan prezidenti Livanın "Əl-Mayadin" telekanalına müsahibəsində deyib. Musavat.con erməni saytlarına istinadla bildirir ki, Sərkisyan Qarabağın statusunu - müstəqil dövlət olmasını və ya Ermənistana birləşməsini qəti olaraq "Qarabağ xalqı" müəyyən etməlidir. **Sərkisyan deyib:** "Mənim üçün hər şeydən mühümü Dağlıq Qarabağ xalqının təhlükəsizliyinin təminatıdır. İnsanlar min illərlə yaşadıqları tarixi vətənlərində yaşamaq imkanına malik olmalıdırlar. Bu təhlükəsizliyi isə yalnız Azərbaycanın tərkibindən kənarda olduqda təmin etmək mümkündür. Əgər hansısa bədlikdən Dağlıq Qarabağ lap bircə günlüyə Azərbaycanın tərkibində olsa, orada bir erməni qalmayacaq. Hətta indi bütün dünya belə Dağlıq Qarabağ əhalisini Azərbaycanın tərkibində yaşamağa inandıra bilməz, mümkün deyil. İnsanlar razılaşmaz. Söhbət gücdən getmir. Güc tətbiq edərək qarabağlı erməniləri məhv etmək olar, amma Azərbaycanın tərkibində yaşamağa inandırmaq olmaz. Azərbaycan rəhbərliyi bunu anlamalıdır. Əsas məsələ budur: bu insanları heç bir şəkildə Azərbaycanın tərkibində saxlamaq mümkün deyil".

**S.Sərkisyan erməni əhalisinin "min illərlə Dağlıq Qarabağda yaşadığını, ancaq sovetləşdirmə zamanı vilayətin zorla Azərbaycana birləşdirildiyini" iddia edib və ardınca növbəti absurd fikirlər səsləndirib:** "Naxçıvanı da belə etdilər. Bu gün orda bir erməni belə qalmayıb. Orda erməni mədəniyyəti tamamilə məhv edilib". Sərkisyan deyib ki, Qarabağ münaqişəsinin tənzimlənməsini Cənubi Qafqazın kiçik bir region olmasına baxmayaraq, burada müxtəlif maraqların kəsişməsi daha da mürəkkəbləşdirir. Bu maraqlar münaqişəyə təsir göstərməyə bilməz: "Əminəm ki, danışıqlar prosesinə vahid yanaşma mümkün olsa, həll yolu tapılar. Ancaq dünya inkişaf edir. Elə bir regional problem yoxdur ki, digər ölkələr ona öz milli mənafeləri prizmasından baxmasınlar".



**Politoloq:**
"Ermənistan rəhbəri sərsəm bəyanatlar verir"



**Hikmət Hacıyev:**
"Bu iki icma yenə də Azərbaycanın ərazi bütövlüyü çərçivəsində bir yerdə yaşamalıdır"

**Politoloq Arzu Nağıyev** Ermənistan prezidentinin iddialarını "özünüqoruma instinkti" kimi dəyərləndirdi: "Yeni baxmayaraq ki, beynəlxalq təşkilatlar, BMT, ATƏT və digər qurumlar hər gün münaqişənin həllinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarı olduğunu deyir və bundan sonra hər bir millətin öz müqəddəratını təyin etməsi istiqamətində həllinə çalışır, yenə də Ermənistan rəhbəri belə sərsəm bəyanatlar verir. Məlumdur ki, bu, ilk növbədə xaricdə yaşayan erməni lobbisinə, separatçıların maliyyə dəstəkçiləri olan qurumlara ünvanlanıb. Çünki yığılan vəsaitlərin ilk növbədə qondarma qurumun dövlət kimi dəstəklənməsi üçün xərclənəcəyi deyilib və bu adla toplanıb. Bu gün isə artıq danışıqlar dalana dirənib və müvafiq qərarlar qəbul edilməlidir". **A.Nağıyev qeyd etdi ki, bunu bütün dünya, eyni zamanda Rusiya da tələb edir:** "Odur ki, danışıqlar intensivləşib. Digər tərəfdən Sərkisyan özü də səhra komandirliyindən, Dağlıq Qarabağda törətdiyi cinayətlərin üzərindən hakimiyyəti zəbt edərək, qondarma quruma "müstəqillik" söz verən yalançıdır. Bu gün artıq həm də Qarabağ klanı qarşısında hesabat verməli olan Sərkisyan belə bəyanatlarla onları da sakitləşdirməyə çalışır. Bir sözlə, bu bəyanatlar dünya birliyini aldatmaq, status-kvonu saxlamaq və bununla da öz hakimiyyətinin ömrünü mümkün qədər uzatmaq istəyindən başqa bir şey deyil".

**XİN-in mətbuat katibi Hikmət Hacıyev** isə "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinin iki icması var: "Bunlar erməni və Azərbaycan icmalarıdır. Azərbaycan həmişə deyir ki, bu icmalar arasında təmaslar olmalıdır. Azərbaycan bu mövqeni həmişə dəstəkləyir. Çünki bu iki icma yenə də Azərbaycanın ərazi bütövlüyü çərçivəsində bir yerdə yaşamalıdır". **H.Hacıyevin onu da bildirdi ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının öz torpağına geri qayıtmaq hüququndan heç kim məhrum edə bilməz:** "Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Qarabağın azərbaycanlı icmasının da tam şəkildə öz ata-baba yurduna qayıtmaq hüququ var".

**Qeyd edək ki, bir neçə gün öncə Bakıda səfərdə olan ATƏT-in fəaliyyətdə olan sədri, Almaniyanın xarici işlər naziri Frank-Valter Ştaynmayer "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədri, Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov**la görüşmüşdü. Bu görüşdə də icmanın rəhbərliyi erməni icması ilə görüşüb durumu müzakirə etməyə hazır olduğunu ATƏT sədrinin də diqqətinə çatdırıb. B.Səfərov "Yeni Müsavat"a deyib ki, Qarabağ ermənilərinin onlarla təmaslarına imkan verilmir...

Bu arada Sərkisyanın iddialarına Rusiyadan da maraqlı reaksiya verilib. "Dünya inandıra bilməsə, o zaman Azərbaycan tankları Qarabağ ermənilərini inandıracaq ki, Ermənistandan qovulmuş azərbaycanlılar öz yerlərinə qayıtsınlar". *(Axar.az)* Bu sözləri Aleksandr Fomenkov Sərkisyanın "bütün dünya da yığışsa, Qarabağ ermənilərini azərbaycanlılarla çiyin-çiyinə yaşamağa məcbur edə bilməz" fikirlərinə münasibət bildirərkən deyib: "Əgər, ümumiyyətlə, İrəvan xanlığını itirmək istəmirsinizsə, bunu qəbul etməyə məcbursunuz. Əks halda sizi əsl müharibə gözləyir - böyük əksəriyyəti türklərdən ibarət olan Kollektiv Təhlükəsizlik Müqaviləsi təşkilatı, NATO və Türkiyənin iştirakı ilə. Ümid edirik ki, məsələ bu həddə gəlib çıxmayacaq. Serjik, səni Müəmmər Qəzzafinin aqibəti gözləyir. Əks halda səni, Putinin təbiri ilə desək, öz ermənilərin Kremlin ayaqyolusunda tapacaqlar. Ona görə yox ki, onlar səninlə razı deyillər, ona görə ki, beynəlxalq erməniçiliyin günahini kiminsə boynuna yükləmək lazımdır. Ardınca da, arxayın ol ki, Robik də gələcək *(Robert Köçəryan)*.

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 151 (6472) 14 iyul 2016



# İpoteka yeniliyi - mənzil bazarı dirçələ bilər?

## Ekspertlər yeni fərmanla bağlı gözləntilərindən danışıblar...

**Bir müddət əvvəl dövlət başçısı tərəfindən verilən yeni fərman ipotekaya ümidləri artırır. Ekspertlər bildirirlər ki, ipoteka fərmanı mənzil bazarına müsbət dəyişiklik vəd edə bilər. Qeyd edək ki, fərmanla ölkədə yeni tikilən, ancaq Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun istismarına icazə verilməsi gecikən çoxmənzilli binalardakı mənzillərin alınması üçün ipoteka krediti veriləcək. "Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında" fərmana əsasən, "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 27 oktyabr tarixli 661 nömrəli Fərmanında dəyişiklik edilib.**

**Ekspert Rəşad Əliyev** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, yeni qaydalarda iki istiqamət üzrə vacib məqam var: "Birinci məqam ipoteka kreditlərinin verilməsi qaydalarında dəyişiklərdir. Burada söhbət həm ilkin ödənişdən gedir, həm kreditin maksimal məbləğinə dair məlumat və faiz dərəcələri ilə bağlı məsələlər əksini tapıb. Eyni zamanda burada gəlirlərə qoyulan tələblər də öz əksini tapıb. Əgər əvvəllər adi ipoteka kreditləri üzrə 20 faiz ilkin ödəniş var idisə, hazırda bu ödəniş 15 faiz olub. Güzəştli ipoteka üzrə dəyişiklik isə 15 faiz qalıb. Faiz dərəcələrinə gəldikdə isə qaydalarda göstərilir ki, faizlər fondun Müşahidə Şurası tərədindən yenilənəcək. Digər tərəfdən, gəlirlərə qoyulan tələblərdə yenilik ondan ibarətdir ki, qaydalarda göstərilir ki, kredit üzrə aylıq ödənişin məbləği həmin şəxsin aylıq gəlirinin 70 faizindən çox olmamalıdır. Təəssüf hissi ilə qarşıladığımız yaş məhdudiyyətidir. Ondan ibarətdir ki, yeni qaydalara görə kreditin ödəniş müddəti həmin şəxsin pensiya yaşına düşməməlidir. Əgər nəzərə alsaq ki, adi ipoteka üzrə müddət 25 il, güzəştli ipoteka üzrə 30 ildir, o deməkdir ki, 40 yaşlı vətəndaşlarımızın bir hissəsinə ipoteka krediti tam müddətdə verilməyəcək. Yəni onlar ipotekanı qanunvericiliklə müəyyən olunmuş müddətdə ala bilməcəyəklər. Adi ipoteka üzrə 25 il maksimal müddət olsa da, onlar üçün 20-21 il olacaq. Yəni orada pensiya yaşından asılı olaraq, kredit müddəti kiçildiləcək".

**Ekspert elektron ipotekadan da danışıb və bildirib ki, bunun müsbət tərəfləri var:** "Elektron ipotekanın mahiyyəti ondan ibarətdir ki, onun alınması proseduru elektron qaydada həyata keçiriləcək. Buna bir müddət sonra başlanılacaq. Çünki hazırkı vəziyyətdə texniki imkanlar buna uyğun deyil, imkan vermir. Bunun da müsbət cəhəti odur ki, bu, ipotekanın alınması prosesini şəffaflaşdıracaq. Məsələn, orada qeyd olunur ki, ipoteka almaq istəyən şəxs müraciət edir, üç gün ərzində onun istəyinə ilkin rəy bildiriləcək. Yəni o, prosesi davam etdirsin, yoxsa hansısa səbəbdən bundan imtina olunur. İpoteka alanların qeydiyyatı da elektron formada aparılacaq. Bu da ipoteka alınması prosesindən sui-istifadələrə müəyyən qədər mane olacaq. Digər məsələ isə bürokratik əngəllərin aradan qaldırılması olacaq. Eyni zamanda, ipoteka işə salınandan sonra sənədlərin toplanması prosesi elektronlaşdırılacaq. Belə ki, həmin elektron ipoteka proqramı hökumət portalına birləşdiriləcək. Bundan sonra kredit vermək istəyən bank bir sıra məlumatları, vətəndaşın gəlirləri haqqında məlumatları, yaşayış yeri ilə bağlı, iş yeri haqqında məlumatları müvafiq dövlət orqanından elektron formada alacaq".

**Ekspert Nüsrət İbrahimov** isə qeyd edib ki, fərmana uyğun olaraq, ipoteka evlərinin verilməsində bir sıra dəyişikliklər olacaq: "Birinci dəyişiklik odur ki, hüquqi təsdiqedici sənəd olmalıdır. Həmçinin təmirli və yaşayış üçün yararlı olmalıdır. Maksimum məbləğ əvvəllər əlli min manat idisə, indi bu məbləğ Müşahidə Şurasının qərarı ilə ildə bir dəfə müəyyən ediləcək. Maksimum məbləğ yüz min manatdan çox olacaq. Faiz dərəcələrində də dəyişiklik edilib. Prosedur maksimum 60 gün çəkə bilər, ondan az ola bilər, ancaq çox olmamalıdır".

**Ekspert Ramil Osmanlı** isə bildirib ki, bu, ötən ilin oktyabrında verilmiş fərmanın davamıdır: "İpoteka Fondu yeni ayrı kollegial bir quruma, idarəetmə formasına çevrilir. Burada müvafiq dövlət strukturlarına həmin qurumun fəaliyyətinin təşkili ilə bağlı həmin fərmanda tapşırıqlar verilir. Söhbət konkret olaraq, İpoteka Fondunun fəaliyyətinin qurulmasından, yəni işlək mexanizmə gətirilməsindən, elektron ipoteka sisteminə keçilməsindən gedir. Elektron ipoteka sisteminə keçirilməsi o qədər də əhəmiyyətli dəyişikliklərə gətirib çıxartmayacaq. Biz hələ ki Nazirlər Kabinetinə verilən iki aylıq müddətin sonunu gözləyirik".

❑ **Röya RƏFİYEVA**

**Mənzil bazarı hələ də durğunluq dövrünü geridə qoymağa nail olmayıb. Manatın devalvasiyasından sonra daşınmaz əmlak bazarında yaşanan durğunluq stabil olaraq qalır. Vəziyyət o həddə çatıb ki, mənzil alqı-satqı, kirayəsi ilə məşğul olan dəllallar icarəyə götürdükləri ofislərin haqqını verə bilmədikləri üçün ofisləri bağlamalı olublar. Müşahidələrimiz zamanı da şəhərdə alqı-satqı ilə məşğul olan ofislərin sayının azaldığının şahidi olduq.**

# Daşınmaz əmlak bazarı iflic olub; "Son 3 ayda bir mənzil satmışıq"

## Ramil Osmanlı: "Azərbaycanda daşınmaz əmlak bazarına yatırım etmək üçün çox münbit şərait var"

Maklerlərlə etdiyimiz söhbətdən məlum oldu ki, əksəriyyəti son 2-3 ayda yalnız bir mənzil satmağa nail olub. Yayın gəlişi ilə əlaqədar kirayə mənzil sektorunda da durğunluq olduğundan gəlirlər sıfıra enib. Bir neçə ofisə baş çəkib dəllallarla durumu dəyərləndirdik.

**Ramiz adlı ev dəllalı mənzil bazarında vəziyyətin pisə doğru getdiyini bildirdi:** "Satış ən yaxşı halda ayda bir dəfə olur. Biz son 2 ayda cəmi bir alqı-satqı eləmişik. Hazırda ən çox tələbat kirayə evlərədir. Bunun da səbəbi odur ki, tələbələr imtahan vermək üçün gəlir. Evlərin qiyməti isə qalxmayıb. Ötən ilki qiymətlərlə müqayisə etsək, manata görə, qiymətlər olduğu kimidir, dollarla hesablasaq bir qədər ucuzlaşıb. Köhnə evlər əvvəlki qiymətə satılır. Bir otaqlı evin qiyməti 40-50 min manat arası, iki otaq 50-65 min manat arası, 3 otaq isə 75-90 min manat arasındadır. Söhbət Nizami rayonu ərazisində olan evlərdən gedir. Evin qiyməti mərkəzə, metroya yaxınlığına görə də dəyişir. Yeni tikililər də manatla təklif olunur. Ötən illə müqayisədə yeni tikililərdə qiymət bir qədər artıb. Lakin alıcılıq yoxdur. 3 otaqlı yaxşı bir evin qiyməti köhnə binalarda 85-90 min manatdırsa, yeni tikililərdə 100-120 min manatadır. Söhbət təmirli evlərdən gedir. Kvadratmetri 800-1000 manata istənilən evi almaq olar".

**Makler onu da qeyd etdi ki, bazardakı durğunluğun səbəbi daşınmaz əmlak bazarının əsas fiqurları olan Rusiyada yaşayan Azərbaycanlıların artıq bu sahəyə maraq göstərməməsidir:** "Əvvəllər Azərbaycanda daşınmaz əmlak bazarını canlandıran əsasən Rusiyada yaşayan həmyerlilərimiz idi. Onlar isə indi gəlib burada ev almırlar, əksinə, çoxları gəlib Bakıdakı mənzillərini satışa çıxarır, pulu aparıb orada nəyəsə yatırır. Hazırda Gürcüstan vətəndaşları olan azərbaycanlıların alıcılıq qabiliyyəti nisbətən çoxdur".

Başqa bir dəllal isə əhalinin gözləmə mövqeyində olduğunu, əlində xarici valyutada vəsaitləri olanların isə növbəti devalvasiyanı gözlədiyini bildirdi: "Əvvəllər hər ofis ayda 3-4 ev satırdı. İndi isə biz son 3 ayda cəmi bir ev satmışıq, o da birotaqlı. Alıcılıq yoxdur. Səbəb isə odur ki, kimin manatı varsa, dollara çevirib saxlayır. Gözləyir ki, dollar bahalaşsın, daha sonra manata çevirib bir otaq əvəzinə iki otaq ev alsınlar. Satanlar da gözləmə mövqeyindədir, yaxşı alıcı gözləyir. Hazırda ev alqı-satqısı ilə məşğul olanlar əsasən kirayə evlərdən qazanırlar. Ofislərin əksəriyyəti bağlanıb. Əgər bizim də ofisimiz özümüzün olmasaydı, icarə haqqı verməli olsaydıq, yəqin ki, çoxdan bağlayardıq. Artıq 4-5 makler bir ofisə yığışıb bu vəziyyətdə işləyirlər ki, icarə pulu ciblərinə qalsın. Gözləyirik ki, dövlətimiz ipotekalara pul ayırsın, mənzil bazarına da pul gəlsin. Ancaq bunlar qarşıdadır, hələ nə zaman olacağı məlum deyil".







**Daşınmaz əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı** da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, mənzil bazarda ümumi vəziyyət qənaətbəxş deyil, durğunluq yaşanır: "Nəzərə alsaq ki, ipoteka kreditlərinin verilməsində də problem yaşanır və bu da bazara öz təsirini göstərir. İndiki mərhələdə qiymətlərin azalması da davam edir. Lakin bu azalma mart-aprel aylarında olduğu qədər dinamik deyil. Həm kirayə bazarında, həm də satışda vəziyyət hələ ki stabildir. Lakin düşünürəm ki, avqust ayında bir qədər aktivlik yaranacaq. Bu da yeni dərs ilinin başlaması və tələbələrin paytaxta axın etməsi ilə bağlıdır. Digər tərəfdən turizm mövsümünün bitməsi ilə əlaqədar mənzil bazarında qismən alıcılıq qabiliyyətinin artması müşahidə ediləcək. Hesab etmirəm ki, bazarda canlanmanın olması üçün hər hansı səbəb var. Proseslər daha çox makroiqtisadi vəziyyətdən, Azərbaycan neftinin qiymətindən, hökumətin mənzil bazarı ilə bağlı qəbul etdiyi qərarlardan asılı olacaq. Söhbət ipoteka kreditləşməsi ilə bağlı qəbul ediləcək qərarlardan, şəhərsalma və infrastruktur layihələrinin icrası ilə bağlı qərarlardan gedir. Ölkənin makroiqtisadi göstəricilərinin azalması bu ölkə daxilindəki istehlak bazarına, o cümlədən mənzil bazarına da ciddi təsir göstərir. Azərbaycanın qonşuları, o cümlədən regionda olan digər ölkələr dünyada baş verən proseslər, milli valyutamızın dəyərdən düşməsi, bu səbəbdən əhalinin milli valyutaya olan etimadının azalması, bank sektorunda olan problemlər nəticəsində əhalinin əmanətlərə marağının olmaması daşınmaz əmlak bazarında da vəziyyətin mürəkkəbləşməsinə, bazarın indiki vəziyyətə gəlib çatmasına səbəb olub".

**R.Osmanlının fikrincə, hazırda Azərbaycanda daşınmaz əmlak bazarına yatırım etmə üçün iqtisadi baxımdan çox münbit şərait var, lakin buna mane olan inzibati amillər də var:** "Qiymətlər düşüb və daşınmaz əmlak bazarı ən durğun dövrünü yaşayır. Lakin təəssüflər olun ki, indiyə qədər Azərbaycanda hökumətin maliyyə siyasətinə rəhbərlik edən qurumların daşınmaz əmlak bazarına olan münasibəti, dövlət ehtiyacları və sair üçün alınan mənzillərə ödənilməli olan kompensasiyaların ödənilməməsi, bununla bağlı çox ciddi məhkəmə mübahisələrinin olması, mülkiyyət münasibətlərinə ikili yanaşmalar artıq bu sahəyə olan marağı azaldıb. Bu baxımdan indi əlində pul kütləsi olan insanların vəsaitlərini daşınmaz əmlak bazarına yönəltməsi çox ciddi problemə çevrilib. Bu səbəblərin aradan qalxması üçün bizə ən azı 4-5 il vaxt lazımdır".

**İpoteka kreditləri ilə bağlı verilən qərarların bazarda hansısa yeniliyə səbəb olacağına gəlincə, Ramil Osmanlı qeyd etdi ki, hazırda ipoteka əlçatanlığı lazımi səviyyədə deyil:** "Ölkə başçısının fərmanında bir çox müddəalar öz əksini tapır. Ancaq çox şey Müşahidə Şurasının qərarından asılı olacaq. Müşahidə Şurası faiz dərəcələrinin azaldılması ilə bağlı qərar qəbul edərsə, yəni faiz dərəcələri ümumi ipoteka kreditləri üzrə 5-6 faiz, sosial ipoteka kreditləri üzrə 2-2,5 faizə endirilərsə bu ipotekanın əlçatanlığını artıra bilər. Amma indiki şərtlər çərçivəsində Azərbaycanda ipotekanın əlçatanlılığı çox aşağı səviyyədədir. Bu mərhələdə ipotekaya dövlət büdcəsindən ayrılan 50 milyon manat, həm istiqraz formasında, həm də cənab prezidentin tapşırdığı kimi 200 milyon manatın ayrılması bu sahədə hər hansı canlanmaya səbəb olmayacaq. Çünki bu vəsaitlərin yerləşdirilməsi indiki şərtlər çərçivəsində mümkün deyil".

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 151 (6472) 14 iyul 2016



# Qarabağa dair ürkək diplomatiya - yerində qaçış, yoxsa...

Məsələ ətrafında diplomatik fəallıq hələ ki daha çox ehtimallar yaradıb, nəinki problemin həll perspektivinə pozitiv konkretlik gətirib; **rusiyalı politoloqdan nikbin proqnoz:** "Bu il böyük tarixi müqavilə imzalana bilər..."

**Qarabağ məsələsi ətrafında diplomatik fəallıq, daha doğrusu, diplomatik ajiotaj davam edir. Rusiya xarici işlər naziri Sergey Lavrovun təzəcə başa çatan Bakı səfəri bu qənaəti bir qədər də möhkəmlətdi. ATƏT-in Minsk Qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan prezidentləri ilə Varşavada görüşündən az sonraya təsadüf edən bu səfər konfliktin dinc yolla həlli perspektivinə müəyyən işıq salmalı idi.**

Rusiya baş diplomatının İrəvan və Bakı səfərlərinin yekunları ilə bağlı ekspert rəyləri hələlik konkretlikdən daha çox, ümumi səciyyə daşıyır. Bu da təbiidir, çünki danışıqların detalları açıqlanmır, ortada yalnız ümumi xarakterli və xəsisliklə verilən açıqlamalar var. Rusiya XİN başçısının dediyi kimi, "diplomatik etikaya uyğun" olaraq, hələlik ümumi işin xeyrinə konfidensiallığa əməl edilir. Bununla belə, ortadakı kasad informasiyalar da müəyyən nəticələrə gəlməyə imkan verir.

Onlardan biri budur ki, danışıqlar hər halda mərhələli plan üzrə gedir. İkincisi, prosesdə məhz Rusiya özünün dominant vasitəçi statusunu saxlamağa çalışır. Deməк, danışıqlarda real nəticə Moskvanın maraqlarının nə dərəcədə təmin olunması ilə birbaşa bağlıdır. Üçüncüsü, nəzərə alsaq ki, Bakıdakı Qarabağ müzakirələrindən Azərbaycan və Rusiya tərəfi razı qaldığını bəyan edib, deməli, məhz Kremlin maraqları kontekstində ortada ilkin anlaşma mövcuddur və Rusiya Bakının gözləntilərinə indi daha anlaşıqlı yanaşır. Bəs Qərbin maraqları?

* * *

"Moskva Dağlıq Qarabağ münaqişəsinin nizamlanması yolunda mövqeyini əldən vermək istəmir. Rusiya xarici işlər naziri Sergey Lavrovun Bakı və İrəvana son vaxtlar artan səfərlərini də bununla izah etmək olar". Bu sözləri Rusiya Dövlət Humanitar Universitetinin regionşünaslıq və xarici siyasət kafedrasının dosenti, tanınmış siyasi ekspert Sergey Markedonov son Qarabağ danışıqlarını şərh edərkən deyib (APA).

**Onun sözlərinə görə, Moskva heç bir halda danışıqlar formatını əldən vermək istəmir:** "Görünən odur ki, Sergey Lavrovun Bakıya səfəri də Peterburqda prezidentlərin görüşündə əldə olunan razılıqların təsdiqlənməsi məqsədini daşıyır. Hesab etmirəm ki, burada söhbət hansısa qərarın qəbulundan gedir. İnanmıram ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı keçirilən bir sammitdə konfliktin həlli üzrə qərar verilsin. Bu uzun sürən prosesdir. Bir və ya iki görüşlə həll olunası məsələ deyil".

**Rusiyalı politoloq münaqişənin həlli ilə bağlı ortada hansısa planın olub-olmadığı məsələsini də şərh edib:** "Son zamanlar problemin həllinə dair "Lavrov planı"nın olduğu deyilirdi. Planın adı belə olsa da, qərarı onun vermədiyi aydındır. Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı qərarı Moskva ATƏT-in Minsk Qrupunun digər həmsədr ölkələri olan ABŞ və Fransa ilə birlikdə verə bilər. Bu istiqamətlə onlar qarşılıqlı fəaliyyət göstərir. Ona görə də hesab etmirəm ki, Moskvanın konfliktin həlli ilə bağlı hansısa təktərəfli qərar ola bilər. Belə olsa, bu, digər həmsədrlər tərəfindən heç də xoş qarşılanmaz. Nəzərə alsaq ki, Sankt-Peterburq görüşündə digər həmsədrlər də iştirak edib, o zaman münaqişənin həlli ilə bağlı Moskvanın bütün səyləri Qərblə razılaşdırılır".

**S.Markedonov danışıqların "Kazan formulu" əsasında aparılıb-aparılmamasına da toxunub:** "Kazan formulu"nda yeni heç nə yoxdur. Bu, yenilənmiş Madrid prinsiplərinin əlavələr olunmuş təqdimatıdır. Münaqişənin nizamlanmasının əsasında bu formul dayanır. Əsas məsələ sənəddə, yəni kağız üzərində nəyin yazılması deyil, əsas məsələ kimin birinci, ya ikinci addım atmasıdır. Bu gün müzakirə olunmalı əsas məsələ Dağlıq Qarabağ Muxtar Vilayətinə daxil olmayan 7 rayonun işğaldan azad edilməsi və Dağlıq Qarabağın gələcək statusunun müəyyən edilməsidir. Lakin bunu müzakirə etmək üçün tərəflər bir-birindən güzəştlər gözləyir. Mübahisə məhz bunun üstündədir. Kimin birinci addım atması məsələsi mübahisəlidir. Yenilənmiş Madrid prinsiplərində dediklərimin hamısı əksini tapıb, hətta bu sənəddə məsələnin həllinin ardıcıllığı da var. Lakin kimin nə zaman birinci addım atmalı olduğu sənəddə yoxdur. Mənə elə gəlir ki, hazırda danışıqlar prosesində məhz bu məqamlar müzakirə olunur".

**Rusiyalı ekspertin fikrincə, Vaşinqton bu münaqişənin həllində Moskvaya manеə olmaq istəmir:** "Lakin münaqişənin həllində Moskva öz milli maraqlarını nəzərə alırsa, o zaman, əlbəttə ki, Qərbin də maraqlarını nəzərə almalıdır. Bu gün Rusiya-ABŞ münasibətləri çox mənfi istiqamətdə inkişaf edir. İki nəhəng arasında gözlə görünən gərginlik müşahidə olunur. Bir sıra regional məsələlərdə fikir ayrılıqları mövcuddur. Ukrayna, Suriya və NATO məsələlərində Rusiya və ABŞ arasında ortaq nöqtə yoxdur. Dağlıq Qarabağ münaqişəsi yeganə problemdir ki, bu məsələdə Moskva və Vaşinqton ortaq fikrə sahib olduqlarını bəyan edir".

* * *

**Moskvadakı Siyasi Tədqiqatlar İnstitutunun direktoru, Rusiya prezidenti yanında İctimai Palatanın üzvü Sergey Markov** isə hesab edir ki, Qarabağ probleminin həllində pozitiv irəliləyiş üçün indi əsl vaxtdır. Onun fikrincə, elə bu il "Kazan formulu" əsasında böyük tarixi müqavilə imzalana bilər: "Formulun mahiyyəti budur ki, ərazilərin qaytarılması qarşılığında blokada götürülür. Yəni Ermənistan Dağlıq Qarabağ ətrafında işğal elədiyi rayonları geri qaytarır, Azərbaycan isə sərhədləri açır və Dağlıq Qarabağın statusu ilə bağlı danışıqlara başlayır. Bundan əlavə, azad edilmiş ərazilərdə sülhməramlı qüvvələr vasitəsilə hərbisizləşdirilmiş zona yaradılır. Hələ ki sülhməramlı qüvvələrin tərkibi və referendum proseduru ilə əlaqədar problemlər var. Bu məsələlər daima diskussiya edilir".

**Ekspertə görə, Moskva heç vaxt olmadığı qədər münaqişənin həllində maraqlıdır**: "Birincisi, Rusiyaya periferiyada daha bir müharibə dəqiq lazım deyil, çünki müxtəlif konfliktlər arasında özünüdəstək əlaqəsi işı düşə bilər. İlk baxışda Donbas, Qarabağ, Dnestryanı, Abxaziya müxtəlif münaqişələr təsiri bağışlaya bilər. Ancaq meşədəki kimi, 5-6 yanğın ocağı birləşəndə böyük bir odlu qövs əmələ gəlir. Belə bir qövsü önləmək Rusiyanın əsas motivasiyasıdır. İkinci motivasiya - bizə Qərb ölkələrini əməkdaşlığa cəlb eləmək, bununla da Qərblə qarşıdurmanı hər hansı mövqe itirmədən zəifləmək lazımdır. Belə çıxır, burada Rusiyanın Qərblə münasibətləri yaxşılaşacaq. Ancaq Rusiya heç nə itirmir, əksinə, hətta dünya liderlərindən biri kimi öz mövqeyini möhkəmlədir. Üçüncüsü - regionun iqtisadi yüksəlişidir: bu, Azərbaycanla da, Ermənistanla da əla əməkdaşlıq imkanlarıdır".

* * *

"İrəvan müvəqqəti statusa etiraz etməsə də, yekun statusu müəyyənləşdirəcək referendumun keçiriləcəyi tarixi sənədə salmaq istəyir". Bunu isə **politoloq Elxan Şahinoğlu** deyib. Onun sözlərinə görə, Lavrovla görüşdə Elmar Məmmədyarovun danışıqlar masasını mərhələli şəkildə mövcud problemlərdən təmizləməli olduğunu bildirməsi, əslində rəsmi Bakının mərhələli həll planından kənara çıxmadığına işarədir.

"Lavrovun bunu dilə gətirməməsi göstərir ki, Kreml münaqişənin həllinin I mərhələsində Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması fikrini hələ qəbul etməyib. Bakıda səslendirilən "ümid yaradan amillər" ifadəsi isə söhbətin Dağlıq Qarabağa veriləcək aralıq statusdan getdiyini təxmin etməyə imkan verir. Belə bir status Azərbaycanın böyük güzəşti sayıla bilər. Problem ondadır ki, rəsmi İrəvan müvəqqəti statusa etiraz etməsə də, yekun statusu müəyyənləşdirəcək referendumun keçiriləcəyi tarixi sənədə salmaq istəyir. Bu isə bütün razılaşmanı pozur və ortada Kremlin İrəvanı bu tələbdən vaz keçməyə məcbur edəcəyinə dair heç bir işartı yoxdur. Əgər bu danışıqlar bu dəfə də konkret nəticəyə gətirib çıxarmasa, vəziyyət yenidən gərginləşəcək".

* * *

**Göründüyü kimi, Qarabağ məsələsi ətrafında son vaxtlar özünü göstərən pozitiv dinamika, ehtiyatlı və ürkək diplomatiya, fəallıq əslində də daha çox ehtimallar yaradıb, nəinki problemin həlli perspektivinə konkretlik gətirib. Aprel döyüşlərində Ermənistanın xahişi ilə əldə olunan atəşkəsdən isə 3 aydan çox vaxt keçir...**



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 151 (6472) 14 iyul 2016



# Zaqatala qalası nə vaxt bərpa olunacaq?

## Mədəniyyət və Turizm Nazirliyinin nümayəndəsi Arif Əliyev: "O qala bizim bir çox abidələrimizdən qat-qat yaxşı vəziyyətdədir"

**Zaqatala rayonunun ərazisindəki qalanın və yaxınlıqdakı kilsənin acınacaqlı durumda olmasından bəhs edən reportajımız qəzetimizin ötən saylarından birində dərc olunmuşdu. Qeyd edək ki, bu qala 1803-cü ildə Çar Rusiyasının əlinə keçməsindən 1 il sonra tikintisinə başlanıb və 11 hektarlıq ərazini əhatə edən bu nəhəng layihə 1830-cu ildə başa çatıb.**

Şamil hərəkatı dövründə və Zaqatala üsyanının yatırılması vaxtı bu qala rus ordusunun düşərgəsi və başlıca hərbi məntəqəsinə çevrilib. Təqribən 1 əsr sonra - 1905-1907-ci il Rusiya inqilabı zamanı "Potyomkin" gəmisində üsyan edən 400 matrosun cəza çəkmək üçün göndərildiyi yer də Zaqatala qalası olub. Xatırladaq ki, Azərbaycan filmi olan "Yenilməz batalyon"da bu qalada saxlanılan matrosların taleyindən geniş bəhs olunur. Azərbaycanın gözəl məkanlarından birində yerləşən, tarixi və memarlıq baxımdan əhəmiyyətli ünvan olan bu qalanın və yanındakı kilsənin baxımsız vəziyyətdə olması tarixçiləri də narahat edir.

AMEA Tarix İnstitutunun direktoru, professor Yaqub Mahmudov "Yeni Müsavat"a bildirdi ki, Şimal-Qərbi Azərbaycanın tarixinin dərindən öyrənilməsini vacib məsələlərdən biri sayır: "19-cu əsrin ikinci yarısında bu bölgədə kütləvi şəkildə xristian-provaslav kilsələri tikilib. Hansı ki, bizim bədxah qonşularımız bu kilsələrin guya eramızın əvvəllərində tikilən gürcü kilsələri olduğunu iddia edirlər. Ancaq bizim əlimizdə son dərəcədə qiymətli arxiv sənədləri var, bunlar haması XIX əsrdə Çar Rusiyasının həyata keçirdiyi siyasətin nəticəsidir".

Tarixçi alim bildirdi ki, Zaqatala qalası da bizim o bölgəni Rusiyanın əlində saxlamaq üçün tikilmişdi: "Məhbusları da Rusiyanın etibarlı yeri kimi gətirib bu qalada saxlamışdılar. Amma zaman keçdi, Azərbaycan hakimləri o qalanı ələ keçirdi və qala Çar Rusiyasına qarşı müqavimət mərkəzlərindən biri oldu. Bu qalanın tarixində oynadığı digər mühüm rol da var. Rus işğalına qarşı mübarizə aparan Göynük hərəkatının, ümumiyyətlə, qaçaqların sığındığı yer də həmin o Zaqatala qalası idi. Bizim əfsanəvi xalq qəhrəmanımız, Göynükdən çıxmış Cavad oğlu Məhəmməd də yaxın silahdaşları ilə həmin Zaqatala qalasında mühakimə olundu, Sibirə sürgün edildi. Qaçıb gələndən sonra yenə də o hərəkata başçılıq etdi".



**Yaqub Mahmudov: "Bu qalalar göz bəbəyi kimi qorunmalı, təmir edilməlidir"**

**Y.Mahmudov əlavə etdi ki, Azərbaycan xalqının şərəfli tarixinin bir parçasına işıq saçan bu qalalar göz bəbəyi kimi qorunmalı, təmir olunmalıdır:** "Zaman - zaman şimaldan gələn qüvvələr orada talançılıq əməllərini həyata keçiriblər. Biz həm tariximizi, maddi abidələrimizi qorumalıyıq, həm də orada daimi fəaliyyət göstərən arxeoloji ekspedisiya işləməlidir, o ərazilər qədim Azərbaycan-türk-alban mədəniyyətinin mərkəzlərindən biridir, bu, araşdırılmalıdır. Bütün KİV-də bu bölgənin tarixi düzgün təqdim olunmalıdır, bu ərazilərin türkün tarixinin bir parçası olduğu göstərilməlidir, o cümlədən də Zaqatala qalasının. Həmçinin Zaqatala qalası əsaslı şəkildə bərpa olunmalıdır və qorunmalıdır. Həmçinin Car kəndində, ondan şimaldakı döyüş yerlərində, həmçinin cənuba doğru uzanan düzənghlarda qazıntı işləri aparılmalıdır. Bu ərazilərdə tarix yatır. Hələ eramızın 3-cü əsrində Balakəndən başlayaraq - indi Katex kəndinin üstündən keçir - Şəkinin dağlarına qədər böyük bir sədd çəkilib, şimaldan hücumların qarşısını almaqdan ötrü. Bütün bu ərazilərdə qazıntılar aparılmalıdır".

Mədəniyyət və Turizm Nazirliyinin nümayəndəsi Arif Əliyev də məsələyə münasibətini açıqladı. "Yeni Müsavat"a açıqlamasında nazirlik rəsmisi bunları bildirdi: "Nazirlər Kabinetinin 2 avqust 2001-ci il 132 saylı qərarı ilə Azərbaycan Respublikası ərazisində 6308 abidə dövlət qeydiyyatına götürülüb. 1700-dən artıq da yeni aşkar olunmuş abidələrimiz var. Təmirə ehtiyac olan abidələrlə bağlı isə dəqiq say deyə bilmərəm. Bu, abidələrin hamısını birdən-birə bərpa etməyə imkan vermir. Siz deyirsiniz ki, bu abidələrin təmirə ehtiyacı var. Amma mənim fikrim budur ki, onlardan da texniki vəziyyəti daha pis olan abidələr var ki, bu gün onları bərpa etməyə vəsait çatmır. Biz il ərzində ən yaxşı halda 3-5, yaxud 10 dənə abidəni bərpa edə bilirik. Nazirlik abidələrin bərpa siyahısını hazırlayıb və vəsait imkan verdiyi qədər bu abidələri bərpa edir. Siz dediyiniz qala da bizim bir çox abidələrimizdən qat-qat yaxı vəziyyətdədir. Mən özüm ay yarım bundan əvvəl orda olmuşam".

Gördüklərimizə və fotolarını çəkib yaymağımıza rəğmən, A.Əliyev kilsənin acınacaqlı duruma olması ilə də razılaşmadı: "Düzdür, kilsənin özü istifadə olunmur, qapıları, pəncərələri sınıqdır. Biz orda olduq, tapşırdıq, pəncərələrinə dəmir "setka"lar qoyuldu ki, kənar adamlar daxil olmasın, dağıdılmasının qarşısı alınsın, nəzarət gücləndirilsin. Ancaq reallıq budur ki, respublika ərazisində olan abidələrin bərpası bizim imkanımız xaricindədir. Mən bu gün sizə deyə bilmərəm ki, o kilsə 3-5 aydan, ya 1 ildən sonra bərpa olunacaq".

Qeyd edək ki, kilsənin tarixi ilə bağlı da ziddiyyətlər var. Məsələn, abidənin üzərindəki lövhədə onun IV-V əsr alban tarixinə aid olduğu barədə məlumat əksini tapıb. Ancaq tarixçilər bunu XIX əsrə aid edir. A.Əliyev də kilsənin alban abidəsi olduğunu düşünmür: "Düzdür, orada lövhə elə yazılıb. Ancaq mən onun xristian Albaniyası dövrünə aid olduğuna inanmıram. Hesab edirəm ki, o, provaslav kilsəsinə aiddir. Hər halda alimlər bunu daha dəqiq deyə bilər".

❑ **E.PAŞASOY**

# "Qardaşım özünü pəncərədən atmayıb, 17 dəqiqə qışqırıb kömək istəyib"

## Binəqədidəki yanan binada dünyasını dəyişən şəxsin bacısı danışdı; Günay İsayeva: "Yaşarın qaldığı mənzil 1 otaqlı olduğuna görə onun başqaları kimi digər otaqlara keçmək imkanı olmayıb"

**Ötən sayımızda Binəqədidəki çoxmərtəbəli binanın yanması zamanı dünyasını dəyişənlərdən biri - Yaşar Nəcəfzadə haqda yaranmış sualları qeyd etmişdik. Y.Nəcəfzadənin yanan binadan çıxmaq imkanları, bina sakini Bilal adlı şəxslə yanğın zamanı pilləkənlərdə rastlaşması, sonradan geri qayıtmasını diqqətə çatdırmışdıq. Gənc bir idmançının bu hərəkətlərinin yaratdığı suallar da yazıda yer almışdı.**

Yazı dərc olunandan sonra redaksiyamızla əlaqə saxlayan mərhum Y.Nəcəfzadənin bacısı Günay İsayeva vəziyyəti aydınlaşdıran açıqlama verib. Deyib ki, qardaşı əslində yanan binadan çıxmağa cəhd göstərib: "Qardaşım həmin mənzili 1 il 1 ay əvvəl kirayələmişdi. Ona qədər çalışdığı "Favorit" marketin yaxınlığında dostu ilə birgə orada qalırdı. Həmin mənzilə görə 400 manat kirayə haqqı ödəyirdilər. Dostu mənzildən çıxdı, ona görə də Yaşar 400 manatı tək ödəyə bilmədi. Bundan sonra anamgil gedib həmin yanan binadakı mənzili tapmışdılar".

**G.İsayeva deyib ki, həmin mənzilə görə Y.Nəcəfzadə ayda 280 manat kirayə haqqı ödəyib:** "1 otaqlı olsa da, şəraiti çox yaxşı idi. Qardaşım Texniki Universiteti bitirmişdi, 2 xarici dil bilirdi. "Favorit" marketlər şəbəkəsində adminstrator işləyirdi. Yaşarın kirayələdiyi mənzilin altındakı və üstündəki bütün mənzillər 3 otaqlı olub. Yaşarın kirayədə yaşadığı mənzil



də əvvəllər 3 otaqlı olub. Sonradan evi iki yerə bölüblər və 1 otağını satıblar. Alan şəxs də həmin 1 otaqlıda pəncərə olmadığına görə divarda 1 pəncərə açdırıb, mənzili təmir edərək kirayə verib. Yanğın zamanı digər bina sakinləri yanan otaqdan digərlərinə keçməklə xilas ola biliblər. Yaşarın qaldığı mənzil 1 otaqlı olduğuna görə onun başqaları kimi digər otaqlara keçmək imkanı olmayıb".

**G.İsayeva deyir ki, binanın yan hissəsində yalnız qardaşının kirayə yaşadığı mənzildə pəncərə olub:** "O binada Yaşarın kirayələdiyi mənzildən başqa digər mənzillərin binanın həmin hissəsinə pəncərəsi yoxdur. Yaşar yanğın zamanı binanın üzlüyünə vurulmuş poliuretanın bərkidildiyi konstruksiyalarla aşağı düşməyə çalışıb. Görüb ki, mümkün deyil, dama çıxmağa çalışıb. Orada da bağlı olub, buna görə də mənzilə qayıtmağa məcbur olub".

**Mərhum Yaşar Nəcəfzadənin bacısı deyir ki, qardaşının bina sakini Bilal Rəsulovla pilləkənlərdə rastlaşdığını təsdiqləyir, onun mənzilə geri qayıtmasının səbəbini də izah edib:** "Qardaşım binanın 14-cü mərtəbədə yaşayıb. Onun yanğın zamanı binanın 15-ci mərtəbəsində rastlaşdığı Bilal Rəsulov da 14-cü mərtəbədə yerləşən 3 otaqlı mənzildə yaşayır. Bilal Rəsulovla qardaşım 14-cü mərtəbədə üzbəüz mənzillərdə yaşayıblar. Bilal Rəsulovla yanğın zamanı 15-ci mərtəbədə qarşılaşanda o, qardaşıma deyib ki, gəl yuxarı, dama qalxaq. Qardaşım da deyib ki, yuxarıdan düşürəm, "krışa" bağlıdır. Yaşar Bilaldan soruşub ki, hara gedək. Bilal Rəsulov da deyib ki, onda aşağı düşək. Aşağı bir neçə mərtəbə düşüblər, görüblər ki, tüstüdür, boğulurlar, məcbur olub geri dönüb hərə özü evinə gedib. Yaşarın kirayə qaldığı mənzil 1 otaqlı olduğundan çıxış yolu tapmayıb pəncərəyə çıxıb. Bilal Rəsulovun qaldığı mənzil isə 3 otaqlıdır. O, yanan otaqdan yanmayan otağa keçdiyinə görə sağ qalıb. Bilal Rəsulov tüstüdən boğulub, onu fövqəladənin işçisi xilas edib".

**G.İsayeva qardaşının özünü atması haqda məlumatların doğru olmadığını bildirib:** "Yaşar özünü atmayıb, o, pəncərədə 17 dəqiqəyə yaxın qışqıraraq kömək istəyib. Sonradan isə tüstüdən boğularaq huşsuz vəziyyətdə əli boşalıb və oradan yerə yıxılıb".

**Qeyd edək ki, ötən il mayın 19-da Binəqədi rayonunda yerləşən 16 mərtəbəli binada 15 nəfərin ölümü, 56 nəfərin yaralanması ilə nəticələnmiş yanğın baş verib. İlk gündən yanğının qəsdən törədilməsi haqda iddialar var. Hazırda iş üzrə Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən məhkəmədə üzə çıxanlar - təqsirləndirilənlərin fikirləri, zərərçəkənlərin məhkəmə binası önündə jurnalistlərə söylədikləri - binanın qəsdən yandırılması versiyasını gücləndirir. Təqsirləndirilən şəxslər ittihamı qəbul etmir, zərərçəkənlər isə onların suçlu olmalarına inanmadıqlarını söyləyirlər.**

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 151 (6472) 14 iyul 2016

# Banklarla əlbir olan kollektorların "quldurluğu"...

**Ölkədə banklarla bağlı geri qaytarılmayan kredit və borc problemi həll edilmədikcə, kollektorlarla bağlı yeni nüanslar ortaya çıxır. Bildirilir ki, kollektorlar banklarla əlbir olaraq kreditini geri qaytara bilməyən vətəndaşa hədə-qorxu gəlir və pulu tələb edirlər. Ölkədə kollektorların fəaliyyəti qanunla tənzimlənməsə də, vətəndaşa qarşı təzyiq və təhdidlərlə məşğul olan bu qurumlar hər hansı məsuliyyətə də cəlb olunmurlar. Əslində isə onların ölkədə fəaliyyəti qanunsuzdur.**

## Ölkədə kollektorların fəaliyyəti qanunla tənzimlənmir, qanunsuz işlə məşğul olan qurumları kim himayə edir?



Əkrəm Həsənov

**Ölkədə yaradılan ilk antikollektorun rəhbəri Əkrəm Həsənov məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, bizdə kollektorların fəaliyyəti prinsipcə qanunsuzdur**: "Çünki banklar problemli borc işini kollektor qurumuna verəndə bank sirrini pozmuş olur. Həm banklar haqqında qanuna görə, həm də Mülki Məcəlləyə görə, bankla olan istənilən əməliyyat haqqında kredit haqqında məlumatı yalnız müştərinin özünə vermək olar, bir də müəyyən dövlət orqanlarına. Kollektor da elə qurum deyil, heç birinə aid deyil. Bank məlumatı verə bilməz ki, kollektor gedib o işlə, borcu geri qaytarmaqla məşğul olsun, məlumat onlara verilə bilməz. İlk növbədə burada bank sirri pozulur. Yeni Azərbaycanda belədir. Digər ölkələrdə icazə verilir ki, kollektora həmin məlumatlar verilsin. Amma həmin ölkələrdə də kollektorların fəaliyyəti qanunla tənzimlənir. Bizdə isə tənzimlənmir. Digər tərəfdən, xaricdə hər kəs kollektor işi ilə məşğul ola bilməz. Qanun onlarda məsələləri tənzimləyir. İlk növbədə deyir ki, kobud desək, hər yoldan keçən kollektor ola bilməz. Birinci növbədə onun özünün pulu olmalıdır. Müəyyən nizamnamə kapitalı olmalıdır ki, bilinsin, bu insanlar ciddi insanlardır, quldurlar, banditlər deyil. İkinci məsələ odur ki, kollektorların təhsilinə, təcrübəsinə qanun müəyyən tələblər qoyur, qanunda müəyyən məhdudiyyətlər olur. Hansısa cinayətə görə məhkum olunmuş şəxs kollektor işləyə bilməz. Yəni bütün bu məhdudiyyətlərə cavab verən şəxslər xaricdə kollektor ola bilərlər. Xaricdə qanunlar tənzimləyir ki, kollektor hansı yolla, hansı üsullarla hansı vətəndaşları borcu tələb edə bilər, gün ərzində vətəndaşa neçə dəfə zəng edə bilər, necə danışmalıdır və sair. Vətəndaşa da ixtiyar verilir ki, kollektorla olan görüşünü videoya çəkə bilsin və sair. Qanun bunların hamısını tamamilə tənzimləyir, bizdə bunların heç biri yoxdur. Azərbaycanda kollektorun nizamnamə kapitalı yüz manatdır, yəni pulları yoxdur. İlk gündən ona istiqamətləniblər ki, camaatın pulunu əllərindən alsınlar. Sonra bu şirkətlərdə kimlər işləyir, bizə məlum deyil. İstədikləri vaxt vətəndaşlara zəng edirlər, söyürlər, qorxudurlar, evinə gedirlər, döyürlər, saxlayırlar. Təəssüf ki, Azərbaycanda qanunvericilik kollektorların fəaliyyətini hələlik tənzimləmir. Bu qanunsuzluqlar da davam edir".

**Əkrəm Həsənovun sözlərinə görə, əgər vətəndaşın gəliri yoxdursa, o borcunu ödəyə bilmirsə, bu, onun təqsiri deyil. Onun sözlərinə görə, Azərbaycan qanunvericiliyinə görə, şəxsə cəza yalnız o təqsirli olarsa, verilə bilər. Onun sözlərinə görə, bu tipli işlə bağlı bir neçə gün əvvəl Avropa İnsan Haqları məhkəməsinə müraciət edib. Onun sözlərinə görə, borca görə həbs olunma Azərbaycan qanunlarından əlavə Avropa İnsan Hüquqları Konvensiyasına ziddir:** "Avropa Məhkəməsi fəaliyyəti boyunca yüz minlərlə qərarlar çıxarıb, amma borca görə həbsə dair Avropa Məhkəməsinin bir dənə də qərarı yoxdur. Bu, o deməkdir ki, Azərbaycan yeganə Avropa ölkəsidir ki, borca görə həbs baş verib. Bu, biabırçılıqdır".

**Ekspertin sözlərinə görə, kredit borcuna görə həbslər davam edərsə, nəticələr pis ola bilər:** "İntiharların sayı arta bilər. İnsanların psixoloji durumları pisləşəcək və cəmiyyətdə sosial gərginlik artacaq. Həm də bu, Azərbaycanın beynəlxalq imicinə zərbədir".

**Qeyd edək ki, ölkədə kollektorlardan biri bir müddət əvvəl vətəndaşdan böyrəyini satmağı istəmişdi. Bu baxımdan kollektor fəaliyyətinin tənzimlənməsi ortaya ciddi məsələ kimi çıxır. Ə.Həsənovun sözlərinə görə, ölkədə kollektorlar borcluların başına min oyun açır və bütün bunlar cəzasız qalır**: "Kollektorların fəaliyyətini tənzimləyən qanuna ehtiyac var. Yəni vətəndaş tanımadığı üçüncü şəxslə - kollektorla əlaqə saxlamağa, təmasda olmağa məcbur edilir. Buna görə də qanun kollektorların fəaliyyətini tənzimləməlidir".

**Ekspertin sözlərinə görə, kollektorla yanaşı, vətəndaşın müflisləşməsi barədə də qanunun qəbuluna ehtiyac var**: "Rusiyada, aparıcı ölkələrdə olduğu kimi, belə qanun da var. Yəni borcunu ödəyə bilməyən vətəndaş özünü müflis elan edir və ondan artıq heç kəs borcu tələb edə bilməz. Əvəzində ona bəlli vəzifə tutmaq və bəlli fəaliyyətlə məşğul olmaq müəyyən dövr ərzində qadağan edilir. Üstəlik, bu adamın adı da müflislər siyahısına daxil edilir ki, hami borc verəndə ehtiyatlı davransın. Bizdə də bu qanuna ehtiyac var".

❑ **Röya RƏFİYEVA**

# "Şakro kürd"ə azərbaycanlı Fatimə "işi" - "qanuni oğru"nun həbsinin əsl səbəbi

## Zaxari Kalaşovun işi ilə bağlı bir neçə nəfər hüquq-mühafizə orqanın əməkdaşı da qandallandı; onu Rusiyanın ən yüksək gəlirli vəkillərindən biri Aleksandr Qofşteyn müdafiə edəcək





**Rusiya kriminal aləminin "marşalı" hesab olunan Zaxari Kalaşovun ("Şakro Molodoy") həbsi gözlənildiyi kimi geniş rezonans doğurub. Rusiyanın bütün tirajlı elektron KİV-ləri, o cümlədən "Rossiya-24" və digər telekanallar bu mövzuya geniş yer verib. Bu diqqət isə "Şakro kürd" kimi də tanınan "qanuni oğru"nun tutulmasının daha ciddi səbəbləri olduğuna işarədir. Əlbəttə, ortada cinayət işi və iki ölü var. Amma ötən ilin dekabrında baş vermiş cinayət hadisəsinə görə "kriminal marşalın" aylar sonra həbsə alınması haqlı suallar doğurur. "Şakro" kimi kriminalların bir barmağının işarəsi ilə yüzlərlə qeyri-leqal dəstələr hərəkətə keçir, adamlar vurulur, həbsxanalarda "razborkalar"a son qoyulur və ya əksinə. Bu cür miqyaslı kriminal dairələrdə hər gün milyonlarla dollar dövr edir.**

İyulun 13-də Tver Rayon Məhkəməsi "Şakro" haqda həbs qərarı verib. "Qanuni oğru"nu Rusiyanın ən yüksək gəlirli vəkillərindən biri Aleksandr Qofşteyn müdafiə edir. O, qərardan şikayət verəcəyini deyib.

"Şakro"nun həbsi ilə bağlı xəbərlərdə daha bir diqqətçəkən məqam var. Məsələn, "Kommersant" onun həbsi ilə bağlı xəbərə "Şakro" gücünü hesablaya bilmədi" sərlövhəsi verib. Bu mesaj həm də o deməkdir ki, "kriminal marşal" haradasa ciddi səhvə yol verib, kimlərinsə yoluna çıxıb, kimlərəsə qarşı yanlış hərəkəti olub. 7 ay sonra onun Moskva ətrafındakı bağ evinə basqın təşkil edilməsi, silah və qumbara tapılması, 20-dək adamının həbsi, o cümlədən bunların hamısının çəkilib mərkəzi telekanallarda yayılması da belə düşünməyə əsas verir.

Bu barədə bundan əvvəlki yazımızda da qeyd etmişdik ki, "Şakro" iki il əvvəl onu İspaniyadan gətirən təyyarənin trapından düşən kimi Rusiya Daxili İşlər Nazirliyinə aparıblar. Bu xəbəri də mediada tirajlanıb. Məlumata görə, nazirlikdə "qanuni oğru" ilə nazir müavini səviyyəsində söhbət aparılıb. Ona bu səviyyədə marağın səbəbi barədə bəzi iddialar vardı. Əsas səbəb Aslan Usoyanın ("Ded Xasan") ölümündən sonra Rusiya kriminalında yeni düzənin yaradılması ilə bağlı idi ki, bu məsələdə "Şakro" ciddi rol oynaya bilərdi. O, "Ded Xasan"ın varisi kimi tanınırdı və yeni müharibələrə həvəsli qruplaşmaların "ağzını bir yerə" yığa bilərdi. "Şakro" bu işdə bəzi qaydalar yarada bildi və kriminal aləmdə müharibələr səngidi. Amma son vaxtlar yenidən Rusiyanın bir sıra böyük şəhərlərində bazarlar və iri ticarət mərkəzlərinə nəzarət uğrunda savaşın başlandığı barədə xəbərlər yayılmaqdadır. Bu məsələdə də "Şakro"nun adı iri biznesmenlərlə hətta işbirliyində hallanırdı. Belə görünür ki, "Şakro"nun 7 ay əvvəlki işə görə həbsi sadəcə, bəhanə ola bilər. Həm də qadına "pul cəzası" kəsmək, qadının borcuna görə silahlı münaqişə yaratmaq "Şakro" kimi avtoritetin nüfuzuna ciddi zərbədir.

Məlumata görə, "Elements" restoranının sahibəsi Janna Kim hadisədən dərhal sonra ondan zorla pul tələb edilməsi ilə bağlı şikayət ərizəsi verib. Bu iş üzrə də "Şakro"nun adı əvvəl gündən keçib. Məlumdur ki, hadisə azərbaycanlı olduğu deyilən dizayner Fatimə Misikova arasındakı borca görə baş verib. Belə ki, Janna Fatiməyə "Elements" restoranın yenidən dizayn edilməsini sifariş verib. Amma görülən iş onu qane etməyib. Görülən işə görə 600 min avro ödəyən biznesmen xanım azərbaycanlı dizaynerlə əlaqələrini kəsib. Fatimə isə öz növbəsində çoxdan tanıdığı "Şakro"ya müraciət edərək restoran sahibəsinin 9 milyon rubl borclu qaldığını iddia edib. Janna Kimin restoranına "Şakro"nun "italiyalı" ləqəbli adamı Andrey Koçuykovun silahlı dəstə ilə gedərək qarşı tərəflə "razborka"ya çıxıb.

Keçmiş OMON-çulardan ibarət restoranın mühafizə xidməti işə qarışdıqda baş vermiş mübahisə atışma ilə nəticələnib. Hadisə nəticəsində iki nəfər ölüb, 8 nəfər isə yaralanıb. Daha bir maraqlı fakt. Bildirilir ki, iki nəfərin ölümü ilə nəticələnən hadisədən sonra Fatimə öz ölümünü səhnələşdirib-yaxınları güclü yanmış qadın cəsədini tanıyıblar. Bu müddət ərzində ölkə xaricində olan dizayner baş verən dekabr hadisələri ilə əlaqəsi olmamaqda Kimi inandırmağa çalışıb. Hər halda istintaqda əsas fiqurantı hazırda ortada yoxdur.

"Şakro"ya qarşı qəzəbin hadisəyə görə tutulan "İtaliyalı" ləqəbli avtoritetin azad olması da göstərilir. Belə ki, onun azadlığa çıxmasını Federal Təhlükəsizlik Xidmətinin əməkdaşları və Daxili İşlər Nazirliyinin bəzi tədqiqatçıları özlərinə təhqir kimi qəbul ediblər. "Şakro"nun onun azadlığa çıxması üçün 1 milyon dollar verməyə hazır olduğu barədə məlumatlar var idi",- deyə Rusiya KİV-ləri yazır. Yeri gəlmişkən, "Şakro"nun işi ilə bağlı bir neçə nəfər hüquq-mühafizə orqanın əməkdaşı da həbs edilib. "Kommersant" qəzetinin 13 iyul sayının məlumatına görə, cinayət axtarış şöbəsinin əməliyyatçısı İldar Şakirov, sahə müvəkkili Rinat Zinatullin hələ yanvar ayında bu iş üzrə həbs ediliblər. Onlar "Şakro"nun əməllərini ört-basdır etməkdə günahlandırılır. Bir neçə gün əvvəl isə "qanuni oğru" ilə əlaqələrinə görə yüksək rütbəli zabit Yevgeni Çijikov həbsə alınıb. O, məhz "Şakro"nun və ətrafının nəzarətdə saxlanması üçün görəvli olsa da, restorandakı məlum "razborka"nın qarşısını almayıb.

**Aydındır ki, bu faktlar hamısı "Şakro" barədə mümkün cinayət işinə "tikiləcək". Onun həbsinin pərdəarxası məqamları yaqin ki, yaxın günlərdə üzə çıxacaq.**

❑ **"Yeni Müsavat"**

# Dələduzluq edən "deputatın qardaşı qızı"nın məhkəməsi başladı

**Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən Nigar Rafiq qızı Əhmədovanın məhkəmə prosesi başlayıb.**



APA-nın məlumatına görə, hakim Ramella Allahverdiyevanın sədrliyi ilə keçirilən prosesdə zərərçəkmiş şəxs ifadə verib.

Zərərçəkmiş Rüfət Əliyev bildirib ki, ötən il N.Əhmədova deputat Vahid Əhmədovun qardaşı qızı olduğunu bildirirərək, onu "Kapital Bank"a filial müdiri vəzifəsinə düzəldəcəyini deyib, 32 500 ABŞ dollarını alıb: "Ancaq məni hələ də heç bir işə düzəltməyib. Dəfələrlə özü ilə görüşüb, pulumu istəsəm də, qaytarmaqdan imtina edib. Mənim tələbim odur ki, 32 500 dollarımı qaytarsın".

N.Əhmədova isə özünü qismən təqsirli bilib. O deyib ki, pulu bir neçə il öncə işə düzəltmək adı ilə yox, borc alıb: "Həmin borc 2008-ci ildən olub. Mən özüm heç yerdə işləmirəm, onu necə işə düzəldə bilərəm? Bunlar hamısı yalandır".

**N.Əhmədovanın qohumu Pünhan Əliyev də çıxışında bildirib ki, Rüfət ona zəng edərək, qohumunun ona borclu olduğunu deyib, görüşərək birlikdə N.Əhmədovanın yaşadığını ünvana getmək istədiyini qeyd edib**: "Biz birlikdə Nigarın evinə getdik. Onlar bir saata yaxın mübahisə etdilər. Sonra Rüfət Nigardan ona borclu olması haqqında yazılı izahat aldı, izahatda qeyd olunurdu ki, pul 3 ay ərzində ödənəcək. İzahata mən də imza atdım. Üç aydan sonra Rüfət mənə zəng edərək, pulu ödəməyəcəyimiz təqdirdə, polisə müraciət edəcəyini dedi. Daha sonra məni polisə çağırdılar".

Hakim R.Allahverdiyeva N.Əhmədovanın 2009-cu ildə də məhkum olunduğunu bildirib, məhkum olunmuş şəxsə etibar edərək pul verməsini zərərçəkənə irad tutub.

Proses iyulun 20-də davam etdiriləcək.

Deputat V.Əhmədov isə APA-ya açıqlamasında bu adda qardaşı qızının olmadığını bildirib.

**Qeyd edək ki, N.Əhmədovanın qardaşı Namiq Əhmədovun da adı bir müddət əvvəl dələduzluqda hallanıb. Həmin vaxt N.Əhmədov da mətbuatda deputat Vahid Əhmədovun qardaşı oğlu kimi təqdim olunub.**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


## Gəncədə maskalı quldur ev sahibini döyüb öldürdü

**Gəncədə evə basqın edən şəxs ev sahibini öldürüb. ANS-ə verilən məlumata görə, hadisə dünən gecə saatlarında şəhərin Dədə Qorqud küçəsi ev 19, mənzil 46 ünvanında qeydə alınıb.**

Şəxsiyyəti hələlik istintaqla müəyyən edilməyən maskalı şəxs 1947-ci il təvəllüdlü Sabir Vəli oğlu Bayramovun evinə girərək ondan pul və qızıl-zinət əşyaları tələb edib. Ev sahibindən heç nə ala bilməyəcəyini görən maskalı S.Bayramovu döyərək öldürüb, həyat yoldaşı 1947-ci il təvəllüdlü Gülnaz Məmmədovaya da ağır bədən xəsarətləri yetirib.

Qadın dərhal Gəncə şəhər Təcili Tibbi Yardım Xəstəxanasına çatdırılıb.

Faktla bağlı Gəncə Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (Qəsdən adam öldürmə, yəni digər şəxsi qəsdən həyatdan məhrum etmə) maddəsi ilə cinayət işi açılıb, araşdırmalar davam etdirilir.

Döyülən 69 yaşlı qadın ərinin öldüyünü eşitdikdən sonra xəsarətləri ağır olsa da, xəstəxanada qalmayıb.

## Bakıda orta məktəbdə silah-sursat tapıldı

**Paytaxtda orta məktəbdə silah-sursat aşkarlanıb. Daxili İşlər Nazirliyinin saytında bildirilir ki, iyulun 12-də Xətai rayonundakı 261 saylı məktəbin direktoru məktəbin zirzəmisində təmir işləri aparılarkən silah və sursat tapılması barədə Xətai RPİ-nin 34-cü bölməsinə müraciət edib.**

Hadisə yerinə gəlmiş polis əməkdaşları tərəfindən oradan 1 ədəd alışqansız "F-1" qumbarası, 1 ədəd alışqanlı "RQD-5" qumbarası, 481 ədəd patron, 270 qram barıt, 1 ədəd patron darağı və 1 ədəd "Viola-M" rabitə qurğusu aşkar edilərək götürülüb.

Faktla bağlı araşdırma aparılır.

### Elan

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**

**Əlaqə telefonu: (070) 335-90-15.**

### Elan

**Çapligin Valintin Vladimiroviçə məxsus Bakı şəhəri, Xətai rayonu Cavanşir küçəsi ev 7 mənzil 6 ünvanına aid verilmiş çıxarış (kupça) itdiyi üçün etibarsız sayılır.**



## Xarici maşın sahiblərinə xəbərdarlıq - texniki baxış müddəti bitir

**Azərbaycanda xarici avtomobillərin texniki baxış müddəti başa çatmaq üzrədir. Avtosfer.az bildirir ki, qanunvericiliklə müəyyən olunan qrafikə əsasən, xarici ölkələrdə istehsal olunan minik avtomobilləri, yəni sürücülərin daha çox "inomarka" adlandırdığı nəqliyyat vasitələri 1 may-31 iyul aralığında texniki baxışa cəlb edilməlidir. Yük avtomobilləri və avtobusların texniki baxış müddəti isə 1 avqust - 31 oktyabr aralığıdır.**

Qanunvericiliyə əsasən, minik avtomobilləri və motosikletlər istehsal olunduğu vaxtdan hesablanmaqla 5-ci, 7-ci, 9-cu, 11-ci və sonrakı hər il texniki baxışdan keçirilməlidir. Bu zaman nəqliyyat vasitəsinin nə vaxt əldə edilməsinin heç bir əhəmiyyəti yoxdur.

Qeyd edək ki, texniki baxışın dövlət rüsumu avtomobillər üçün 20 manat, motosikletlər, habelə avtomobil qoşquları üçün isə 10 manat nəzərdə tutulub. Bu rüsumlar mühərrikin gücündən asılı olmayaraq bütün nəqliyyat vasitələri üçün eynidir.

Nəqliyyat vasitəsini texniki baxışa təqdim edən hər kəs aşağıdakı sənədləri təqdim etməlidir:

1) sürücülük vəsiqəsi;

2) nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi (nəqliyyat vasitəsi başqasının adına olduqda isə etibarnamə və ya icarə müqaviləsi);

3) dövlət rüsumunun ödənilməsinə dair sənəd;

4) nəqliyyat vasitəsinin sahibinin mülki məsuliyyətinin icbari sığortası müqaviləsinin Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bağlanması faktını təsdiq edən sığorta şəhadətnaməsi.

Nəzərə alın ki, nəqliyyat vasitəsini texniki baxışdan keçirmədən idarə etməyə görə fiziki şəxslər 50 manat, vəzifəli şəxslər 100 manat, hüquqi şəxslər 300 manat cərimə olunur.

## Ötən 6 ayın "yol terroru": 304 ölü, 970 yaralı

**2016-cı ilin 6 ayı ərzində respublika ərazisində 905 yol-nəqliyyat hadisəsi qeydə alınıb, nəticədə 304 nəfər həlak olub, 970 nəfər yaralanıb. Baş Dövlət Yol Polisi İdarəsinin mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə qəzaların sayı 140 fakt (13,4%), həlak olanların sayı 103 nəfər (25,3%), yaralananların sayı 147 nəfər (13,2%) azalıb.**



Bakı şəhəri ərazisində 323 yol-nəqliyyat hadisəsi qeydə alınıb, bunların nəticəsində 73 nəfər həlak olub, 342 nəfər yaralanıb. 2015-ci illə müqayisədə yol-nəqliyyat hadisələrinin, həlak olanların və yaralananların sayı uyğun olaraq 69 fakt (17,6%), 45 nəfər (38,1%), 72 nəfər (17,4 %) azalıb.


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 151 (6472) 14 iyul 2016

**"Konspiroloji nəzəriyyələrin həvəskarları üçün təzə mövzu yetişir. Britaniyada qadın baş nazir, ABŞ-da qadın prezident...Təsadüfə oxşamır. Gizli güclər nəsə planlaşdırır". Bu barədə politoloq Şahin Cəfərli yazıb və bütün diqqəti dünya siyasətində zərif cinsin yükünün artmasına yönəldib. Bununla da siyasətdəki qadın faktoru, qadın personası mövzusu yenidən aktuallıq qazanıb. "Yeni Müsavat" hazırda dünya siyasətində yer alan qadın liderlərin kimliyini və dosyesini təqdim edir.**

# Dünyaya qadın əli dəyməyə başlayır...

## Dünya ölkələrini idarə edən qadınlar və onların dosyesi...

Ondan öncə isə deyək ki, Angela Merkelin rəhbərlik etdiyi Almaniyadan sonra ingilis hökumətinin başına da qadın siyasətçinin keçəcəyi dəqiqləşib. Birləşmiş Krallıqdakı tarixi referendumdan sonra iqtidardakı Mühafizəkarlar Partiyasının liderliyindən istefa verən David Kameronun xələfi ya daxili işlər naziri Teresa May, ya da enerji naziri Andrea Leadsom olacaq.

**Bəs dünyada liderlərin cins kateqoriyası üzrə bölümü necədir?**

Ümumiyyətlə, BMT tərəfindən bütün dünyada tanınan ölkə sayı 193-dür. Bunlar arasında qadınların idarə etdiyi ölkələrin sayı isə 19-a qədər yüksəlib.

Kimlərdir bunlar və hansı ölkələri idarə edirlər?










**1. Yamaykanın baş naziri Portia Simpson-Miller**

Portia Simpson-Miller 2006-cı ildə baş nazir seçildiyi zaman ölkənin ilk qadın lideri statusunu qazanıb. Ancaq bu kresloda cəmi bir il qala bilib. Amma Miller 2011-ci ildəki seçkilərdə rahat bir qələbə qazanıb.

Miller Kingston adlı bir bölgədən böyüyüb. Britaniya monarxiyasından ayrılmağı və Yamaykanın öz prezidenti olmalı olduğunu düşünür.

**2. Kamla Persad-Bissessar, Trinidad və Tobago**

Kamla Persad-Bissessar 2010-cu ildə açıq fərqlə qalib olduğu seçkilərdən sonra ölkənin ilk qadın baş naziri olub. 2011-ci ildə keçmiş baş prokuror Bissesarın narkotik dəstələri ilə mübarizə aparmaq üçün elan etdiyi fövqəladə vəziyyətlə bağlı baş nazirə və onun kabinet üzvlərinə qarşı sui-qəsd cəhdi olduğunu iddia edib.

**3. Dilma Rousseff, Braziliya**

Bolqar bir vəkillə bir iqtisadçının qızı olan Dilma Rousseff, 2010-cu ildə Braziliyanın ilk qadın prezidenti seçildi və keçən ilk ikinci dəfə seçkidən qalib çıxdı. Eyni zamanda "dəmir ledi" olaraq da bilinən Rousseff, 1970-ci ildə üç il həbsə məhkum olub və işgəncəyə məruz qalıb. Məhkumluğuna səbəb isə Braziliyanın əsgər diktatorluğuna qarşı sol yönümlü bir yeraltı təşkilata üzv olması idi.



**4. Michelle Bachelet, Çili**

Əslində bir uşaq həkimi olan Michelle Bachelet 2013-cü ildə ikinci dəfə qatıldığı seçkidə böyük bir fərqlə qalib olub. Bachelet öz ölkəsinin lideri olaraq daha öncə 2006-2010 illəri arasında yenə vəzifə başında idi. O, bu iki dönəm arasındakı müddətdə Birləşmiş Millətlər Təşkilatlar qadın bərabərliyi qurumu olan BM Qadını idarə edib. Bachelet həyat yoldaşından boşanıb, üç uşaq anasıdır.

**5. Kristina Fernandez de Kirçner, Argentina**

Siyasətin sol qanadındakı Zəfər Partiyasından olan Kristina Fernandez de Kirchner, Argentinanın ilk seçilmiş liderididir. Daha öncə həyat yoldaşının ölümündən sonra Isabel Peron 1974-1976 illəri arasında ölkəyə liderlik edib. Kirçnerin həyat yoldaşı Nestor Kirçner də həyat yoldaşına dəstək verib. O, 2003-2007-ci illər arasında ölkəyi idarə edib və 2007-ci ildə ürək tutmasından dünyasını dəyişib.

**6. Ellen Conson Sirleaf, Liberiya**

Ellen Johnson Sirleaf da "Dəmir ledi" olaraq tanınan bir başqa qadın liderdir. 76 yaşındakı Sirleaf Afrikanın ilk seçilmiş qadın lideri olduğu zaman ölkədə 14 ildir davam edən daxili müharibə bitmişdi və illərdən 2005-ci il idi. 2011-ci ildə isə Sirleaf Nobel Sülh Mükafatını qazandı və yenidən seçildi.

Sirleaf 1980-ci illərdə əsgər rejimini tənqid etdiyi üçün həbs edilmişdi. 1997-ci ildə prezident seçkilərində Çarles Taylor tərəfindən məğlubiyyətə uğradıqdan sonra sürgünə göndərilmişdi.

**7. Ketrin Samba - Panza, Orta Afrika Cümhuriyyəti**

Ketrin Samba-Panza 2013-cü ildə paytaxt Banguinin bələdiyyə sədri təyin edilib və bundan sonra da qısa bir müddət Orta Afrika Cümhuriyyətində lider olaraq seçilib. Samba-Panza bu formada da ölkənin ilk qadın lideri oldu. Uğurlu bir iş qadını və ticarət hüquqçusu olan Samba-Panza tarixdə xüsusi yer tutur.

**8. Erna Solberg, Norveç**

Mühafizəkar Partiyası lideri olan Erna Solberg 2013-cü ildə baş nazir seçilərək Norveçin ikinci qadın lideri oldu və sağ yönümlü bir azlıq koalisiyasına rəhbərlik etdi. Kabinetinin yarısını qadınlar təşkil edir. Bundan öncə sığınma və regionun inkişafı naziri olduğu zaman həyata keçirdiyi siyasət ona "Dəmir Erna" ləqəbi olaraq "geri qayıdıb".

**9. Helle Torning-Şmidt, Danimarka**

Helle Torning-Şhmidt Danimarkada Sosial Demokrat Partiyasına 2005-ci ildə rəhbərlik etməyə başlayıb və 2011-ci ildə ölkənin ilk qadın baş naziri olub. Seçki kampaniyası zamanı şıq geyim tərzinə görə ona "Gucci Helle" deməyə başlayıblar. Torning-Şhmidt Nelson Mandela üçün təşkil olunan tədbirdə ABŞ prezidenti Barak Obama və İngiltərə baş naziri Devid Kameron ilə birgə selfi üçün poza verib və bu şəkil ciddi müzakirələrə səbəb olmuşdu.

**10. Angela Merkel, Almaniya**

Keçmiş elm adamı olan Angela Merkel 2005-ci ildə ölkəsinin ilk qadın baş naziri olub. Forbes jurnalı Merkeli 2014-cü idə "dünyanın ən güclü qadını" seçib. Ləqəbi "Mutti" və ya "Ana"dır. Bu ləqəblərdən partiyanın daxilində ona müxalif olan şəxslər istifadə edib. Amma bu ləqəblər daha sonra onun seçki kampaniyasına müsbət mənada təsir etdi.

**11. Kolinda Qrabar-Kitaroviç, Xorvatiya**

46 yaşlı Qrabar Xorvatoyanın keçmiş xarici işlər naziri və NATO-nun baş qərargah rəhbərinin asistantıdır.

**12. Marie Louise Koleiro Preca, Malta**

Marie Louise Koleiro Preca Maltanın doqquzuncu rəhbəri olaraq Corc Abelanın yerinə keçib və ölkənin ikinci qadın lideri olub. 2014-cü ildə 55 yaşında vəzifəni dövr alan Marit bu günə qədərki ən gənc dövlət başçısı sayılır.

**13. Polşanın baş naziri Eva Kopacz**

Eva Kopacz ölkəsinin məclis sözçülüyünü edən ilk və tək qadındır. 2014-cü ilin sentyabrından vəzifəni dövr alan eks uşaq həkimi Kopacz ölkənin ikinci qadın baş naziridir.

**14. Atifete Jahjaga, Kosova**

Atifete Jahjaga ölkənin ilk qadın lideri olaraq parlament tərəfndən ölkənin ilk qadın lideri olaraq parlament tərəfindən seçilib və modern Balkanların ilk qadın dövlət başçısı olub. 40 yaşındakı Jahjaga Kosova daxili işlər nazirinin eks müavini və eyni zamanda Iderliyə seçilən ən gənc insan sayılır.

**15. Şeyx Hasina Vajed, Banqladeş**

Şeyx Hasina 2014-cü ildə üçüncü dəfə baş nazir olmaq üçün and içib. Hasina Banqladeşin ilk qurucusu və ilk lideri olan Şeyx Mijibur Rahmanın qızıdır.. Rahman 1975-ci ildə sui qəsdlə öldürüldüyü zaman Hasina sürgünə göndərildi. Amma 1996-cı ildəki seçkilərdə qalib gələrək baş nazir oldu. Hasina bir sui-qəsd cəhdindən də qurtulub.

**16. Park Geun-Hye Cənubi Koreyanın prezidenti**

2013-cü ildə Park Geun-hye Cənub Şərqi Asiyanın müasir tarixində ilk qadın president olaraq and içib. Geun-hyenin atası, ölkənin 1974-cü ildəki lideri Park Chung-heeni hədəfləyən, amma onun əvəzinə anasının vurularaq öldürüldüyü bir sui-qəsddən sonra Geun-hye, anasının birinci ledi vəzifələrini öz üzərinə götürüb. Həmin vaxt o, sadəcə 22 yaşında idi. Geun-Hyenin atası Chung-hee son nəticədə yenə də bir sui-qəsdə qurban gedib.

**Siyahıya bir daha diqqət edək və dosyesini nəzərə çatdırmadıqlarımızı da yaddan çıxarmayaq:**

*Argentina prezidenti kristina Fernandez Kirçner*

*Banqladeşin baş naziri Şeyxi Hasina*

*Braziliya prezidenti Dilam Rouseff*

*Mərkəzi Afrika Respublikası prezidenti Katrina Samba Panza*

*Çilinin baş nazir Bixelle Maxlet*

*Xorvatiya prezidenti Kolinda Qrabar-Kitarovic*

*Almaniya Kansleri Angela Merkel*

*Latviyanın baş naziri Laimdota Straujuma*

*Liberiya prezidenti Ellen Johnson-Sirleaf*

*Litvanın baş naziri Dalia Grybauskaite*

*Maltanın baş naziri Marie Louise Koleiro Preca*

*Morityus Respublikasının prezidenti Ameenah Gurib*

*Norveçin baş nazir Erna Solberq*

*Polşanın baş nazirinin Eva Kopacz*

*Park Geun-Hye Cənubi Koreyanın prezidenti*

*İsveçrənin baş naziri Simonetta Sommaruga.*

**Şahin Cəfərli: "Siyasətdə qadın-kişi bərabərsizliyi aradan qalxıb"**

**Politoloq Şahin Cəfərli** isə ümumiyyətlə, komplo teorilərinə inanmadığını dedi. O, bu məsələləri kiminsə "düzüb-qoşduğu" barədə konspiroloji fikirlərə qatılmır: "Sadəcə, Qərbdə gender probleminin çoxdan həllini tapıb, siyasətdə qadın-kişi bərabərsizliyi aradan qalxıb. Klinton seçilərsə, gələn il keçiriləcək G-7 toplantısında masada 3 qadın olacaq. Dünyaya qadın əlinin dəyməsi heç də beynəlxalq münasibətlərdə yumşalmanın olacağı mənasına gəlməz. Məsələn, 1982-ci ildə Tetçer Britaniya və Argentina arasındakı Folklend problemini güc yolu ilə həll etmişdi. Tereza Mey də artıq sərt xarakterinə görə 2-ci "Dəmir ledi" adlandırılır. Hillari Klinton da xarici siyasət problemlərinin həllində, məsələn, Ukrayna məsələsində Rusiyaya qarşı sərt xəttin tərəfdarıdır".

**❑ Sevinc TELMANQIZI**

## DİN və Baş Prokurorluq valideynlərə çağırış etdi

**Daxili İşlər Nazirliyi və Baş Prokurorluq ölkədə azyaşlıların ehtiyatsızlıq səbəbindən ölüm hadisələrinin artması ilə bağlı məlumat yayıb. Məlumatda bildirilir ki, son vaxtlar bəzi valideynlərin diqqətsizliyi və səhlənkarlığı səbəbindən azyaşlı övladlarının nəzarətsiz olmaları nəticəsində yaşadıqları mənzillərin eyvan və pəncərələrindən yıxılaraq vəfat etmələri hadisələrinin sayının artması ictimaiyyəti ciddi narahat edir:**

"Belə ki, mayın 12-də paytaxtın Nizami rayonunda 3 yaşlı İsa Vəliyevin, mayın 28-də 3 yaşlı Jalə İbrahimovanın, iyunun 28-də Binəqədi rayonunda 2 yaşlı İmran Quliyevin, iyulun 3-də 5 yaşlı Nadir Xəlilovun və iyulun 10-da Pirallahı rayonunda 2 yaşlı Arzu Abışzadənin yaşadıqları çoxmərtəbəli mənzillərin eyvan və pəncərələrindən yıxılaraq vəfat etmələri faktları qeydə alınıb. Aidiyyəti rayon prokurorluğu və polis orqanları əməkdaşları tərəfindən hadisə yerlərinə və meyitlərə baxış keçirilmiş, məhkəmə-tibbi ekspertizaları təyin edilmiş və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Qeyd olunan faktlar üzrə müvafiq rayon prokurorluqlarında Cinayət Məcəlləsinin 124.1-ci (ehtiyatsızlıqdan adam öldürmə) maddəsi ilə cinayət işləri başlanıb və istintaq aparılır.

Ailələrin faciəsinə səbəb olan belə bədbəxt hadisələrin təkrarlanmaması üçün valideynlərə xüsusən azyaşlı övladlarına qarşı daha diqqətli və məsuliyyətli olmalarını tövsiyə edirik".

YENİ MÜSAVAT

Son səhifə

N 151 (6472) 14 iyul 2016



## İti sayəsində meyvə-tərəvəzini reklam edir

**Tayvandda yaşayan Syao Pi ləqəbli it dünyanın sevimlisi olub. O, başında müxtəlif meyvə şəkilləri ilə poza verərək sosial şəbəkədə populyarlıq qazanıb. Sahibi onun hər fotosunu facebookda paylaşdığı üçün heyvanı izləyənlər səbirsizliklə yeni şəkilləri gözləyirlər. 111 min nəfər qeyd edib ki, onlara heyvanın akkauntu xoş gəlir.**

Lenta.ru saytının xəbərinə görə, 7 yaşlı heyvanın sahibi meyvə və tərəvəz satır. İtin fotolarını paylaşmaqla satıcı öz məhsullarının satışını artırmaq məqsədi güdüb.



## "Bal ayı"na əri olmadan getdi

**BBDO agentliyinin Pakistandakı ofisinin əməkdaşı Huma Mobin toydan sonra "bal ayı"na Yunanıstana əri Arsalansız, tək yollanıb.**

Milli.Az bildirir ki, o, facebook-dakı səhifəsində Yunanıstanda tənha keçirdiyi istirahətin "ağrı-acılı" olduğunu göstərən fotolarını paylaşıb.

Huma və Arsalan yeddi ay əvvəl evləniblər. Onların yay ayları üçün planlaşdırdıqları "bal ayı" baş tutmayıb, çünki Arsalan Yunanıstana vizanı vaxtında rəsmiləşdirə bilməyib. Səyahətin turunun pulu ödəndiyindən Huma Yunanıstana təkbaşına yollanıb.

# Evli kişilər niyə daha çox yaşayır?

**Araşdırmalara əsasən evli kişilər subay kişilərlə müqayisədə daha çox yaşayırlar. Britaniyalı alimlər bunun bir neçə səbəbini müəyyən ediblər.**



Adətən, kişilər öz səhhətlərinə qarşı etinasızdılar. Qadınlar isə əksinə, öz orqanizmlərinə qarşı daha diqqətlidirlər. Bu səbəbdən də məhz qadınlar öz həyat yoldaşlarının səhhətində bir problem gördükdə onları həkimin qəbuluna yazılmağa məcbur edirlər.

Bundan əlavə qadınlar həyat yoldaşlarını vaxtı vaxtında dərman içməyə və həkimlərin göstərişlərinə əməl etməyə də məcbur edirlər.

İnfarkt və ya insult almış ailəli kişiləri xəstəxanaya daha tez çatdırılırlar. Bu da onların həyat yoldaşlarının operativliyinə görə baş verir.

## Facebooka görə ad-soyadını dəyişdi

**Londonda yaşayan Cemma Rocersin başına facebook ucbatından qəribə iş gəlib. Belə ki, 30 yaşlı qadın 2008-ci ildə özünə saxta profil açıb. Cemmaroid fon Laalaa adlı profil açan Cemma daha sonra sosial şəbəkə rəhbərliyi tərəfindən sorğu atəşinə tutulub. Saxta profillərin bağlanacağı xəbərdarlığını nəzərə alsaq, bu, gözlənilən addım idi. 2015-ci ilin iyununda gənc qadından facebookdakı ad və soyadının həqiqi olmasını təsdiqləməsi üçün sənəd tələb ediblər. Səhifəsinin bağlanacağından qorxan qadın isə bank kartlarının üzərinə saxta profilindəki adı qeyd edərək, onlara yollayıb. Təbii ki, sosial şəbəkə rəhbərliyi onun yalan danışdığını müəyyən edərək, səhifəsinə girişi qadağan edib. Bütün cəhdlərinə baxmayaraq, onun səhifəsi bərpa olunmayıb və gənc qadın çıxış yolu olaraq adını saxta profilindəki kimi dəyişib. O, bank kartlarında, sürücülük vəsiqəsində və qalan bütün sənədlərində fon Laalaadır. Lenta.ru saytının xəbərinə görə, Laalaa hələ də öz səhifəsinə girə bilmir: "Mən bütün şəkillərimi, paylaşımlarımı, informasiyalarımı, eləcə də dəyərli xatirələrimi itirdim".**

Facebookdan isə ona bildirilib ki, onun problemini əvvəlki kimi araşdırırlar.




## Sərnişinin havası çatmadı, təyyarənin pəncərəsini açdı

**Çində yayımlanan "South Chine Morning Post" qəzetinin xəbərinə görə, Hangzhou şəhərindən Çendguya uçuşa hazırlaşan "Xiamen" hava yolu şirkətinə aid bir təyyarədə qəza çıxış qapısının açılması ilə sərnişinlər ciddi panikaya düşüblər. Təyyarə havaya qalxmaq istəyəndə yaşanan bu hadisənin səbəbkarı isə sərnişinlərdən biri olub. Bəzi sərnişinlər gördüklərini sosial mediada paylaşmaq üçün cib telefonları ilə baş verənləri çəkiblər. Bu şəkli paylaşan sərnişinlərdən biri isə aşağıdakıları yazıb: "Bir sərnişinin qəza qapısını açdığını ilk dəfə idi ki, görürdüm. Bizə dedi ki, sadəcə təmiz hava almaq istəyir... Ümid edirəm, uçuşumuz çox da təxirə salınmayacaq".**

Hər hansı bir zərər vermədiyi üçün hava yolu şirkəti sərnişin haqda cəza tədbiri görməyəcək. Çünki bu, onun ilk uçuşu olub və etdiyi hərəkət də hər hansı itkiyə, problemə səbəb olmayıb.






**QOÇ** - Hər mənada gərgin gündür. Bu səbəbdən hətta kiməsə salam verərkən də ehtiyatlı olun. Nəqliyyata az minin, ümumiyyətlə, iqlimin təhərindən asılı olaraq daha çox ev şəraitində olmağa çalışın.



**BUĞA** - Bütün gücünüzü daxili sabitliyin bərpasına sərf edin. Onsuz da gün ərzində qeyri-adi yeniliyin şahidi olmayacaqsınız. Kosmik fonun bürcünüzdəki neqativliyini nəzərə alın.



**ƏKİZLƏR** - Pul qazanmaq üçün şanslı təqvim olsa da, münasibətlər zəminində ölçülü-biçili davranmalısınız. Ailə-sevgi davranışlarında özünüzü çoxbilmiş və haqlı kimi göstərməyin.



**XƏRÇƏNG** - Hazırda qərar tutduğunuz ünvanlarda önəmli yeniliklər gözlənilmədiyi üçün ulduzlar vaxtınızı səfər və qonaqlıqlara həsr etməyi daha münasib sayır. İmansız adamlardan qaçın.



**ŞİR** - İxtiyarınızda olan bu gündə daha çox istirahətə önəm verin. Hansısa mübahisəli məsələlərə aydınlıq gətirməyə tələsməyin. Əks təqdirdə baş verənlər əsəbləriniz tarıma çəkəcək.



**QIZ** - Son aylar sanki tam real olan bütün işləriniz boşa çıxıb. Bu səbəbdən də əsəbi və bədbin olmusunuz. Elə isə bu günə ümid bəsləməyə dəyər. Amma danışıq aparan zaman güzəştə çox getməməlisiniz.



**TƏRƏZİ** - Sağlıq durumunuzda fəsadlar gözlənilir, amma həkimlərin yanlış diaqnozu da mümkündür. Odur ki, özünüzə özünüz əncam çəkin. Xalq təbabəti üsullarından da yararlanmaq olar.



**ƏQRƏB** - Baxmayaraq ki, çoxları istirahətə köklənib, sizin üçün daha çox aktivlik ərəfəsidir. Çünki bu təqvimdə elə planlarınız həyata keçə bilər ki, növbəti yarım ayda sizə səmərə verər.



**OXATAN** - Qoroskopa görə bu günün ən aktiv bürcü siz olmalısınız. Amma özünüzü hər hansı xəstəlikdən qoruyun ki, əhvalınız aşağı düşməsin. Belə probleminiz olmasa, hər şey xeyrinizə olacaq.



**OĞLAQ** - Ötən ongünlükdə yığdığınız gərginliyi dəf etmək üçün mənəvi istirahətə, sevdiyiniz insanlarla bir araya gəlməyə daha çox yer verin. Büdcənizdə müsbət dəyişiklik də gözlənilir.



**SUTÖKƏN** - Bu gün aldığınız istənilən iş təklifinin müsbət nəticəsi olacaq. Odur ki, bəzi adamların paxıllıqdan doğan "məsləhətlərinə" əhəmiyyət verməyin. Kasıbçılığı sınaq kimi dəyərləndirin.



**BALIQLAR** - Qarşınızda əsl biznes günü durub. Odur ki, vaxtı fövtə verməməli, qarşınıza çıxan hər bir şansdan yararlanmalısınız. Köhnə ideyalara yenidən baxmaq da olar. Ünsiyyətdə acıdil olmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Kök insanlar yaddaşsızlıqdan əziyyət çəkmirlər



**Kök insanların beyni daha gec yaşlanır. Bu isə o deməkdir ki, onların alzeymıra (unutqanlıq) yaxalanma riski daha azdır. İngiltərədə aparılan araşdırmada 55 yaşı olan 2 milyon insan iştirak edib. Onların hər birinin son 20 ildəki qidalanma və yuxu rejimləri, tibbi problemləri, qəbul etdikləri dərmanlar və s. nəzərə alınıb. Nəticə göstərib ki, arıq insanların alzeymıra yaxalanmaq riski köklərdən 18 dəfə daha çoxdur. Mütəxəssislər bunun səbəbini kök insanlarda vitamin çatışmazlığı probleminə daha az rastlanması ilə əlaqələndirirlər.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750